RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 95 (9262) 9 MAY 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev Azərbaycan Respublikasının tarixində ən böyük əfv aktını imzaladı



Müasir Azərbaycan dövlətinin qurucusu, dahi siyasi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin ölkəmizin tarixində əlamətdar hadisə olduğunu vurğulayaraq, Ulu Öndərin əbədiyaşar əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək, onun bəşəri amallara, qanunçuluq və ədalət ideallarına söykənən zəngin mənəvi irsinə sadiq qalaraq, demokratik hüquqi dövlət quruculuğu istiqamətində fundamental islahatların həyata keçirilməsində Heydər Əliyevin misilsiz xidmətlərini, insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verdiyini xatırlayaraq, humanizm, mərhəmət və insanpərvərlik ənənələrini davam etdirərək, cəzadan azad olunacaq şəxslərin müstəqil dövlətimizin rifahına və cəmiyyətin inkişafına öz töhfəsini verəcəklərinə inanaraq, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il mayın 8-də "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Sərəncam imzalamışdır.

Sərəncama əsasən 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilmişdir.

Eyni zamanda bildirilməlidir ki, əfv edilmiş məhkumlardan 14-ü əcnəbidir. Sərəncamla onlardan 12-si cəzadan tam, 2-si isə cəzanın yarı hissəsindən azad olunmuşdur. Müvafiq hökmlərə əsasən cəzadan azad olunduqdan sonra 4 xarici məhkumun Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarılması nəzərdə tutulur. Digər əcnəbi məhkumlar isə milliyyətcə azərbaycanlı və ya ailə üzvləri Azərbaycan Respublikasının vətəndaşı olduğundan məcburi çıxarılma onlara tətbiq edilməyəcəkdir.

Bununla yanaşı, sərəncamla hüquq müdafiə təşkilatlarının müraciətləri əsasında 10 məhkum da cəzadan azad edilmişdir.

Onlar arasında jurnalist Elçin Məmməd, Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev də yer almış, həmçinin 5 nəfər Tərtər hadisələri, 3 nəfər isə 2018-ci ildə baş vermiş Gəncə hadisələri ilə əlaqədar məhkum edilmişdir. Həmin şəxslərin cəzalarının əsas hissəsini çəkdikləri, cəza çəkdikləri müddət ərzində davranışları, ailə vəziyyətləri və sağlamlıqları nəzərə alınaraq əfv edilməsi barədə qərar qəbul edilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə cari ilin yanvar ayından etibarən Azərbaycan Respublikası Prezidenti yanında Əfv Məsələləri Komissiyasının 14 iclası keçirilmiş və həmin iclaslarda 2400-ə yaxın sənəd müzakirə olunmuşdur.

Qeyd edilməlidir ki, bu sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır. Müqayisə üçün qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə qəbul edilmiş 2018-ci il 24 may tarixli əfv sərəncamı 634 məhkuma şamil edilmişdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə qəbul edilmiş əfv sərəncamının may ayının 10-dək icra olunması planlaşdırılır.

**Azərbaycan Respublikası Prezidentinin Mətbuat Xidməti**

### Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfəri

## Şuşada quruculuq işləri sürətlə davam edir



### Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanışlıq

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar.

2

### Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışı

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında iştirak ediblər

3



### Birinci vitse-prezident Mehriban Əliyeva instaqram hesabında Qarabağdan foto və video paylaşıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Qarabağdan foto və video paylaşıb. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

**"Viaduklar, tunellər - Şuşa yolunun yeni görkəmi. 08.05.2023".**



## "Xarıbülbül axtarışında"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Şuşadan paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: **"Xarıbülbül axtarışında. Hələ ki, tapmamışam".**






## Heydər Əliyev ili



### Heydər Əliyev irsi xalqımızın milli sərvətidir

Müasir, müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi qarşısındakı misilsiz xidmətləri Azərbaycanın dövlətçilik tarixinin ən şanlı səhifələrini təşkil edir. O, xalqını, dövlətini bütün varlığı ilə sevən, öz mənalı ömrünü xalqına, onun inkişafına həsr edən, dövlətimizin müstəqilliyinin qorunması və əbədiliyinin təmin olunması üçün fədakarcasına çalışan böyük bir dövlət xadimi, əvəzolunmaz lider olmuşdur. Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, onun əməlləri, xalqı qarşısında xidmətləri konkret zaman sərhədlərinə sığmır. Heydər Əliyevin ideyaları daim yaşayır, həm xalqımızın dünəni, həm bu günü, həm də gələcəyi ilə səsləşir. O, xalqımızın yaddaşında, milli şüurumuzda əbədilik hüququ qazanmışdır. Heydər Əliyev xalqının taleyini dəyişdirən böyük lider, əvəzolunmaz şəxsiyyətdir. O, bir-birindən kəskin fərqlənən formasiyalarda Azərbaycana çox böyük uğurla rəhbərlik etmişdir. Bu, Heydər Əliyevin nə qədər böyük istedada, idarəetmə qabiliyyətinə və yüksək liderlik keyfiyyətlərinə malik olduğunu göstərir. Həm 1969-82-ci illərdə, həm də müstəqlliyimizin bərpasından sonrakı dövrdə Ulu Öndərin bütün fəaliyyətinin nüvəsini xalqımızın parlaq gələcəyinin, qüdrətli bir dövlət kimi Azərbaycanın inkişafının təmin edilməsi təşkil etmişdir.

5

### Müstəqillik tarixinin ən böyük əfvi

Ulu Öndər Heydər Əliyev tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanıb. Bunun nəticəsində 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilib. Həmçinin 1993-2003-cü illərdə 7 dəfə amnistiya elan edilib. Amnistiya aktları törətdiyi cinayət əməlindən səmimi peşmançılıq hissi keçirən 78 mindən çox məhbusa şamil edilib, 21 min 325 nəfər cəzasının çəkilməmiş hissəsindən azad olunub.

20

### 9 May Qələbəsindən 8 Noyabr Zəfərinə

Faşizm üzərində qələbənin qazanılmasında Azərbaycanın böyük rolu olduğunu xüsusi vurğulayan Ulu Öndər Heydər Əliyev deyirdi: "Bu qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur".

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş qəhrəman oğul və qızlarımızın tarixi şücaətləri, eyni zamanda arxa cəbhədə gecə-gündüz fədakarlıqla çalışan xalqımızın nümayəndələrinin xidmətləri ölkəmizdə daim fəxr və ehtiramla yad edilir, dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

22

### "Daily Tribune" qəzeti: "Laçın" nəzarət-buraxılış məntəqəsi sülh və sabitlik üçün yaradılıb"

Cənubi Qafqaz zəngin təbii sərvətlərə malik Mərkəzi Asiya ilə bu resurslardan məhrum olan Avropa arasında yerləşir. Bu baxımdan Ermənistan və Azərbaycan arasında sülh təkcə ermənilərin və azərbaycanlıların deyil, bütün Avrasiyanın rifahına töhfə verəcək. Azərbaycanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində parlaq Qələbəsi səhifəni çevirmək, hərbi əməliyyatları arxada qoyaraq beynəlxalq hüquqa əsaslanan münasibətləri normallaşdırmaq üçün tarixi imkan yaradıb.

23

## Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfəri

# Şuşada quruculuq işləri sürətlə davam edir

## Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanışlıq













**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilən Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,7 kilometr uzunluğundakı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir. Yolun 66-81-ci kilometrliyində işlərin 85 faizi başa çatıb. Uzunluğu 15,72 kilometr olan bu hissədə yolun hərəkət sahəsinin eni 10,75 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Dövlət başçısının tapşırığına əsasən, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq dörd hərəkət zolaqlı olmaqla 1b texniki dərəcəyə uyğun inşa edilir.






Qeyd edildi ki, layihəyə əsasən, yolun bu hissəsində 5 viadukun (dərə üzərində körpü), 6 tunelin və bir körpünün tikintisi üzrə əsas işlər yekunlaşıb. Hazırda həm viaduklarda, həm də tunellərdə son tamamlanma işləri icra olunur. Viadukların tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. Yolun bu hissəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü 15 dairəvi suötürücü boru, 24 düzbucaqlı su keçidi, 4 alt keçid və bir neçə ehtiyat keçid inşa edilib.

Dövlət başçısı və birinci xanım görülən işlərlə bağlı videoçarxa baxdılar.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

## Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşaya səfəri

# Şuşada quruculuq işləri sürətlə davam edir

## Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışı





**Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində Zarıslıçay nasos stansiyasının açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlət başçısına Şuşa şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri haqqında məlumat verdi.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının bərpasına başlanılıb. Mütəxəssislər tərəfindən şəhərin su mənbələrinin, magistral xətlərin, paylayıcı şəbəkələrin və digər hidrotexniki qurğuların mövcud vəziyyəti araşdırılıb. Məlum olub ki, şəhəri içməli su ilə təmin edən mənbələr və magistral kəmərlər erməni vandallar tərəfindən məqsədli şəkildə dağıdılıb və şəhərə suyun nəqli dayandırılıb.

Təxirəsalınmaz tədbirlər proqramına uyğun olaraq, Kiçik Kirs mənbəyinin və Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunub və 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilişi bərpa edilib. Eyni zamanda Şuşa şəhərinin digər mənbəyi - Zarıslı sugötürücü qurğusunun, uzunluğu 14,3 kilometr olan Zarıslı-Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanılıb və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edilib.

Şəhərin perspektiv inkişafı nəzərə alınaraq həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanılıb. Bu məqsədlə Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr təşkil edən sutoplayıcı anbar, nasos stansiyası və diametri 159 millimetr, uzunluğu 2,9 kilometr olan yeni təzyiqli kəmər inşa edilib, eyni zamanda diametri 325 millimetr, uzunluğu 9,3 kilometr olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,2 kilometrlik hissəsi diametri 530-426 millimetr olan borularla əvəzlənib. Görülmüş işlərin nəticəsində 2022-ci ilin dekabrında yeni mənbədən suyun verilməsi ilə şəhərdə yaşayış olan evlər, dövlət qurumlarının inzibati binaları, hotellər, ictimai-iaşə müəssisələri və digər obyektlər fasiləsiz içməli su ilə təmin edilib.

Dövlət başçısı nasos stansiyasını işə saldı.

Məlumat verildi ki, 2040-cı ilə perspektiv inkişaf nəzərə alınmaqla hazırlanan Şuşa şəhərinin su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsi 25 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Layihəyə əsasən, şəhərin orta gündəlik su tələbatı 105 litr-saniyə təşkil edir. Şəhərə içməli su mövcud Kiçik Kirs, Zarıslı mənbələrindən, həmçinin Zarıslıçay su anbarından veriləcək. Gələcəkdə Zarıslıçay su anbarı genişləndiriləcək və tutumu 25 min kubmetrdən 7,5 milyon kubmetrə çatdırılacaq. Eyni zamanda məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğu inşa olunacaq. Şəhərin su təchizatında dayanıqlılığın təmin olunması məqsədilə ümumi həcmi 6 min kubmetr olan 3 su anbarı layihələndirilib və hazırda onlardan birinin tikintisi davam etdirilir.

Layihəyə əsasən, Şuşa şəhərində 24 kilometr magistral su kəməri, 44 kilometr içməli, 42 kilometr tullantı və 41 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşan tullantı sularının tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Qurğuda emal edilərək təmizlənən su ekoloji duruma zərər vurmadan Qarqarçaya axıdılacaq. Şuşa şəhərində yaradılan yeni infrastruktur "ağıllı su" sistemi əsasında idarə olunacaq. Suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə onlayn rejimdə tənzimlənəcək. 2023-cü ilin ikinci yarısında məhsuldarlığı sutkada 8 min kubmetr olan içməli sutəmizləyici qurğunun inşası nəzərdə tutulur ki, bu işlərə də 7,4 milyon manat vəsait sərf olunacaq.






# Milli Məclisin təşkilatçılığı ilə yaşıllaşdırma aksiyası keçirilib








Mayın 7-də Milli Məclisin təşkilatçılığı ilə Müşfiqabad qəsəbəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş yaşıllaşdırma aksiyası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, yaşıllaşdırma aksiyasında Milli Məclisin Sədri Sahibə Qafarova, Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclis Sədrinin müavinləri Adil Əliyev, Fəzail İbrahimli, komitə sədrləri, deputatlar və parlament aparatının kollektivi iştirak ediblər.

Yaşıllaşdırma aksiyasında iştirak edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, aksiyada eldar şamı və zeytun ağacları əkilib.

Aksiyanın məqsədi ekoloji vəziyyətin sağlamlaşdırılması, cəmiyyətdə ekoloji mədəniyyətin və təbiətə qayğının təbliği ənənələrini davam etdirmək, ağac əkilməsini və yaşıllıqların çoxaldılmasını təşviq edərək ətraf mühitin qorunmasına töhfə verməkdir.

***"Azərbaycan"***

# Türkiyə ilə hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib



Mayın 8-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müdafiə naziri qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Nazir qardaş ölkə ilə digər sahələrdə olduğu kimi hərbi təhsil sahəsində də əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib.

Yenidən ölkəmizə səfər etməsindən razılıq ifadə edən professor E.Afyoncu isə öz növbəsində göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Ölkələrimiz arasında digər sahələrdə olduğu kimi hərbi təhsil sahəsində də əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayıb.

Görüşdə hərbi təhsil sahəsində birgə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Daha sonra türkiyəli nümayəndə heyəti müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevlə görüşüb.

Görüşdə Türkiyə Milli Müdafiə Universiteti ilə qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının Azərbaycan Ordusunda peşəkar kadr heyətinin formalaşmasına müsbət təsir etdiyi qeyd edilib və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# YAP-ın nümayəndə heyəti Manisada Yunus Əmrə bələdiyyəsini ziyarət edib



Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyətinin Türkiyənin Manisa şəhərinə səfəri davam edir.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti mayın 8-də Manisa şəhərində Yunus Əmrə Bələdiyyəsinin sədri ilə görüşüb.

Görüşdə çıxış edən bələdiyyə sədri Mehmet Çerçi 44 günlük savaşda Türkiyə vətəndaşlarının da ürəyinin Azərbaycanla döyündüyünü bildirərək deyib: "İkinci Qarabağ müharibəsində qazandığınız Zəfər bizi çox sevindirdi. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sayəsində hər iki ölkə gələcəyə doğru inamla irəliləyir. Bizim qardaşlığımız daim var olacaq".

Sonra çıxış edən Manisa Azərbaycan Mədəniyyət Evinin rəhbəri Seyfəddin Ayakyay bildirib ki, Manisada Azərbaycan parkı var. Həmin parkda Heydər Əliyev Evinin yaradılması nəzərdə tutulub. "Azərbaycan Prezidenti İlham Əliyevin "Bir millət, iki dövlət, tək yumruq" şüarı düşmənlərimizə bizim birliyimizin gücünü göstərir. Türkiyə-Azərbaycan əlaqələri heç vaxt indiki qədər möhkəm olmayıb", - deyə o qeyd edib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov Türkiyənin artıq beynəlxalq aləmdə aparıcı aktorlardan birinə çevrildiyini vurğulayıb. Qeyd olunub ki, bu gün Azərbaycan-Türkiyə əlaqələri ən yüksək səviyyədədir. Türklər dövlətçilik ənənələrinə sadiqdirlər. "TCG Anadolu" hərbi gəmisi, "Bayraktar TB3", "Kızılelma" PUA-ları bu ölkənin necə sürətlə inkişaf etdiyinin sübutudur. "Bu gün Türkiyənin ədalətli mövqe tutması beynəlxalq arenada onun gücünə güc qatır. YAP və AK Partinin ortaq məqsədləri var - Türkiyənin və Azərbaycanın gücünə güc qatmaq. Bir çox ölkələr Azərbaycan-Türkiyə münasibətlərinə həsəd aparır. Qardaş ölkə regionda sülh üçün çalışır", - deyə o bildirib.

Sonda hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

# İnsan alverinə qarşı mübarizəyə dair illik məlumat müzakirə olunub

Mayın 8-də Milli Məclisin İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. İclasda İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair illik məlumatı müzakirə edilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, illik məlumat barədə danışan Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, dövlətimiz həmişə insan alveri ilə mübarizə istiqamətində ciddi siyasi iradə nümayiş etdirib. O, Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin illik məlumatlarının təqdim olunmasını ölkəmizin hüquq-mühafizə siyasətində və insan hüquqlarının qorunması sahəsində mütərəqqi ənənə kimi dəyərləndirib.

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında 2022-ci ildə insan alverinə qarşı mübarizəyə dair məlumatını qısa şərh edən komitə sədri bildirib ki, sənəddə insan alveri ilə mübarizə sahəsindəki vəziyyət əhatəli və sistemli şəkildə təqdim olunub. Məlumatda yer alan müvafiq qurumların təhlillərinə və statistikaya diqqət çəkən komitə sədri insan alveri cinayətlərinin dinamikasının azalmasını pandemiya dövründə tətbiq edilən məhdudiyyətlər səbəbindən prosesin gizli, xüsusən də internet müstəviyə keçməsi ilə bağlayıb.

Komitə sədri nazirliyin parlamentlə əməkdaşlığa önəm verməsindən söz açaraq məlumatda yer alan qanunsuz miqrasiya, məcburi əmək, insan alveri cinayəti faktları ilə bağlı fikirlərini bildirib, Daxili İşlər Nazirliyinin həyata keçirdiyi tədbirlərin əhəmiyyətindən bəhs edib. O, insan alveri kimi mürəkkəb cinayətlə mübarizədə dövlət və hakimiyyət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının koordinasiyalı fəaliyyətinin, yeni yanaşmaların tətbiqinin önəmini vurğulayıb.

Sonra DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəisi polis general-mayoru Həzi Aslanov İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatını təqdim edib. O bildirib ki, Azərbaycanda insan alverinə qarşı mübarizəyə dövlət, hökumət və parlament səviyyəsində verilən böyük dəstək sayəsində 2022-ci ildə də sözügedən əməllərin profilaktikasının və cinayət təqibinin ən yüksək səviyyədə təşkil olunmasına tam imkan yaradılıb.

Həzi Aslanov "İnsan alverinə qarşı mübarizə üzrə 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq insan alverinə qarşı mübarizənin təkmilləşdirilməsindən ötrü qanunvericiliyə edilən müvafiq dəyişikliklərdən, metodiki vəsaitlərin hazırlanmasından, qurbanlarla işin təkmilləşdirilməsindən, onlara göstərilən xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılmasından, aparılan təbliğat, maarifləndirmə işlərindən danışıb. O, hesabat ilində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinin də diqqət mərkəzində saxlanıldığını deyərək vurğulayıb ki, ABŞ Dövlət Departamentinin 2022-ci ilin iyun ayında insan alverinə qarşı mübarizəyə dair yayımladığı hesabatda ölkəmiz bir pillə irəliləyərək ikinci sıra ölkələr siyahısında yer tutub, sənəddə ölkəmizin fəaliyyəti alqışlanıb.

Hesabat ilində həyata keçirilmiş müvafiq əməliyyat-axtarış tədbirlərinin nəticələrini diqqətə çatdıran idarə rəisi 2022-ci ildə 157 insan alveri, 3 məcburi əmək, habelə insan alveri məqsədilə sənədlərlə 44 qanunsuz hərəkət üzrə cinayətin qeydə alındığını bildirib. Bundan başqa, insan alveri cinayəti törətdiklərinə görə 15 şəxs (2-si kişi, 13-ü qadın) məhkəmə məsuliyyətinə cəlb edilib. Onlardan məhkəmələr tərəfindən ittiham hökmü çıxarılmış 12 nəfərindən 9-u 7 ildən 10 ilədək, bir nəfər 3 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşdu. Hesabat ilində 94 insan alveri qurbanı (93 qadın, 1 kişi) müəyyən edilib və zərərçəkmişlərin reabilitasiyası, reinteqrasiyası üçün zəruri tədbirlər görülüb.

Polis general-mayoru Həzi Aslanov çıxışının sonunda bu mühüm sahədə dövlət siyasətinin həyata keçirilməsində verdiyi dəstəyə, səmərəli əməkdaşlığa görə parlamentə, vətəndaş cəmiyyətinə və mediaya təşəkkürünü bildirib.

Sənədin müzakirəsində deputatlar Razi Nurullayev, Naqif Həmzəyev, Vüqar İskəndərov, Jalə Əhmədova, Elşad Mirbəşiroğlu, Elman Nəsirov, QHT nümayəndələri Kəmalə Ağazadə, Mehriban Zeynalova, Sahib Məmmədov, Əliməmməd Nuriyev, Mahirə Əmirhüseynova, Gülayə Səfərova təqdim olunan illik məlumatı müsbət qiymətləndiriblər. Məsələ ilə bağlı çıxış edənlər insan alveri və məcburi əmək cinayətlərini doğuran səbəblər, cinayətlərin dinamikası, profilaktikası, insan alveri qurbanlarının reabilitasiyası, insan alverinə qarşı mübarizədə koordinasiyanın artırılması, həmçinin gender aspektinin, miqrasiya proseslərinin, eyni zamanda internet və sosial şəbəkələrin insan alveri cinayətlərinin dinamikasına təsiri kimi məsələlərlə bağlı fikirlərini bildiriblər. Onlar sosial şəbəkələr üzərindən həyata keçirilən insan alveri hallarına, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsinə diqqətin artırılması kimi məsələlərlə bağlı rəylərini səsləndiriblər.

DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəisi polis general-mayoru Həzi Aslanov qaldırılan məsələlərə aydınlıq gətirərək səsləndirilən sualları cavablandırıb.

Müzakirələrə yekun vuran İnsan hüquqları komitəsinin sədri Zahid Oruc komitələrin birgə iclasının səmərəli və işgüzar şəraitdə keçdiyini deyərək Azərbaycanın insan alveri ilə mübarizə istiqamətində ciddi siyasi iradə nümayiş etdirdiyini vurğulayıb.

İclasın sonunda deputatlar İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatını Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

***"Azərbaycan"***

# *XİN:* "Girov götürülmüş Azərbaycan hərbçilərinə qarşı qurama iddia və "məhkəmə prosesi"ni qınayırıq"

Cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində Azərbaycan Ordusunun itkin düşmüş və Ermənistan tərəfindən əsir götürülmüş əsgərləri Bəbirov Aqşin Qabil oğlu və Axundov Hüseyn Əhliman oğluna qarşı Ermənistanın qurama "məhkəmə prosesi"ni və Aqşin Bəbirovun həbsi ilə bağlı qondarma "qərar"ı qətiyyətlə qınayırıq.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin girov götürülmüş Azərbaycan hərbçilərinə qarşı qurama iddia və "məhkəmə prosesi"nə dair şərhində bildirilir.

Şərhdə deyilir: "Azərbaycan əsgərlərini qəddar fiziki işgəncələrə məruz qoyan Ermənistan bu kimi qurama "məhkəmə prosesi" vasitəsilə onları həmçinin mənəvi və psixoloji işgəncələrə məruz qoyur.

Bu cür məsuliyyətsiz davranışı ilə Ermənistan beynəlxalq humanitar hüquqa əsasən daşıdığı hüquqi məsuliyyətə, beynəlxalq ictimaiyyətin girovların azad edilməsi barəsində çağırışlarına və humanizm prinsiplərinə məhəl qoymadığını bir daha nümayiş etdirir.

Ermənistan tərəfinin bu qurama addımı ilə ölkəmizin erməni girovlarının, xüsusilə də yolu azaraq sərhədi keçmiş 10-dan artıq hərbçini heç bir qeyd-şərt irəli sürmədən dərhal geri qaytarılması üzrə etimad quruculuğu tədbirinə qarşılıq verməməsi Ermənistanın bölgədə barışıq və etimad yaradılması tədbirlərində maraqlı olmadığını göstərir. Bu davranışla etimad quruculuğu səylərinə zərbə vurulması məsuliyyəti tam olaraq Ermənistan tərəfinin üzərinə düşür.

Ermənistan beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması ilə müşayiət olunan bu təxribatçı fəaliyyətinə son qoymalı, girov götürülmüş əsgərləri dərhal azad etməlidir.

Girovluqda olan əsgərlərimizin tezliklə azad edilməsi və ailə üzvlərinə qovuşması üçün bütün beynəlxalq ictimaiyyəti, aidiyyəti beynəlxalq təşkilatları və qeyri-hökumət təşkilatlarını Ermənistana ciddi təsir və təzyiq göstərməyə çağırırıq".

# Hərbi hissələrdə komanda-qərargah təlimləri keçirilib

Bu ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun hərbi hissələrində komanda-qərargah təlimləri keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimlərdə tapşırıqların icrası ilə bağlı fəaliyyətlər xəritə üzərində dəqiqləşdirilib, bölmələrin qarşılıqlı fəaliyyəti və qərargahların vahid idarəetmə orqanı kimi uzlaşması yoxlanılıb. Həmçinin qəbul olunmuş qərarlara dair tapşırıqlar kompüter üzərində icra edilərək qiymətləndirilib, komandirlər tərəfindən qərarların məruzələri dinlənilib.

Komanda-qərargah təlimlərinin keçirilməsində əsas diqqət bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin idarəetmə qabiliyyətinin və çevik qərar qəbuletmə bacarıqlarının artırılmasına, eləcə də qərargahların fəaliyyətinin və bölmələr arasında qarşılıqlı əlaqənin daha da təkmilləşdirilməsinə yönəldilib.

Təlimlərdə qarşıya qoyulan tapşırıqlar hərbi qulluqçular tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib.



# Heydər Əliyev İli 2023

*Əvvəli 1-ci səh.*

## Heydər Əliyev irsi xalqımızın milli sərvətidir



### Azərbaycan tarixində dönüş nöqtəsi

1969-cu ilin iyul plenumu ərəfəsində Azərbaycan keçmiş ittifaq miqyasında ən geridə qalmış aqrar respublikalardan biri idi. Respublika həyatının bütün sahələrində ciddi tənəzzül meyilləri baş qaldırmış, xüsusilə iqtisadiyyat dərin böhran mərhələsinə qədəm qoymuşdu. Təbii ki, belə bir məqamda vəziyyəti dəyişdirmək, prosesləri müsbət məcraya yönəltmək üçün dərin biliklərə, yüksək idarəetmə qabiliyyətinə və sarsılmaz iradəyə sahib rəhbərə ehtiyac duyulurdu. Yalnız bu ali keyfiyyətlərə malik olan şəxsiyyətin liderliyi ilə xalqın vahid məqsəd naminə təşkilatlanmasına nail olmaq və respublikanın taleyində dəyişiklik etmək mümkün idi. Ona görə də Heydər Əliyevin respublikamıza ilk dəfə rəhbər seçilməsinin tarixi əhəmiyyəti olduqca böyük idi və biz həmin dövrü xarakterizə edərkən haqlı olaraq onu Azərbaycan tarixində dönüş nöqtəsi kimi dəyərləndiririk.

Çox qısa zaman ərzində Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda geniş vüsət alan islahatlar, iqtisadi və sosial sahələrdə əldə edilən nailiyyətlər xalqın maddi-rifah halının keyfiyyətcə yeni mərhələyə yüksəlməsini şərtləndirmişdir. Heydər Əliyevin idarəçilik modelinin üstün keyfiyyətlərindən biri ondan ibarətdir ki, o, məsələlərə daim konseptual yanaşır, onların həllinə islahatlar yolu ilə nail olunmasına üstünlük verirdi. 1970-ci illərin əvvəllərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikanın iqtisadi inkişafını təmin etmək məqsədilə çoxşaxəli inkişaf konsepsiyası hazırlanmış və icrasına başlanılmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində respublikanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatına mənfi təsir göstərən meyillər müəyyənləşdirilərək aradan qaldırılmış, ənənəvi təsərrüfat sahələrinin səmərəli fəaliyyətinin bərpası ilə yanaşı, yeni istehsal sahələri yaradılmışdır.

Qlobalmiqyaslı şəxsiyyət, böyük siyasət ustası Heydər Əliyevin idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərk, xalqın tarixi yaddaşının özünə qaytarılması təşkil etmişdir. Bu gün müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji əsasını təşkil edən azərbaycançılıq ideyasının bünövrəsinin qoyulması, onun mükəmməl bir konsepsiya şəklində irəli sürülməsi və icrası da azərbaycanlı olması ilə həmişə fəxr etmiş, milli kimliyimizi fəxarət mənbəyinə çevirmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan cəmiyyətinin milli özünüdərkə dönüşü, Azərbaycan xalqının gerçək tarixinin öyrənilməsi, milli ədəbiyyat nümunələrinin, adət-ənənələrinin təbliğ olunması, milli ruhun oyanması mərhələsinin əsası da ötən əsrin 70-ci illərində Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1970-ci illərin əvvəllərindən etibarən Heydər Əliyev Azərbaycan dilini dövlət, sovet və partiya orqanlarında işlək dilə çevirməyə başladı. 1978-ci il Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" maddəsinin daxil edilməsi Ulu Öndər Heydər Əliyevin qətiyyətinin, onun öz xalqına olan sonsuz sevgisinin daha bir örnəyi idi. Həmin dövrdə bu məsələni həll etməyə yalnız Heydər Əliyev kimi böyük lider nail ola bilərdi. Biz onun xalqımızın milli-mənəvi dəyərlərinə, tarixi irsinə münasibətdə ortaya qoyduğu mövqedə də xalqına, millətinə böyük sevgisinin şahidi oluruq.

O, dövlət idarəetmə sisteminin milliləşdirilməsinə və milli kadr potensialının hazırlanmasına daim xüsusi diqqət göstərmişdir. 1969-82-ci illərdə azərbaycanlı gənclərin Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin aparıcı ali elm və təhsil ocaqlarına göndərilməsi Azərbaycanın gələcək inkişafı üçün güclü kadr potensialının formalaşdırılmasına xidmət etmiş, həmin dövrdə yaxşı təhsilə yiyələnmiş kadrlar Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə quruculuq və inkişaf proseslərində fəallıq göstərmişlər. Azərbaycanın yüksək peşəkarlığa malik hərbi kadrlarının hazırlanması istiqamətində ilkin addımlar da həmin dövrdə atılmışdır. Ulu Öndər Heydər Əliyev böyük cəsarət və uzaqgörənliklə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılmasına nail olmuş, bununla yanaşı, gənc azərbaycanlı oğlanların ittifaq miqyasında tanınmış ali hərbi məktəblərə cəlb olunması işinə xüsusi diqqət yetirmişdir. Ümummilli Lider Heydər Əliyev 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə demişdir: **"Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər".**

Beləliklə, Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi 1969-82-ci illər, Heydər Əliyevin təbirincə desək, **Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur.** Həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikanın müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün sarsılmaz bir zəmin formalaşdırmışdır. Möhtərəm Prezident İlham Əliyev Ulu Öndərin həmin dövrdəki xidmətlərini təhlil edərkən demişdir: **"Sanki o, Azərbaycanın gələcəyini görürdü. Sanki bilirdi ki, Azərbaycan müstəqil olacaq, xalqımız azad olacaq. Azərbaycan dünya birliyinin üzvü olacaqdır".**

### Heydər Əliyevin varlığı Azərbaycana qarşı separatizm və işğal planlarını alt-üst edirdi

Heydər Əliyevin respublikamıza böyük uğurla rəhbərlik etməsi, yüksəksəviyyəli idarəçilik qabiliyyəti, şəxsiyyətinə olan böyük hörmət onun keçmiş ittifaq miqyasında da nüfuzunun getdikcə artmasını və ittifaq rəhbərliyinə qədər yüksəlməsini şərtləndirmişdir. Heydər Əliyev 1976-cı ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir. Bu vəzifədə çalışarkən keçmiş ittifaq miqyasında ən böyük layihələrə, strateji əhəmiyyətli tədbirlərə məhz Heydər Əliyev rəhbərlik etmiş, üzərinə götürdüyü vəzifələri layiqincə yerinə yetirmişdir.

1987-ci ilin oktyabrında Sov.İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib M.S.Qorbaçovun yeritdiyi yanlış xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermişdir. Bundan sonra xalqımız üçün problemlər, çətinliklər başlamış, respublikamıza qarşı o vaxta qədər Heydər Əliyev şəxsiyyətinin böyüklüyünün, güclü Heydər Əliyev amilinin qarşısını aldığı təxribat planları, məkrli iddialar baş qaldırmışdır. Azərbaycanın ərazi bütövlüyünə qarşı təhdidlər, separatçı meyillər geniş vüsət almışdır. Möhtərəm Prezident İlham Əliyev o dövrü təhlil edərkən, vurğulamışdır ki, ***Heydər Əliyevin varlığı, onun sovet rəhbərliyində böyük nüfuza malik olması Azərbaycana qarşı separatizm və işğal planlarını alt-üst edirdi. Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra iki həftə keçməmiş erməni separatçıları məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın, Ermənistana verilsin. Bizim xalqımızın bəlaları o gündən başladı.***

1980-ci illərin sonunda Azərbaycana qarşı ermənilərin işğalçılıq siyasəti baş qaldırmağa başladı və zaman keçdikcə ermənilər tərəfindən törədilən təxribatların miqyası daha da genişləndi.

1990-cı ilin 20 yanvar tarixində isə Azərbaycan xalqına qarşı qanlı qırğınlar törədildi. 20 Yanvar faciəsinə ilk etiraz səsini ucaldan məhz Ulu Öndər Heydər Əliyev olmuşdur. O, hadisənin ertəsi günü - yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, bu vəhşiliyi qətiyyətlə pisləmiş, onun törədilməsi səbəblərini, təşkilatçılarının, günahkarlarının adını açıq mətnlə bəyan etmiş, Azərbaycan xalqı ilə həmrəyliyini ifadə etmişdir. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verərək, başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırmışdı. Bu tarixi çıxış, Heydər Əliyev kimi böyük bir şəxsiyyətin bəyanatı dünya ictimai rəyini xalqımıza qarşı törədilən bu qanlı qırğınlara yönəltmiş, beynəlxalq ictimaiyyət Ulu Öndər tərəfindən məlumatlandırılmışdır. Ümummilli Lider bu qanlı cinayətə etiraz olaraq, daha bir cəsarətli addım ataraq, özünə və ailə üzvlərinə qarşı təzyiqlərə baxmayaraq, kommunist partiyasının sıralarını tərk etmişdir.

Heydər Əliyev həmin il iyulun 20-də Bakıya dönsə də, respublikanın ovaxtkı rəhbərliyi onun Bakıda yaşamasına imkan verməmiş və iyulun 22-də Ulu Öndər Heydər Əliyev doğulduğu Naxçıvan Muxtar Respublikasına getmişdir. Baxmayaraq ki, Ulu Öndər özünün də dediyi kimi, Azərbaycana öz xalqının yanında olmağa və azadlıq uğrunda mübarizəsinə qoşulmağa gəlmişdi, müəyyən dairələrin direktivləri ilə hərəkət edən hakimiyyət qüvvələri onun nüfuzundan, xalqımızın öz liderinə sonsuz sevgisindən narahat olur, hər vəchlə Heydər Əliyevin fəaliyyətinə maneələr yaratmağa, bəzi hallarda isə təxribatlar törətməyə cəhdlər edirdilər. Bütün bunlar təbii ki, Heydər Əliyev kimi nəhəng siyasətçini öz yolundan döndərə bilməzdi və o, xalqımızı həqiqi azadlığa aparacaq yolda qətiyyətlə irəliləyirdi.

Ümummilli Lider Heydər Əliyevin Naxçıvana dönüşü onun xilaskarlıq missiyasının növbəti mərhələsini təşkil edir. Çünki həmin dövrdə onsuz da respublikada vəziyyət çox gərgin idi. Sirr deyil ki, ermənilərin Azərbaycana qarşı işğal planlarında Naxçıvan ilk sıralarda dayanırdı. Mərkəzi hakimiyyətin məsuliyyətsiz yanaşması Naxçıvanı daha ağır ssenarilərlə üz-üzə qoymuşdu. Heydər Əliyevin Naxçıvana qayıtması bütün məkrli planları alt-üst etdi və muxtar respublika Heydər Əliyevin müdrikliyi, cəsarəti sayəsində xilas oldu.

1990-cı il noyabrın 17-də muxtar respublikanın ali qanunvericilik orqanında Heydər Əliyevin təşəbbüsü ilə Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı. Heydər Əliyevin sədrliyi ilə keçən həmin tarixi sessiyada muxtar respublikanın rəsmi adından "Sovet Sosialist" sözləri çıxarıldı, qanunvericilik hakimiyyəti orqanının adı dəyişdirilərək "Ali Məclis" adlandırıldı. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası yaradıldı. Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyi və xalqımız qarşısında çox böyük xidmətlər göstərmiş, müstəqilliyin möhkəmləndirilməsi, ölkəmizin inkişafı istiqamətində görülən tədbirlərə böyük töhfələr vermişdir.

### Ulu Öndər Heydər Əliyevin liderliyi ilə Azərbaycan xalqı öz milli dövlətini qurmağı, qorumağı və yaşatmağı bacarmışdır

Bu gün dünyada 4 mindən artıq xalq mövcuddur və heç də bu xalqların hamısı dövlət qurmaq, öz dövlətinə sahib olmaq xoşbəxtliyini yaşamayıb. Bu sırada tarixin müəyyən dövrlərində öz milli dövlətini yaratmış, lakin sonradan onu qorumağı bacarmayaraq, başqa bir dövlətin tərkibində yaşamağa məcbur olmuş xalqlar da var. Dünyanın qabaqcıl xalqlarının inkişaf və təkamül tarixinə nəzər salanda, bir inkarolunmaz gerçəklik də aydın şəkildə özünü göstərir ki, bu da xalqların intibahında liderlərin əvəzolunmaz roludur. Liderlər ən mürəkkəb anlarda, mənsub olduqları xalq tarixi seçim qarşısında qalanda onu zamanın burulğanlarından uğurla çıxarır, öz xalqının dünya xalqları sırasında yerini müəyyənləşdirir. Azərbaycan xalqı üçün belə bir lider, zamanın fövqündə dayanan nəhəng şəxsiyyət məhz Ulu Öndər Heydər Əliyev olmuşdur. Əgər bu gün müstəqil Azərbaycan dövləti yaşayırsa, inkişaf edirsə, bu ilk növbədə Heydər Əliyevin titanik fəaliyyəti, onun ölməz ideyaları ilə bağlıdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində - Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının ilk illərində ölkəmizdə baş verən hadisələri yenidən nəzərdən keçirsək, Ulu Öndər Heydər Əliyevin nə qədər mürəkkəb bir tarixi şəraitdə hansı böyük tarixi missiyanı yerinə yetirdiyini bir daha dərk edərik. Bu, o dövr idi ki, Azərbaycanın dövlət müstəqilliyi, milli dövlətçiliyimiz yenidən təhlükə ilə üzləşmiş və Azərbaycan əsrin əvvəllərində yaşadığı sonluğa doğru sürüklənirdi. Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, **1993-cü ilə qədər bizim dövlət müstəqilliyimiz şərti xarakter daşıyırdı. Atributlar var idi, ancaq ölkə müstəqil siyasət apara bilmirdi.** Ölkədə cərəyan edən gərgin ictimai-siyasi hadisələr həyatın bütün sahələrində dərin böhran meyilləri ilə müşayiət olunurdu. Respublikada siyasi və hərbi vəziyyət daha da gərginləşmiş, hakimiyyət böhranı baş vermiş, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Hərbi hissələrdə nizam-intizamın zəifləməsi, orduda vahid komandanlığın və təşkilatçılığın olmaması Ermənistanın işğalçılıq siyasətinin və ərazilərimizin işğalının daha da genişlənməsinə gətirib çıxarmışdı. Respublikanın bir çox rayonlarında qanun pozuntuları, hakimiyyətə yaxın qrupların özbaşınalığı, hərc-mərclik və zorakılıq hallarının artması dövlətin hələ kövrək olan sütunlarını tamamilə sıradan çıxarmışdı. O dövrdə hakimiyyəti qəsb etmiş qüvvələr Azərbaycanın üzləşdiyi problemləri aradan qaldırmaq iqtidarında deyildi. Ona görə də Azərbaycan xalqı ölkəmizi bu qədər ağır problemlər girdabından yalnız özünün inandığı, bacarığına və şəxsiyyətinə dərin etimad göstərdiyi böyük oğlu Heydər Əliyevə üz tutdu və onu təkidlə hakimiyyətə dəvət etdi. Məhz Heydər Əliyevin liderliyi ilə Azərbaycan xalqı öz milli dövlətini qurmağı, qorumağı və yaşatmağı bacarmışdır. Bu gün Azərbaycan dövləti müstəqil bir dövlət kimi yaşayırsa və inkişaf edirsə, bu, ilk növbədə **"Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir"** deyən Ulu Öndər Heydər Əliyevin gərgin zəhmətinin, fədakarlığının və qətiyyətinin nəticəsidir.

### Heydər Əliyev milli enerjini milli gücə çevirməyi, cəmiyyəti vahid amal və milli ideya ətrafında səfərbər etməyi müvəffəqiyyətlə bacarmışdır

Heydər Əliyev hansı vəzifədə çalışmasından asılı olmayaraq, o, hər zaman xalqın iradəsinə arxalanır, gücünü xalqın birliyindən alırdı. Ulu Öndər milli enerjini milli gücə çevirməyi, cəmiyyəti vahid amal və milli ideya ətrafında səfərbər etməyi müvəffəqiyyətlə bacarırdı. Heydər Əliyev böyük dövlət xadimi və təcrübəli siyasətçi kimi onu da gözəl bilirdi ki, hər bir cəmiyyətin, dövlətin inkişafının təməlində sabitlik amili dayanır. Sülh və əmin-amanlıq olmayan yerdə inkişafdan danışmaq mümkün deyil. Bunun yolu isə milli birlikdən, vətəndaş həmrəyliyindən keçir. Ümummilli Lider dövlətçilik tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun tarixində Azərbaycan Ali Sovetinin sədri seçiləndən sonra xalqı müstəqilliyin qorunması və onun əbədiliyinin təmin edilməsi vəzifəsi uğrunda yumruq kimi birləşdirərək, tarixi bir missiyanı uğurla yerinə yetirməyə nail olmuşdur.

Heydər Əliyevin rəhbərliyi ilə çox qısa zamanda respublikamızda vətəndaş müharibəsi təhlükəsinə, separatçı meyillərə son qoyulmuş və ictimai-siyasi sabitlik təmin olunmuş, Azərbaycanın inkişaf strategiyası hazırlanmış, çoxşaxəli islahatlar kursu həyata keçirilməyə başlanmışdır. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ilə xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və enerji ehtiyatlarının ölkənin inkişafına, onun potensialının yüksəldilməsinə yönəldilməsi Azərbaycana xarici sərmayələrin cəlb olunmasına, iqtisadiyyatın müxtəlif sahələrinə böyük həcmlərdə sərmayə qoyuluşunun təşviq olunmasına, neft gəlirlərinin insan kapitalının formalaşdırılmasına yönəldilməsinə geniş imkanlar yaratmışdır. Heydər Əliyev yeni şəraitdə ölkənin xarici siyasət istiqamətlərini müəyyənləşdirmiş, Azərbaycanın beynəlxalq münasibətlərinin yaradılması və inkişafı istiqamətində yorulmadan fəaliyyət göstərmişdir. Həmçinin gənc respublikamızın demokratik inkişafı, ölkəmizdə hüquqi dövlət və cəmiyyət quruculuğunun möhkəm təməllərinin yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1995-ci ildə Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması ölkəmizdə Azərbaycanda hakimiyyət bölgüsünün, qanunun aliliyinin, insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat azadlığının, demokratik institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yaratmışdır.

1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər Azərbaycanda sabitlik və əmin-amanlığın təmin olunması ilə yanaşı, ölkənin müstəqil inkişaf relslərinə çıxarılmasını, bütün sahələrdə tarixi nailiyyətlərin əldə olunmasını şərtləndirmişdir. Bu gün Azərbaycanda həyatın elə bir sahəsi, elə bir platforma yoxdur ki, orada Heydər Əliyevin gərgin zəhməti, onun parlaq izləri görünməsin. Ona görə də müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı var olduqca, yaşadıqca, Heydər Əliyevin şərəfli adı yaşayacaq!

### Azərbaycan parlamentarizm tarixinin şərəfli mərhələsi

Ulu Öndər Heydər Əliyevin Azərbaycan parlamentinə rəhbərliyi bir neçə ayı əhatə etsə də, bu dövr qanunverici orqanın tarixində müstəsna əhəmiyyətə malikdir və parlamentarizm tariximizin şərəfli bir mərhələsini təşkil edir. Heydər Əliyevin Ali Sovetin sədri kimi fəaliyyəti dövlət müstəqilliyinin möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə yönəlmişdi. O, Ali Sovetin iclasındakı çıxışında qeyd etmişdir: **"Ali Sovetin sədri kimi, Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm".**

Azərbaycanın qanunverici orqanının demokratik, milli maraqları müdafiə edən təsisat kimi fəaliyyətinin əsasları məhz həmin tarixdən qoyulmuşdur. Ölkənin bu gərgin vəziyyətində proseslərin mərkəzində parlament dayanırdı, xalqın nəzər-diqqəti bura yönəlmişdi. Çünki Azərbaycan xalqı görürdü və bilirdi ki, o dövrə qədər siyasi intriqaların, hakimiyyəti zəbt etmiş siyasi qrupların şəxsi mənafe çəkişmələrinin mərkəzində dayanan parlament Heydər Əliyevin rəhbərliyi ilə tamamilə yeni bir ampluada çıxış etməyə başlamış və onun demokratik imici bərpa olunmuşdu. Parlamentin rəhbəri böyük fədakarlıq və cəsarət göstərərək yorulmadan xalqı düşdüyü bu ağır durumdan xilas etməyə çalışırdı. Heydər Əliyev qısa müddətdə parlamentin ruhunu kökündən dəyişmiş, Milli Məclisə siyasi mədəniyyət gətirmişdir. Bu dövrdə qanunvericilik sahəsində bir çox mühüm addımlar atılmış, ordu quruculuğu sahəsində vacib qərarlar qəbul edilmişdir. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər edilmiş, baş verən hadisələrə hüquqi, siyasi qiymət verilməsi istiqamətində müvafiq qərarlar qəbul olunmuşdur.

Bu dövrdə həmçinin ictimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görülməyə başlandı. Parlamentdə keçən gərgin müzakirələrin xalqa olduğu kimi təqdim olunması, cəmiyyətin baş verənlər haqqında müfəssəl məlumatlar əldə etməsi üçün iclasların, parlament tədbirlərinin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılması, televiziya efirindən canlı yayımlanmasına şərait yaradıldı. Heydər Əliyev parlamentin sədri kimi Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını müəyyənləşdirir, keçirdiyi görüşlərdə ölkəmizin mənafeyini qətiyyətlə müdafiə edirdi. O, mədəniyyətin, elmin və təhsilin inkişafına da böyük diqqət yetirir, alimlərlə, gənclərlə görüşlər keçirir, onlarla ölkənin gələcəyi barədə fikirlərini bölüşürdü. Beləliklə, Azərbaycan parlamentarizm tarixinin Heydər Əliyev zirvəsi kimi dəyərləndirdiyimiz bu dövrdə ölkəmizin demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyulmuşdur.

### Azərbaycan xalqı Ümummilli Liderin 100 illik yubileyini tarixi nailiyyətlərlə qeyd edir

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi və xalqı qarşısında misilsiz xidmətləri sırasında ən vacib, hətta ölkəmizin gələcək inkişafının təmin olunması baxımından taleyüklü məsələlərdən biri də onun Azərbaycana növbəti illərdə uğurla rəhbərlik edəcək siyasi varis yetişdirməsi olmuşdur. Möhtərəm Prezident İlham Əliyev Heydər Əliyev siyasətini dövrün tələblərinə və yeni şərtlərinə uyğun müasirləşdirərək uğurla davam etdirmiş və Azərbaycana özünün çoxəsrlik dövlətçilik tarixində ən böyük uğurları qazandırmışdır. 2003-cü ildə ali kürsüdə fəaliyyətə başlayarkən **"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir"** deyən möhtərəm Prezident İlham Əliyev Heydər Əliyevin yaratdığı möhkəm təməllərə istinad edərək, onun yolunu, siyasətini davam etdirərək, yeni əsrdə, yeni tarixi şəraitdə Azərbaycan dövlətçiliyi qarşısında duran bütün taleyüklü məsələlərin həllinə nail olmuşdur. Bu gün Azərbaycan möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyatın bütün sahələrində möhtəşəm uğurlar qazanmış, dünyada layiqli yerini tutmuş, sözünə güvənilən, etibarlı bir dövlətə çevrilmişdir.

Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda dövlətimizin başçısı çıxışı zamanı qeyd edib ki, Heydər Əliyevin ən böyük arzusu Şuşanı azad görmək idi və biz onun arzusunu gerçəkləşdirdik. Biz bununla fəxr edirik, biz buna sevinirik.

Bəli, Heydər Əliyev həmişə inanırdı və qətiyyətlə bəyan edirdi ki, işğal altında olan torpaqlarımız azad olunacaq. O, işğalın müvəqqəti olduğunu və Azərbaycan xalqının öz dədə-baba yurdlarına qayıdacağını əminliklə bildirirdi. Bunun üçün isə bütün mümkün vasitələrdən istifadə edirdi, diplomatik, hərbi, siyasi cəbhələrdə lazımi addımları atırdı. İndi Ulu Öndərin ruhu şaddır! Bu gün torpaqlarımız azad olunub, möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Vətən müharibəsində əldə olunmuş tarixi zəfər və torpaqlarımızın azad olunması çoxəsrlik dövlətçilik tariximizə qızıl hərflərlə yazılmışdır. Həmin tarixin böyük bir salnaməsi Ulu Öndər Heydər Əliyevin şərəfli adı və ölməz ideyaları ilə bağlıdır. Azərbaycan Ulu Öndərin ən sadiq silahdaşı, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin görmək istədiyi qüdrətli, güclü dövlətə çevrilmişdir.

Bildiyimiz kimi, 2023-cü il möhtərəm Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilib. Bu gün Azərbaycan xalqı öz liderinin 100 illik yubileyini tarixi nailiyyətlərlə qeyd edir. Ulu Öndər Heydər Əliyev xalqımızın milli qürur və iftixar mənbəyi, Heydər Əliyev irsi xalqımızın milli sərvətidir.

*O, Azərbaycanın dövlətçilik tarixinin ən parlaq səhifələrini təşkil edən, ölkəmizin müstəqillik və inkişaf salnaməsinin yazıldığı şərəfli bir dövrü əhatə edir. Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi,* ***"Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".***

**Sahibə QAFAROVA,**

***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

# Həştərxan şəhərindəki Heydər Əliyev adına məktəbdə Ümummilli Liderin 100 illiyinə həsr olunmuş müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib





Mayın 8-də Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Həştərxan şəhərindəki Heydər Əliyev adına 11 nömrəli orta ümumtəhsil məktəbində olub.

AZƏRTAC xəbər verir ki, qonaqlar fotosərgi ilə tanış olub, onlara məktəb haqqında məlumat verilib.

Baş nazirin müavini Şahin Mustafayev qeyd edib ki, Heydər Əliyev hər zaman təhsil sahəsinə böyük diqqət yetirib. "Ulu Öndər gənclərə həmişə qayğı ilə yanaşıb. 70-80-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə azərbaycanlı gənclər təhsil almaq üçün Sovet İttifaqının nüfuzlu ali təhsil müəssisələrinə göndərilib. Bu gənclər Azərbaycanda müxtəlif vəzifələr tutub və hazırda da tuturlar. Bu ənənəni indi Prezident İlham Əliyev davam etdirir. O, gənclərə dünyanın ən aparıcı ali təhsil ocaqlarında təhsil almaq imkanı verən iki dövlət proqramını təsdiq edib. Heydər Əliyev Fondunun dəstəyi və Prezident İlham Əliyevin təşəbbüsü ilə 2011-ci ildə bu məktəb rekonstruksiya olunub".

Daha sonra Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin həyat yolu və onun adını daşıyan məktəbin fəaliyyəti barədə videoçarx nümayiş etdirilib. Sonda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş müsabiqənin qalibləri olan məktəblilər beş nominasiyada mükafatlandırılıb.

# *İqor BABUŞKİN:* "Heydər Əliyev tərəfindən qoyulan təməl dostluq və işgüzar əlaqələrimizin davam etdirilməsi üçün əsasdır"

Mayın 8-də Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin və rəhbər şəxsləri ilə görüşü olub.




AZƏRTAC xəbər verir ki, İqor Babuşkin bu il vilayətdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş xatirə tədbirlərinin keçirildiyini bildirib. "Mən Həştərxan vilayətində belə tədbirlərin təşkili məsələləri ilə bağlı xahişlə Prezident İlham Əliyevə müraciət etdim və onun dəstəyini aldım. Cari ilin əvvəlindən başlayaraq Həştərxan vilayətində Heydər Əliyevin 100 illiyinə həsr olunmuş müxtəlif konfranslar, "dəyirmi masa"lar, televiziya verilişləri və müsabiqələr keçirilir. Yaxın günlərdə konsertlər, gənclər forumu və bir sıra digər maraqlı tədbirlər təşkil olunacaq. Bütün bunlar sözsüz ki, bizim necə səmimi və dostluq münasibətlərinə malik olduğumuzu növbəti dəfə sübut edir. Heydər Əliyevin siyasətində regionlararası səviyyədə xoş münasibətlərin qurulması prinsipi də yer alıb. Onun şəxsiyyəti bizim üçün böyük əhəmiyyət kəsb edir, çünki məhz o, belə münasibətlərin yaranmasının və formalaşdırılmasının əsasında dayanır. Heydər Əliyev tərəfindən regionlararası əməkdaşlığın qurulması istiqamətində qoyulan təməl bizim dostluq və işgüzar əlaqələrimizin davam etdirilməsi üçün əsasdır", - deyə İ.Babuşkin əlavə edib.

Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev vurğulayıb ki, səfərin əsas məqsədi Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan xatirə tədbirlərində iştirak etməkdir. O, Azərbaycan Prezidenti İlham Əliyevin və Baş nazir Əli Əsədovun salamlarını çatdırıb, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin nurlu xatirəsinə göstərdikləri səmimi münasibətə görə həştərxanlılara təşəkkürünü bildirib.

"Siz Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş tədbirlər planı təsdiqləyib onu uğurla həyata keçirirsiniz. Bizim rəhbərlərimiz daim təmasdadırlar. Dahi Lider Heydər Əliyev tərəfindən əsası qoyulan münasibətlərimizin inkişafı üçün böyük potensial mövcuddur. Ulu Öndər sovet Azərbaycanına rəhbərliyi dövründə də çox işlər görüb. Hesab edirik ki, əməkdaşlığımızın dəfələrlə genişləndirilməsi üçün hazırda yaxşı imkanlar var. Müxtəlif istiqamətlərdə xeyli maraqlı ideyalar mövcuddur. Təhsil sahəsi Heydər Əliyevin həmişə diqqət mərkəzində olub. Prezident İlham Əliyev bunu əsas götürərək Həştərxanda uşaq bağçasının tikintisinə, Heydər Əliyev adına məktəbin yenidən qurulmasına və bərpasına göstəriş verib", - deyə Ş.Mustafayev vurğulayıb.

Baş nazirin müavini İkinci Dünya müharibəsində əldə olunan qələbədə Azərbaycanın rolundan danışıb.

Heydər Əliyevin Azərbaycan üçün mürəkkəb dövrdə onun inkişaf proqramını qurduğunu deyən Həştərxan vilayətinin sabiq qubernatoru Aleksandr Jilkin qeyd edib: "Biz Heydər Əliyev sayəsində Azərbaycanın inkişafının şahidləriyik. Qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyev Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Gənc yaşlarımda Heydər Əlirza oğlu ilə görüşmək mənə nəsib olub. Həştərxan regionu ilə qarşılıqlı fəaliyyət siyasətinə görə Azərbaycan hökumətinə və Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm".

Azərbaycan Baş nazirinin müavini görüşdən sonra rusiyalı jurnalistlərin suallarını cavablandırıb.

# Ceyhun Bayramov Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 7-ci iclasında iştirak edib

Dünən xarici işlər naziri Ceyhun Bayramov Litva Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 7-ci iclasına həmsədrlik edib. Komissiyanın iclasına Litva tərəfindən xarici işlər naziri Qabrielius Landsberqis həmsədrlik edib.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda açılış nitqi ilə çıxış edən nazir Ceyhun Bayramov iki ölkə arasında qarşılıqlı maraqlara, beynəlxalq hüququn fundamental norma və prinsiplərinə əsaslanan tərəfdaşlığın mövcudluğunu vurğulayıb. Ali və yüksəksəviyyəli səfərlərin, mütəmadi görüşlərin münasibətlərin inkişafına töhfə verdiyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə münaqişədən zərər çəkmiş ərazilərin reabilitasiyası və yenidən qurulması, habelə əhalinin reinteqrasiyası istiqamətində ölkəmiz tərəfindən həyata keçirilən səylər barədə məlumat verib. Litva şirkətləri və investorları Azərbaycanın işğaldan azad edilmiş ərazilərində layihələrdə iştiraka dəvət edilib.

Çıxış zamanı həmçinin münaqişədən zərər çəkmiş ərazilərin mina və partlayıcı maddələrlə kütləvi şəkildə çirklənməsi, bərpa və yenidənqurma fəaliyyətləri barədə məlumat verilib, habelə minaların məcburi köçkünlərin öz evlərinə təhlükəsiz qayıtmasının təmini üçün əsas maneə olduğu vurğulanıb, mina təhdidi ilə mübarizədə Litva tərəfinin əməkdaşlığına ümidvarlıq ifadə olunub.

Çıxışda ticarət və investisiya, enerji təhlükəsizliyi və enerji keçidi, bağlantılar və informasiya texnologiyaları, aqrobiznes, təhsil və mədəni sahələrdə mübadilə də daxil olmaqla digər müxtəlif sahələrdə qarşılıqlı faydalı tərəfdaşlıq üçün geniş imkanların mövcudluğundan bəhs edilib.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yaranmaqda olan nəqliyyat qovşağı və Zəngəzur dəhlizinin regional sülh və davamlılıq üçün öz müsbət rolunu oynayacağına və regiondaxili ticarətə təkan verəcəyinə əminlik ifadə olunub.

Nazir ölkəmizin Aİ ilə enerji dialoqundan söz açaraq "yaşıl enerji" şəbəkəsinin Aİ ilə enerji dialoqumuzun mühüm hissəsi olduğunu bildirib, bu istiqamətdə icra edilən layihələrdən bəhs edib. Azərbaycanda bərpaolunan enerjiyə keçid layihələrində Litva şirkətləri ilə əməkdaşlıq etmək üçün geniş imkanların olduğunu vurğulayıb.

İclasın sonunda bağlanış nitqi ilə çıxış edən nazir Ceyhun Bayramov hökumətlərarası komissiyanın iclasının iki ölkə üçün yol xəritəsinə rəhbərlik etmək və təkan vermək üçün müntəzəm institusional dialoq mexanizmi kimi əhəmiyyətini vurğulayıb, hər iki ölkədən olan maraqlı tərəflərin ikitərəfli marşrutun əlavə dəyərli sahələrində dialoqu və əlaqələri davam etdirəcəyinə əminlik ifadə edib.

Komissiyanın iclası zamanı Azərbaycan və Litvanın aidiyyəti qurumlarının rəsmiləri çıxış ediblər və qurumlararası ikitərəfli görüşlər keçirilib. Tədbirin sonunda komissiyanın 7-ci iclasının protokolu imzalanıb.

# Azərbaycan ilə Litva arasında əməkdaşlıqla bağlı aktual məsələlər müzakirə olunub

Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Litvaya rəsmi səfəri çərçivəsində Litva Respublikasının Prezidenti Qitanas Nauseda tərəfindən qəbul edilib.



XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, ikitərəfli görüşdə Azərbaycan ilə Litva arasında əməkdaşlıq gündəliyində duran aktual məsələlər müzakirə olunub.

İkitərəfli görüş daha sonra Prezidentin xarici siyasət baş müşaviri Asta Skaisgirite ilə geniş tərkibdə davam etdirilib.

Nazir Ceyhun Bayramov iki ölkə arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, kənd təsərrüfatı, təhsil, humanitar və s. sahələr üzrə səmərəli ikitərəfli, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlıq gündəliyinin mövcud olduğunu, münasibətlərin inkişafında qarşılıqlı səfərlərin, siyasi dialoqun mühüm rol oynadığını qeyd edib.

Avropa İttifaqı (Aİ) çərçivəsində Litvanın kommunikasiyalar sahəsində həyata keçirilən layihələrə dəstək göstərdiyini qeyd edən Ceyhun Bayramov baş verən geosiyasi dəyişikliklər fonunda Xəzər regionunun, o cümlədən Orta dəhlizin əhəmiyyətinin daha da artdığını diqqətə çatdırıb. Bu kontekstdə Azərbaycanın regionda bütün nəqliyyat və kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması istiqamətində səylərinin Orta dəhlizin imkanlarının genişləndirilməsi baxımından faydalı olacağına dair inam ifadə edilib.

Postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycan tərəfindən işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Azərbaycan və Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində göstərilən səylər, mövcud çağırışlar, o cümlədən mina təhlükəsi barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov xüsusilə aparılan yenidənqurma işləri və mina təhdidi ilə mübarizədə birgə əməkdaşlığın bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsinə mühüm töhfə verəcəyini əminliklə vurğulayıb.

Litva tərəfi Azərbaycan ilə münasibətlərin daha da inkişafı istiqamətində mövcud potensialdan istifadə edilməsində maraqlı olduğunu diqqətə çatdırıb. Aİ-nin "Şərq Tərəfdaşlığı" proqramının əməkdaşlığın inkişafı üçün mühüm platforma rolu oynadığı, xüsusilə enerji təhlükəsizliyi sahəsində Azərbaycanın etibarlı tərəfdaş qismində çıxış etdiyi məmnunluqla xatırlanıb. Regionda sülh quruculuğu səylərinin təqdirəlayiq olduğunu bildirən Litva tərəfi mövcud normallaşma prosesinə sadiqliyin vacibliyini qeyd edib və Litvanın bu səylərə dəstək verdiyini bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Litvanın xarici işlər nazirləri regionda baş verən hadisələri müzakirə ediblər



Mayın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Litvaya rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Qabrielius Landsberqis ilə görüşüb.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov və Qabrielius Landsberqis arasında təkbətək keçirilən görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniş tərkibli görüşdə iki ölkə arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, o cümlədən regionda baş verən hadisələr müzakirə olunub.

Nazir Ceyhun Bayramov Litvaya rəsmi səfəri çərçivəsində keçiriləcək İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasının iki ölkə arasında iqtisadi, ticarət, investisiyalar, energetika, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, təhsil və s. sahələr üzrə mövcud münasibətlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Azərbaycan və Litva arasında mövcud müqavilə-hüquq bazasının genişləndirilməsinin də vacibliyi qeyd olunub.

2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair anlaşma memorandumunun alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində geniş imkanlar yaratdığını bildirən azərbaycanlı nazir "yaşıl enerji" sahəsinin də Azərbaycan və Litva arasında əməkdaşlığın inkişaf etdirilə biləcəyi sahələrdən biri olduğunu diqqətə çatdırıb.

Ceyhun Bayramov 44 günlük Vətən müharibəsindən sonra bölgədəki vəziyyət, Azərbaycanın bərpa-quruculuq, sülh səyləri, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə danışıb və mövcud çağırışlara və çətinliklərə baxmayaraq, Azərbaycanın sülh müqaviləsinin imzalanması istiqamətində səylərini davam etdirməkdə qərarlı olduğunu diqqətə çatdırıb.

O, regionda yaranmış yeni reallıqların əməkdaşlıq üçün imkanlar yaratdığını bildirərək Azərbaycan tərəfindən işğaldan azad olunmuş ərazilərdə aparılan müasir şəhərsalma üsulları, o cümlədən "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarına əsaslanan bərpa və yenidənqurma işlərində əməkdaşlıq üçün geniş potensial olduğunu qeyd edib. Bununla yanaşı, Ermənistanın bölgədə yaratdığı mina təhdidləri barədə qarşı tərəfə ətraflı məlumat verilib, bu problemin aradan qaldırılması istiqamətində səylərin artırılmasının vacibliyi vurğulanıb.

Nazir Qabrielius Landsberqis iki ölkə arasında münasibətlərin inkişafının, artan təmasların və qarşılıqlı səfərlərin təqdirəlayiq olduğunu qeyd edərək keçiriləcək hökumətlərarası komissiyanın iclasının bu dinamikaya müsbət töhfə verəcəyini qeyd edib. Azərbaycan və Ermənistan arasında normallaşma gündəliyinin alternativinin olmadığını ifadə edən nazir Qabrielius Landsberqis Litva Respublikasının bölgədə sülh və quruculuq səylərini dəstəklədiyini söyləyib.

Daha sonra keçirilmiş mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış ediblər.



# Heydər Əliyev İli 2023

Tarixi şəxsiyyətlər yaratmasa da, qüdrəti və fəaliyyəti ilə hadisələrin gedişatına güclü təsir göstərən, inkişafın irəliyə doğru hərəkətini sürətləndirən, taleyüklü məqamlara müəyyən "təshihlər" etməyi bacaran qeyri-adi insanlar da olur. Makedoniyalı İsgəndər, Napoleon, Ruzvelt, Çörçill, Mustafa Kamal Atatürk... və bu sırada özünə şərəfli yer tutan ən böyük azərbaycanlı - möhtərəm Heydər Əliyev!



## Qətiyyət, cəsarət və uzaqgörənlik

Bu insanların həyat və fəaliyyətləri, əməl və mübarizələri mənsub olduqları xalqın tarixi və taleyi ilə o qədər qaynayıb-qarışıb ki, onlardan söhbət açarkən, əslində, xalqın tarixindən danışmış oluruq. Yaxud da əksinə, mənsub olduqları ölkələrin keşməkeşli günlərindən bəhs edərkən onların xidmət və fəaliyyətlərini xatırlamamaq imkansızdır. Nə idi Ulu Öndər Heydər Əliyevi bu qədər qüdrətli, yenilməz və xalqın sevimlisi edən?

Heç kəs anadan siyasətçi doğulmur. Amma cənab Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin çözülməsində həlledici sözünü deyə bilən nadir siyasətçilərdən idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə verirdi. Fenomen şəxsiyyət olmaqla Ulu Öndər Heydər Əliyevdə tükənməz enerji və işgüzarlıq qabiliyyəti vardı. O, bir sıra tanınmış siyasətçilərin illərlə görə bilmədiyi işi bir neçə gündə həyata keçirməyə qabil idi. Yorulmaq və dayanmaq nə olduğunu bilməyən bu qeyri-adi insan sutkanın 18-20 saatını dövlət və quruculuq işlərinə sərf edirdi. Dünyada hər kəsə qismət olmayan iti, fenomenal hafizəsi vardı, hətta çox zaman xalq arasında ona məhəbbətlə "kompüter yaddaş sahibi" deyirdilər.

Xalqın arzu və tələbi ilə respublika rəhbərliyinə qayıdan, Azərbaycanı vətəndaş müharibəsinin alovlarından, kiçik xanlıqlara parçalanma və bir dövlət kimi məhvolma təhlükəsindən xilas edən Ümummilli Lider Heydər Əliyevin əfsanələşmiş siyasi obrazının xarakterik cizgiləri hansılardır? Onun siyasi portretinin bəzi çalarlarına diqqət yetirək.

Hər şeydən öncə, **Heydər Əliyev xalqın böyük sevgisini qazanmış şəxsiyyət idi.** Ümumxalq məhəbbətinin ürəklərin dərin qatlarına işləmiş köklərindən biri haqda ayrıca danışmaq istərdik. Bu da xalqın taleyi ilə onun şəxsi taleyinin sıx və qırılmaz tellərlə bağlanmasıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladığı ilk günlərdən bu qoşa tale bir ürəyin nəbzi kimi eyni ritmdə çırpınmış, sevincli və kədərli, ümidli və təhlükəli anlar birlikdə yaşanmışdır.

1969-cu ilə qədər Azərbaycan on beş "qardaş" respublika sırasında tanınıb seçilməyəni, adı anılmayanı idi. Hər şeyin vahid mərkəzdən idarə olunduğu, bütün maddi və mənəvi bölgülərin bir əldən paylandığı zamanda belə bir vəziyyət bütün münasibətlərdə öz əksini və təsirini, şübhəsiz ki, tapırdı. Heç kim tərəfindən tanınmadığı bir vaxtda gərgin fəaliyyətə başlayan, elə ilk günlərdən Azərbaycan xalqının bütün imkanlarını, qurub-yaratma potensialını və işgüzarlıq qabiliyyətini hərəkətə gətirərək canlı, ahəngdar və saat kimi dəqiq mexanizm halına salan Ulu Öndər Heydər Əliyev respublikamızın güclü yüksəlişinə, səsinin ucadan eşidilib adının hörmətlə çəkilməsinə nail oldu. Onun yorulmaz və məqsədyönlü fəaliyyəti nəticəsində respublikamızın bütün ərazisi başdan-başa quruculuq meydanına çevrildi. Böyük təşkilatçılıq məharətindən və şəxsi nüfuzundan xalqın mənafeyi naminə istifadə edən Ulu Öndər Heydər Əliyev tarixən qısa müddətdə ittifaq rəhbərliyinin diqqətini Azərbaycana cəlb etməyə, mərkəzi büdcədən respublikamıza xeyli vəsait yönəltməyə nail oldu. Hərdən rəqəmsiz ötüşmək mümkün olmur. Odur ki, konkret faktlara müraciət edirik. Ümummilli Lider Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi illər təkcə sənayedə və kənd təsərrüfatında deyil, bütünlükdə xalqın güzəranında və məişətində də görünməmiş yüksəliş, əsaslı dəyişikliklər dövrü olmuşdur. 1970-1982-ci illər respublikada 250 yeni müəssisə tikilmişdir. Neftayırma sənayesi müəssisələri tamamilə yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa edilmişdir. Nəticədə göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. On üç ildə ozamankı qiymətlərlə 101,5 milyard manatlıq (əvvəlki 50 ildə olduğu qədər) məhsul istehsal edilmişdir. Həm də xalq istehlakı malları istehsalı 3 dəfə, əmək məhsuldarlığı 2 dəfədən çox, fond verimi 25 faiz artmışdır.

1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. 1970-ci illə müqayisədə 1985-ci ildə taxıl istehsalı 1,8 dəfə, pambıq, tərəvəz və meyvə istehsalı 2 dəfədən çox, çay yarpağı istehsalı 3,2 dəfə, üzüm istehsalı 5 dəfədən çox artmışdır. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır. 1970-ci ildən başlayaraq Azərbaycanın sənayesi və kənd təsərrüfatı orta ittifaq göstəricilərini qabaqlayıb sürətlə inkişaf etmişdir. İqtisadi inkişafın əsas ümumi göstəricisi - milli gəlir də 1970-1985-ci illərdə 2,6 dəfə çoxalmış, adambaşına milli gəlir isə 2 dəfədən də çox artmışdır.

Heydər Əliyev şəxsi nüfuzu hesabına Azərbaycanda üzümçülüyün inkişafı ilə bağlı xüsusi qərarın qəbul edilməsinə və bunun nəticəsində respublikaya böyük məbləğdə vəsait qoyuluşuna nail olmuşdur. Həmin qərarın icrası dövründə Azərbaycanda min hektarlarla yeni üzümlüklər salınmış, emal müəssisələri yaradılmış, müasir tipli qəsəbələr inşa edilmişdir. Nəticədə üzüm istehsalı 1970-ci ildəki 350 min tondan 1982-ci ildə 1 milyon 800 min tona qalxmışdır. Təəssüf ki, sonrakı illərdə bağışlanılmaz səhvə yol verildi. Sərxoşluğa və alkoqolizmə qarşı mübarizə kampaniyasının gedişində 70 min hektardan çox bar verən üzümlük məhv edildi, təsərrüfatlara 600 milyon manatlıq ziyan vuruldu.

O dövrdə xalqın maddi gəlirinin artması, rifahının yaxşılaşması sayəsində ümumi yaşayış səviyyəsi də xeyli yüksəlmişdir. Respublikamızın paytaxtı Bakı şəhərində çoxmərtəbəli binalardan ibarət neçə-neçə mikrorayonlar və yaşayış massivləri, parklar salınmış, milli arxitekturanın fəxri sayılan binalar ucaldılmış, yaraşıqlı meydanlar, küçələr, yollar, körpülər qurulmuşdur. Azərbaycan kəndinin sosial-mədəni siması da büsbütün dəyişmişdir. Alçaq, kərpic və palçıqlı komalar öz yerini ağ daşdan tikilmiş ikimərtəbəli, yaraşıqlı evlərə vermiş, kəndlərdə və qəsəbələrdə bir çox sosial-mədəni obyekt tikilmişdir. Kəndlinin məişətində də böyük dəyişiklik baş vermişdir. Hər bir evdə radio, televizor, müasir mebel və digər məişət əşyaları görünmüş, kəndlinin məişəti şəhərin həyat tərzinə yaxınlaşmağa başlamışdır. On üç il ərzində ölkədə 22 milyon kvadratmetrlik, başqa sözlə, əvvəlki 50 ildə olduğundan 60 faiz çox mənzil tikilmişdir.

1970-ci ilədək Bakı çox zəif inkişaf edirdi. 1969-cu ildə Ulu Öndər Heydər Əliyev respublikanın birinci şəxsi təyin olunduqdan sonra bu qədim şəhərin "ömrü"nün ikinci dövrü başlandı. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehman- xanaları, "Olimpiya" idman kompleksi və Əl Oyunları İdman Sarayı, Yeni Əhmədli və Günəşli yaşayış massivləri, neçə-neçə mikrorayonlar həmin dövrün yadigarlarıdır. Bir-birinin ardınca çoxmərtəbəli yaşayış binaları, metro stansiyaları tikilir, N.Nərimanova, M.Əzizbəyova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə heykəllər qoyulur, onların adları, xatirələri əbədiləşdirilir, ədəbiyyat və incəsənət xadimlərinə yüksək fəxri adlar və dövlət mükafatları verilir, Şuşada M.P.Vaqifin məqbərəsi ucaldılırdı. Bakı, habelə respublikanın bütün şəhər və qəsəbələri qaynar tikinti meydanını xatırladırdı.

Ulu Öndər Heydər Əliyev SSRİ-nin rəhbərlərindən biri kimi Moskvaya işləməyə dəvət edildikdən sonra Azərbaycanda tikib-qurmaq həvəsi sanki həmişəlik söndü. Ondan sonra Azərbaycana başçılıq edənlər nə isə tikmək əvəzinə Heydər Əliyevin qoyub getdiyi binaların "təyinatı"nı dəyişməklə məşğul olurdular. Çox maraqlı iki fakt: Heydər Əliyev Moskvada işlədiyi dövrdə Bakıda metronun bir stansiyası belə istismara buraxılmamışdır. Hazırda paytaxtın rəmzlərindən birinə çevrilən teleqüllə də onun qoyub getdiyi kimi qalmış, bütün iqtidarlar tezliklə istifadəyə veriləcəyini vəd etsələr də, yalnız həmin obyektin inşasına başlayan Heydər Əliyev Azərbaycana döndükdən sonra nəhəng teleqüllənin "bəxti" açılmışdır.

Böyük türk oğlu Heydər Əliyevin Kremldə işləməyə dəvət olunmasını dünya təəccüb və heyrətlə qarşıladı. Sosializm dövründə üzdə "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi prinsipi"nin mövcudluğu tez-tez təkrarlansa da, dərinlikdə başqa millətdən olanların SSRİ kimi superdövlətdə rəhbər vəzifəyə irəli çəkilməsi görünməmiş və qeyri-adi hadisə idi. Azərbaycanda buna sevinənlər də çox oldu. Amma çox tezliklə hamı başa düşdü ki, bu güclü şəxsiyyətin respublikadan getməsi, sonradan isə düşmənlərin əli ilə böyük siyasətdən uzaqlaşdırılması Azərbaycan xalqının müsibətli günlərinin başlanğıcını qoydu. Respublikada vəziyyət aybaay pisləşir, düşmənlər üstümüzə ayaq alırdı. "Yenidənqurma" adlı oyun, onun ardınca isə "Qarabağ problemi" meydana atıldı, Azərbaycan uzun və dağıdıcı müharibəyə cəlb edildi.

Ulu Öndər Heydər Əliyevin çörəyi ilə böyüyüb onun sayəsində yüksək vəzifə tutanların bir qismi nankor çıxdı. Xalqının ağır vəziyyətdə olduğunu bilib Vətənə qayıdan, ona öz köməyini təklif edən bu müdrik insana öz əlləri ilə tikib qurduğu Bakıda yaşamağa adi bir mənzil belə vermədilər. Əksinə, nüfuzundan və ona olan xalq məhəbbətindən qorxaraq təqib etməyə, fiziki cəhətdən aradan götürmək üçün cəhdlərə başladılar. Bu cür nadanlıqdan məyus olan Ümummilli Lider Naxçıvana qayıdaraq son dərəcə ağır günlərini yaşayan muxtar respublikanın əhalisinə arxa və kömək durdu.

Beləliklə, həyatının ən ağır dövrünü yaşamaqla hər şeyə yenidən başlamalı oldu. Yalnız iradəsi poladdan, əzmi və qətiyyəti qranitdən yoğrulmuşlar belə çətinliyə və məhrumiyyətlərə dözə bilərdilər. Həmin dövr bütövlükdə Azərbaycan xalqı üçün də faciəli və fəlakətli keçirdi. Maymaq, qətiyyətsiz və səriştəsiz adamların respublikaya başçılıq etməsi, AXC-Müsavat cütlüyünün naşı və təcrübəsiz iqtidarı dövründə xaos, anarxiya və qanunsuzluğun baş alıb getməsi, arasıkəsilməz hakimiyyət davası nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsində baş verən acınacaqlı məğlubiyyət və xaricdən dəstəklənən separatçı qüvvələrin Azərbaycanı kiçik xanlıqlara parçalama cəhdləri ölkəni labüd fəlakət həddinə çatdırmışdı. Ümidsiz vəziyyətə düşən insanlar yeməyə çörək belə tapmırdılar. Şəxsi mənafelərini güdən "bəy"lər isə çörək adı ilə xalqa jmıx yedizdirirdilər. Hamı çox yaxşı anlayırdı ki, ölkəni bu vəziyyətdən yalnız Heydər Əliyev zəkası qurtarmağa qadirdir. Odur ki, bütün nəzərlər Naxçıvana çevrildi, xalq özünün sevimli və sınanmış oğlunu yenidən respublika rəhbərliyinə dəvət etdi. Ulu Öndər Heydər Əliyevin qayıdışı ilə Azərbaycan dövləti də, kövrək müstəqilliyimiz də fəlakətlər girdabından xilas edildi.

Ümummilli Lider Heydər Əliyev daim xalqa, onun dəstəyinə arxalanan siyasətçi idi. Qəribədir, Heydər Əliyevi istəməyənlər, ona bədxahlıq edənlər heç zaman açıq, mərdi-mərdanə mübarizə aparmayıblar. Küncdə-bucaqda pıçıldaşmağı, arxadan zərbə endirməyi üstün tutublar. Çünki qarşılarındakının neçə boy onlardan yüksəkdə dayandığını anlayıblar. Bəzən isə özlərini həddindən ziyadə güclü saydıqlarından hücuma keçmiş, onu fiziki cəhətdən aradan götürmək niyyətinə düşmüşlər. İlk dəfə Naxçıvanda olarkən AXC tərəfindən belə bir cəhd göstərildi, sonra S.Hüseynov Bakıda belə bir xülyaya düşdü. Hər iki halda Heydər Əliyev qeyri-adi gedişlə, o vaxtadək görünməmiş bir üsulla hücuma keçənləri tam məğlubiyyətə uğratdı. Özü də qan tökmədən! Onun bir çağırışı ilə xalq ayağa qalxdı, qocalı-cavanlı, qadınlı-kişili hamı sevimli rəhbərini müdafiə etmək üçün onun yanına gələrək dəstəyini bildirdi. Xalqın sevgi və qəzəbini görənlər əvvəlcə çaşdılar, sonra qaçıb aradan çıxdılar, ən nəhayət, qanuna təslim oldular!

Heydər Əliyev heç bir təhlükədən və heç nədən qorxmayan insan idi. Dəfələrlə onu təqib etmiş, sui-qəsd əməlləri törətməyə çalışmış, tutduğu yoldan çəkindirmək istəmişlər. Əvvəlkiləri saymasaq, ikinci dəfə respublika rəhbərliyinə qayıtdıqdan sonra üç dəfə qabaqcadan ona qarşı hazırlanaraq planlaşdırılan sui-qəsd cəhdi puça çıxmışdı. AXC-nin Naxçıvan şöbəsinin üzvləri tərəfindən öyrədilib silahlandırılaraq Bakıya göndərilən Türkiyə vətəndaşı Milli Məclisin qarşısında pusquda durarkən yaxalanmış, onu səfərdən qaytaran təyyarəni raketlə vurmaq cəhdi alınmamış, dinamit qoyulan körpü nədənsə partladılmamışdır. Bütün bunlar təsadüfdən yox, Tanrının bu böyük insanı xalq üçün qoruduğundan baş tutmamışdı.

"Mən ömrümün yerdə qalan hissəsini də xalqıma bağışlayıram" - deyən Ulu Öndər Heydər Əliyev hətta ölüm təhlükəsi gördükdə belə geriyə çəkilməmiş, heç zaman postunu tərk etməmişdir.

Heydər Əliyev cəsarətli və risk etməyi sevən siyasətçi idi. Xəzərdə zəngin karbohidrogen ehtiyatları olduğunu respublikaya rəhbərlik edənlərin hamısı bilirdi. Ondan birlikdə istifadə üçün xarici neft şirkətləri ilə danışıqlara girmək cəhdi göstərənlər də olmuşdu. Lakin heç kəs bu ağır yükü yerdən qaldıra bilməmişdi. Buna ciddi şəkildə mane olmağa çalışan güclü dövlətlər və qüvvələr də vardı. Heydər Əliyev riskə gedərək çox cəsarətli addım atdı, zərgər dəqiqliyi ilə işlənmiş plan hazırlayaraq 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Sonradan alçaqcasına törədilən terror əməlləri isə artıq gecikmişdi. Risk və cəsarət hər şeyə üstün gəldi.

**Heydər Əliyev cari məsələləri dövlətin qarşısında duran böyük vəzifələrlə əlaqələndirməyi bacaran siyasətçi idi.** Onun tərəfindən böyük müdriklik və uzaqgörənliklə hazırlanan müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası deyilənə əyani misaldır. Bu gün dünya bazarında ən çox ehtiyac duyulan məhsullardan biri neft və təbii qazdır. Xəzər neftini ikinci dəfə dünya üçün kəşf edən Heydər Əliyev bununla iqtisadiyyatı pozulub-dağılan, yenicə müstəqillik qazanan dövlətin qarşısında dayanan bir neçə vəzifəni eyni vaxtda həll etdi. Qısa müddətdə ölkəyə külli miqdarda xarici sərməyə qoyuldu, neft sənayesi iqtisadiyyatın digər sahələrinin dirçəldilməsi üçün lokomotiv rolunu oynadı, Azərbaycan iqtisadiyyatı böyük sürətlə dünya iqtisadiyyatına inteqrasiya olundu, gələcək nəsillərin firavan həyatı da təmin edildi. Yeni neft strategiyası dünyanın aparıcı dövlətlərinin maraqlarının ölkəmizdə cəmləndirilməsi funksiyasını da yerinə yetirdi.

Başqa bir məqam. 11 sentyabr 2001-ci ildə ABŞ-də dünyanı lərzəyə gətirən qanlı terror aksiyası baş verən kimi dərhal düzgün və zəruri qərar qəbul etdi. Bu addımı pislədi, terrorizmin bütün dünyanı hədələyən dəhşətli bəla olduğunu açıqladı. Verdiyi bəyanatda Azərbaycanın Amerikaya dəstək verdiyini, onunla bir alyansda olduğunu, terrorizmin kökünün kəsilməsində hər cür kömək göstərəcəyini bildirdi. Azərbaycanın bu mövqeyi ABŞ administrasiyası və rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi və az sonra bədnam 907-ci düzəlişin təsirinin dayandırılmasına dayaq oldu.

**Heydər Əliyev mübariz və möhkəm iradəli rəhbər idi.** Dayanmaq, ruhdan düşmək onun təbiətinə yad olub! İndiyədək çox nadir dövlət rəhbərlərinə siyasətin zirvəsinə ucalıb aşağı endikdən sonra yenidən yuxarı qalxmaq qismət olub. Mərdi-mərdanə mübarizə aparmağı bacaran və sevən Ulu Öndər Heydər Əliyev qladiator kimi sonadək döyüşməyi bacarırdı. Həm də bu zaman daha çox xalqın taleyini düşündüyündən yenilməz və məğlubedilməz olurdu!

**Heydər Əliyev həyatın bütün sahələrinə dair yüksək və ensiklopedik biliyə malik zəka sahibi idi.** O, dəfələrlə bu keyfiyyəti ilə hamını heyrətdə qoyub. Alimlər, kənd təsərrüfatı mütəxəssisləri, neftçilər, inşaatçılar, ədəbiyyat və incəsənət xadimləri, müxtəlif sənət sahibləri ilə söhbəti zamanı sahəyə dair zəngin biliyi, problemlərə dərindən bələdliyi, indiyə qədər keçilən yol, qarşıda duran vəzifələr, çətinlikləri aradan qaldırmaq üçün görüləsi işlər və s. barədə o qədər dərindən və peşəkarlıqla danışırdı ki, hər sahənin adamı onu özününkü hesab edir, hörmət və ehtiramla dinləyərək dedikləri ilə razılaşırdı. Rusiyanın bir sıra tanınmış siyasi və dövlət xadimləri ondakı bu məharətdən - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi tapşırılan bütün sahələri idarə edib ayağa qaldırmaq üçün qısa zamanda öyrənib dərindən bələd olması bacarığından vurğunluqla danışırlar.

Heydər Əliyev insana və ziyalıya qiymət verməyi bacarırdı. O, daim respublikanın tanınmış ziyalıları, görkəmli sənət adamları ilə görüşüb dostluq etmiş, əməklərini qiymətləndirmiş, maddi və mənəvi cəhətdən dayaq durmuşdur (təəssüf ki, dönük çıxanlar da olmuşdur). Ehtiyacı olanlar mənzil almış, xarici ölkələrə müalicəyə göndərilmiş, kömək üçün müraciət edənlər diqqətdən kənarda qalmamışlar. Hətta vətəndən kənarda yaşayan Azərbaycan övladları da bu böyük günəşin hərarətindən qızına biliblər.

**Heydər Əliyev gəncləri sevər, onlara arxalanardı.** O, daim gənclərlə görüşməyə, onların problem və qayğılarını öyrənib kömək etməyə vaxt tapırdı. Hələ Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə hər il dövlət hesabına yüzlərlə azərbaycanlı gənci SSRİ-nin müxtəlif şəhərlərinə ən müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərmişdi. Bu gün də onun verdiyi çörəyi yeyənlər həmin anları minnətdarlıqla xatırlayırlar. Azərbaycan müstəqillik qazandıqdan sonra vaxtilə uzaqgörənliklə hazırlanan həmin kadrlar çox kara gəldilər. Hərbi mütəxəssislərin hazırlanması da Ulu Öndər Heydər Əliyevin daim diqqət mərkəzində saxladığı məsələlərdən olub. İdmanın inkişafına böyük fikir verən dövlət rəhbəri bu vacib sahəni Azərbaycan xalqının sonsuz məhəbbətlə sevərək böyük ümidlər bəslədiyi cənab İlham Əliyevə etibar etməklə qısa müddətdə görünməmiş dönüş və yüksəlişin baş verməsini təmin etmişdi.

**Heydər Əliyev yüksək diplomatik qabiliyyətə, görüş və danışıqları istədiyi məcrada aparmaq istedadına malik idi.** Onun üçün çətin müsahib, inandırmağı bacarmadığı diplomat yox idi. Söhbətə başlamaq, hiss olunmadan bir mövzudan digərinə keçmək, yerinə düşən incə bir zarafat, şirin yumorla vəziyyəti dəyişmək, gözlənilməz manevrlərlə öz mövqeyini sonadək müdafiə edib yeritmək məharətinə görə yəqin ki, ona çatan siyasətçi tapılmaz. Hər dəfə də hamı onunla görüşdən sonsuz dərəcədə məmnun qaldığını gizlətmirdi.

**Heydər Əliyev jurnalistlərlə də dostluq etməyi bacarırdı.** Burada paradoksal vəziyyət mövcud idi. Bəlkə də etdiyi bütün xeyirxahlıqlara baxmayaraq, jurnalistlərin Heydər Əliyev qədər "hücum" etdiyi insan olmayıb. O, çox böyük səbir və təmkinlə bütün bunlara davam gətirib, heç zaman onlara biganə qalmayıb, bir suallarını belə cavabsız qoymayıb, yeri gələndə "jurnalistika dərsi" keçib. Azərbaycanda müstəqil, demokratik və azad mətbuatın yaranmasında şəksiz xidmətləri olan möhtərəm Heydər Əliyev milli mətbuatımızın inkişafı, onun maddi təminatı ilə bağlı məsələlərin həlli ilə yaxından məşğul olub. Müxalifət nümayəndələri tərəfindən "Jurnalistlərin dostu" adının verilməsi onun bu sahədə gördüyü böyük işlərin məntiqi yekunudur.

**Heydər Əliyev xalqını sevən, gecə-gündüz onun bu günü və gələcəyi barədə düşünən, həm də bu yöndə konkret əməli iş görən dahi idi.**

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri həddindən çoxdur, bəlkə də saymaqla qurtarmaz.

Onlardan ikisi barədə ayrıca danışılmalıdır.

Əgər Ulu Öndərimiz xalqın çağırışına səs verərək ölkə rəhbərliyinə qayıtmasaydı, bugünkü Azərbaycan da yox idi.

Yalnız onun qətiyyəti, iradəsi, uzaqgörənliyi sayəsində Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlandı. Həm də nəinki müstəqilliyimiz, bir dövlət kimi mövcudluğumuz da qorundu.

Artıq Azərbaycana uzadılmış xain və məkirli əllər ölkədə vətəndaş müharibəsini alovlandırmışdı. Xaos, anarxiya, qanunsuzluq burulğanında boğulan Azərbaycan keçmişdəki kimi kiçik xanlıqlara parçalanmaq ərəfəsində idi. Silahsız, cəbbəxanasız, ordusuz geriyə dönən Ümummilli Liderimiz doğma Azərbaycanı fəlakətdən qurtardı.

**Ulu Öndərimizin ən mühüm xidmətlərindən biri layiqli siyasi varisi yetirməsi oldu. Azərbaycan xalqı sevimli rəhbərinin vəsiyyətinə əməl etməklə, əslində, Azərbaycanın sonrakı inkişafına, tarixinin ən qüdrətli dövlətinə çevrilməsinə dəstəyini verdi.**

Ata vəsiyyətini şərəflə yerinə yetirən cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində şanlı qələbə qazanaraq düşmən ordusunu məhv etdi, işğalçıları torpaqlarımızdan qovaraq ərazi bütövlüyümüzü bərpa etdi!

Müasir, müstəqil Azərbaycan dövlətinin xilaskarı və banisi sayılan Ulu Öndər Heydər Əliyev bugünkü qələbələrimizdə də payı olan görkəmli dövlət xadimi və unudulmaz insandır!

**Heydər Əliyev hər dahi şəxsiyyətə qismət olmayan uzun, mürəkkəb və mübarizələrlə dolu bir ömür yaşadı. Xalqına, dövlətinə fədakarcasına və təmənnasız xidmət nümunəsi göstərdi. Özündən sonra isə mənalı ömrünü həsr etdiyi şah əsərini - müstəqil Azərbaycan dövlətini qoydu.**

**Bu gün Azərbaycan xalqı öz sədaqətli və xilaskar oğlunun 100 illik yubileyini böyük hörmət və ehtiramla, gördüyü möhtəşəm və çoxsaylı işləri, əvəzolunmaz xidmətləri xatırlamaqla qeyd edir!**

**Bəxtiyar SADIQOV**

# Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müasir Azərbaycan dövlətinin qurucusu, dahi siyasi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin ölkəmizin tarixində əlamətdar hadisə olduğunu vurğulayaraq, Ulu Öndərin əbədiyaşar əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək, onun bəşəri amallara, qanunçuluq və ədalət ideallarına söykənən zəngin mənəvi irsinə sadiq qalaraq, demokratik hüquqi dövlət quruculuğu istiqamətində fundamental islahatların həyata keçirilməsində Heydər Əliyevin misilsiz xidmətlərini, insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verdiyini xatırlayaraq, humanizm, mərhəmət və insanpərvərlik ənənələrini davam etdirərək, cəzadan azad olunacaq şəxslərin müstəqil dövlətimizin rifahına və cəmiyyətin inkişafına öz töhfəsini verəcəklərinə inanaraq, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

1.1. Abasov Zakir Kəlbəli oğlu, 1958-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2020-ci il 25 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.2. Abbasov Anar Azər oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 2 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.3. Abbasov Elnur Hacı Məmməd oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Pirallahı Rayon Məhkəməsinin 2020-ci il 5 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.4. Abbasov Emin Sabir oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şirvan Şəhər Məhkəməsinin 2018-ci il 2 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.5. Abbasov İntiqam Fətulla oğlu, 1970-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Apellyasiya Məhkəməsinin 2020-ci il 10 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.6. Abbasov Mirsamir Mircavid oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, İmişli Rayon Məhkəməsinin 2020-ci il 12 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.7. Abbasov Mütalif Xosdan oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2022-ci il 25 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.8. Abbasov Nicat Bakir oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Hacıqabul Rayon Məhkəməsinin 2020-ci il 22 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.9. Abbasov Seymur Səlim oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2020-ci il 2 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.10. Abbasov Vidadi Hərif oğlu, 1955-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2020-ci il 30 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.11. Abdıyev Vüsal Rasim oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 29 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.12. Abdullayev Elnur Xəqani oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2021-ci il 29 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.13. Abdullayev Emil Oruc oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2019-cu il 3 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.14. Abdullayev Etibar Əhməd oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2019-cu il 7 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.15. Abdullayev Ərşad Allahverdi oğlu, 1968-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2020-ci il 3 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.16. Abdullayev Lətif Nemət oğlu, 1957-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Goranboy Rayon Məhkəməsinin 2020-ci il 15 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.17. Abdullayev Mikayıl İbrahim oğlu, 1977-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Rayon Məhkəməsinin 2019-cu il 5 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.18. Abdullayev Orucəli Əliqulu oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2013-cü il 16 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.19. Abdullayev Ramil Kərəm oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 2020-ci il 7 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.20. Abdullayev Rövşən Ataş oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 22 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.21. Abdullayev Rüfət Bəxtiyar oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 31 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.22. Abdullayev Samir İlham oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2021-ci il 26 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.23. Abdullazadə Mehdi Arzu oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.24. Abdulov Müşfiq Eynulla oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2020-ci il 16 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.25. Abışov Bilal Əhməd oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Hərbi Məhkəməsinin 2019-cu il 20 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.26. Abuşov Elman Dadaş oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2019-cu il 24 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.27. Ağahəsənov Aqil Rasim oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 1 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.28. Ağalarov Azər Ramiz oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 28 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.29. Ağamalıyev Dilqəm Nərman oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2022-ci il 28 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.30. Ağamalıyev Fərid Zabit oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2021-ci il 11 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.31. Ağayev Namiq Qoşqar oğlu, 1977-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2021-ci il 12 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.32. Ağayev Namiq Nurəddin oğlu, 1965-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2020-ci il 16 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.33. Ağayev Rahil Şərbət oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Masallı Rayon Məhkəməsinin 2021-ci il 25 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.34. Alıyev Rizvan Çingiz oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2020-ci il 10 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.35. Alqayev Sərxan Arif oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Balakən Rayon Məhkəməsinin 2021-ci il 23 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.36. Allahverdiyev Anar Əlirza oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2020-ci il 6 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.37. Allahverdiyev Cəfər Məhərrəm oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2021-ci il 25 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.38. Allahverdiyev Telman Oruc oğlu, 1982-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 18 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.39. Amriyev Abdukadir Zakiryayeviç, 1972-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2020-ci il 14 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.40. Aslanov Elşən Aslan oğlu, 1977-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2020-ci il 10 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.41. Aslanov Fail Cəfər oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2020-ci il 29 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.42. Atabalayev Niftulla Ağabala oğlu, 1965-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2021-ci il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.43. Ataşov Şahmar Mübariz oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2020-ci il 11 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.44. Babaxanov Fariz Bəhruz oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 20 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.45. Babayev Asif Tahir oğlu, 1978-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2019-cu il 7 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.46. Babayev Məhərrəm Əbülfəz oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 11 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.47. Babayeva Firuzə Kərim qızı, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhər Məhkəməsinin 2020-ci il 12 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.48. Bağırov Elxan Akif oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2021-ci il 28 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.49. Bağırov Yaşar Seyidağa oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Rayon Məhkəməsinin 2021-ci il 27 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.50. Bağırov Zaur Nəriman oğlu, 1976-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 24 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.51. Baxışov Cavid Ceyhun oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2019-cu il 19 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.52. Baxışov Cavid Məhərrəm oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Quba Rayon Məhkəməsinin 2020-ci il 15 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.53. Bayramov Davud Arif oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin 2019-cu il 6 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.54. Bayramov Natiq Məmməd oğlu, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2019-cu il 1 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.55. Bayramov Rafiq Yasin oğlu, 1972-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 17 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.56. Bayramov Səxavət Həmid oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 25 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.57. Behbudov Amil Qənimət oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bərdə Rayon Məhkəməsinin 2021-ci il 21 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.58. Bədəlov Vüsal Gündüz oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 2019-cu il 25 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.59. Bədirov Hüseyn Hüseynqulu oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Quba Rayon Məhkəməsinin 2021-ci il 23 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

Konfransda çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə milli etimad əsasında - xalqın iradəsi ilə hakimiyyətə gəlməsindən sonra bütün istiqamətlərdə olduğu kimi, media sahəsində də islahat xarakterli məqsədyönlü tədbirlər həyata keçirilib, bu istiqamətdə əsaslı, müsbət dəyişikliklər baş verib. Xüsusilə vurğulanıb ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Zəfər yürüşünə çıxan igid əsgər və zabitlərimizin unudulmaz qəhrəmanlıqları ilə yanaşı, arxa cəbhədə ideoloji və təbliğat müstəvisində mübarizə aparan dəyərli qələm sahibləri - vətənpərvər və peşəkar jurnalistlərimiz Azərbaycanın mənafelərini qətiyyətlə qoruyub, həqiqi reallıqları beynəlxalq ictimaiyyətə çatdırmaqla erməni yalanlarını ifşa ediblər.

Sonra "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan mediası" adlı videoçarx nümayiş etdirilib.

"Ümummilli Lider Heydər Əliyevin media siyasəti və müasir Azərbaycan mediası" mövzusunda keçirilən panel sessiyaya moderatorluq edən Azərbaycan televiziyası sədrinin müavini Rafiq Həşimov Ulu Öndərin siyasi iradəsi və böyük səyləri nəticəsində Azərbaycanda plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələrin aradan qaldırıldığını deyib.

Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxışında Ulu Öndər Heydər Əliyev siyasətində media azadlığı və kütləvi siyasi şüur məsələsinə toxunub, Azərbaycanda media azadlığının konstitusion əsaslarından bəhs edərək medianı ictimai rəyi formalaşdıran universal vasitə kimi qiymətləndirib.

Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, Ulu Öndər Heydər Əliyevin milli jurnalistikamızın inkişafı sahəsində ən böyük tarixi xidmətlərindən biri 1998-ci ildə KİV üzərində senzuranın tamamilə ləğv edilməsi olub. O əlavə edib ki, Ulu Öndər cəmiyyətdə jurnalistlərə münasibətin formalaşmasında mühüm rol oynayıb, bütün ölkə jurnalistləri Heydər Əliyevi təkcə dövlət başçısı kimi deyil, həm də bir dost, onların zəhmətinə qiymət verən yaxın sirdaş kimi qəbul ediblər.

Audiovizual Şuranın üzvü Telli Pənahqızı Ulu Öndər Heydər Əliyevin görkəmli lider və vətəndaş kimi atdığı addımların müstəqil Azərbaycanın güclənməsində, eləcə də savadlı, peşəkar və xalqını sevən gənclərin, o cümlədən peşəkar jurnalistlərin yetişməsində vacib rol oynadığını diqqətə çatdırıb.

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov vurğulayıb ki, Ümummilli Lider tərəfindən mətbuat orqanlarının azad fəaliyyətinə yaradılan şərait, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər ölkədə fikir plüralizminin genişləndirilməsinə, söz və fikir azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərə şərait yaradıb.

## Elmi-praktik konfrans

Mayın 8-də Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi və Azərbaycan Onkoloqlar Cəmiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş elmi-praktik konfrans işə başlayıb.







AZƏRTAC xəbər verir ki, əvvəlcə mərkəzin cərrahiyyə korpusunda Ulu Öndərin xatirə guşəsinin açılışı olub.

Guşədə Heydər Əliyevin büstü qoyulub, müxtəlif dövrlərdə lentə alınmış şəkilləri, dahi siyasətçinin ayrı-ayrı sahələrdə həyata keçirdiyi tədbirlərə dair məlumatların toplandığı kitablar yer alıb.

Konfrans Dövlət himninin səsləndirilməsi, Ulu Öndərin və ərazi bütövlüyümüz uğrunda canından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Ulu Öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətçi olduğunu deyən Milli Onkologiya Mərkəzinin baş direktoru akademik Cəmil Əliyev Ümummilli Liderin həyata keçirdiyi siyasətin ölkəmizdə bütün sahələri, o cümlədən səhiyyə sahəsini canlandırdığını diqqətə çatdırıb. Bildirilib ki, görkəmli siyasi xadimin xüsusi nəzər yetirdiyi sahələrdən biri insanların sağlamlığı, tibb işçilərinin peşəkarlığının artırılması, insanlara keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi idi. Bütün ömrü boyu xalqının əmin-amanlığı naminə yorulmadan çalışan dahi lider səhiyyənin inkişafına zəmin yaradan islahatlar həyata keçirdi. Ümummilli Liderin hakimiyyəti illərində mövcud səhiyyə ocaqlarının abadlaşdırılması, yeni tibb müəssisələrinin tikilib istifadəyə verilməsi, yüksək potensiallı tibb kadrlarının hazırlanması işlərinə xüsusi diqqət yetirildi. Onun düşünülmüş və gələcəyə hesablanmış addımlarının nəticələri qısa zamanda özünü göstərməyə başladı. Əminliklə demək olar ki, müasir səhiyyənin inkişafı məhz Ulu Öndərin vaxtilə vəziyyəti düzgün dəyərləndirib situasiyanı xeyrimizə dəyişmək üçün verdiyi doğru qərarların məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyevin miras qoyduğu inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi səhiyyə sisteminin daha da təkmilləşdirilməsinə, əhaliyə daha yüksəkkeyfiyyətli xidmətlərin göstərilməsinə səbəb olub.

Mərkəzin baş direktoru həmçinin Ulu Öndərlə bağlı xatirələrini bölüşüb, konfransın işinə uğurlar arzulayıb. Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli, şüa terapiya şöbəsinin rəhbəri İsa İsayev və mərkəzin şöbə müdiri Afiq Rəhimov Ümummilli Liderin səhiyyəmizə göstərdiyi diqqət və qayğının, ölkədə həyata keçirilən sosialyönümlü siyasətin bu sahədə mühüm nailiyyətlər əldə edilməsi, beynəlxalq arenada nüfuzumuzun yüksəlməsi ilə nəticələndiyini qeyd ediblər.

Tədbir zamanı həmçinin Ulu Öndərin fəaliyyətini əks etdirən videoçarxlar nümayiş etdirilib, Yeni Azərbaycan Partiyasına üzv olan əməkdaşlara vəsiqələr təqdim edilib.

Konfrans elmi hissə ilə davam edib.

Qeyd edək ki, konfransın işinə mayın 11-də yekun vurulacaq.

## Ümummilli Liderə aid tammətnli elektron resursların, sənədlər toplusunun təqdimatı olub

Dünən Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş geniş foto və kitab sərgilərinin, tammətnli elektron resursların, sənədlər toplusunun təqdimatı təşkil edilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə kitabxananın direktoru Mayıl Əhmədov çıxış edərək tədbir haqqında ümumi məlumat verib və Ulu Öndərin keçdiyi həyat yolundan, Azərbaycan dövlətinin qurulması və inkişafı uğrunda gördüyü işlərdən danışıb: "Müasir tariximizin bir qərinəlik dövrü dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişafı, beynəlxalq aləmdə nüfuzunun artması Heydər Əliyevin qətiyyətli siyasəti sayəsində mümkün olmuşdur. Ölkəmizin bugünkü ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrindəki nailiyyətlərin əsası onun dövlətimizin başçısı olduğu dövrdə qoyulub. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası öyrənmək, onu təbliğ etmək və qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli borcudur. Hazırda istər ölkə daxilində, istərsə də xarici ölkələrdə Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə silsilə tədbirlər və beynəlxalq konfranslar keçirilir. Heydər Əliyevin ömür yolu, dövlətçilik missiyası və zəngin irsi yenidən öyrənilir, təhlil və təbliğ edilir. Ümummilli Liderin tövsiyəsi ilə təşkil edilən Prezident Kitabxanası yarandığı vaxtdan etibarən onun həyat və fəaliyyətinin bütün sahələrinə aid materialların, zəngin irsinin toplanılması, sistemləşdirilməsi və onların elektron variantının hazırlanması istiqamətində sistemli iş aparır. Kitabxananın əməkdaşlarının hazırladıqları "Heydər Əliyev. Elektron sənədlər toplusu" Ulu Öndərin anadan olmasının 100 illiyi ərəfəsində həm məzmun, həm də dizayn baxımından tamamilə yenilənib. Geniş oxucu kütləsinin və tədqiqatçıların istifadəsi üçün nəzərdə tutulan həmin informasiya resursu, sənədlərin və materialların rəqəmsal formatda toplanılması və təqdim edilməsi baxımından ölkədə yaradılan ən mükəmməl informasiya sistemidir".

Onun sözlərinə görə, "Heydər Əliyev. Elektron sənədlər toplusu" 8 fəsil və 42 bölmədən ibarətdir. "Ümummilli Lider" fəslinin "Bioqrafiya" bölməsində Heydər Əliyevin həyat və fəaliyyətinin mühüm məqamları öz əksini tapır. "Xronologiya" bölməsində 1923-1969, 1969-1982, 1982-1987, 1990-1993 və 1993-2003-cü illərdə Heydər Əliyevin gündəlik həyatının mühüm mərhələləri 412 səhifədə xronoloji ardıcıllıqla işıqlandırılır. Elektron resursun "Sənədlər" fəsli "Nitqlər", "Çıxışlar", "Söhbətlər", "Müsahibələr", "Bəyanatlar", "Təbriklər" bölmələri üzrə qruplaşdırılıb. Bu fəsildə yerləşdirilən materialların ümumi həcmi 7 min səhifədən artıqdır. "Xarici siyasət fəaliyyəti" fəslinin "Xronologiya" bölməsində Heydər Əliyevin Prezident olduğu illərdə 36 dövlətə 132 səfərinin materiallarının təhlili göstərir ki, bu səfərlərin 32-si dövlət və rəsmi səfər xarakteri daşımışdır. Ümummilli Lider Türkiyəyə 24, Rusiyaya 22, ABŞ-a 9 dəfə səfər edib. 5 dəfə BMT-də, 20 dəfə MDB-də, 5 dəfə Türk Dövlətləri Təşkilatında keçirilən tədbirlərdə iştirak edib. NATO, AŞPA, ATƏT, GÜAM, İKT kimi regional təşkilatların tribunalarından dəfələrlə Azərbaycanın haqq səsini dünyaya çatdırıb. Azərbaycan-Ermənistan münaqişəsinin nizamlanması məqsədilə Ermənistan prezidentləri ilə 21 görüş keçirib. Bu fəslin "Rəsmi sənədlərin biblioqrafiyası" bölməsində Heydər Əliyevin imzaladığı 5863 qanun, fərman və sərəncamın biblioqrafik təsvirləri illər üzrə toplanılıb təqdim edilir. Təhlillər göstərir ki, Heydər Əliyev müəllifi olduğu "Neft strategiyası"nı reallaşdırmaq üçün müxtəlif səviyyələrdə 46 görüş keçirib, bu mövzuda 85 dəfə nitqlər söyləyib və çıxışlar edib, 4 bəyanat və 8 dəfə müxtəlif KİV-lərə müsahibə verib.

Diqqətə çatdırılıb ki, "Elektron kitabxana" fəslində 1997-2013-cü illərdə çap edilən və Ümummilli Liderin çıxışlarının, nitqlərinin, bəyanatlarının, məktublarının, müsahibələrinin, söhbətlərinin, müraciətlərinin mətnləri daxil edilmiş "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 46 cildinin elektron versiyaları, kitabxananın fonduna daxil olan Heydər Əliyev haqqında yazılan 400-dən artıq kitabın və 1100-dən artıq seçilmiş məqalənin elektron versiyaları öz əksini tapır.

Kitabxananın əməkdaşlarının Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə hazırladıqları "Heydər Əliyev-100" adlı statik Elektron biblioqrafik göstərici resursun "Biblioqrafiya" fəslində yerləşdirilib. Göstəricidə Heydər Əliyev haqqında müxtəlif dillərdə yazılan kitabların və dövri mətbuatda dərc edilmiş məqalələrin, müdafiə olunmuş dissertasiyaların avtoreferatlarının biblioqrafik təsvirləri, Azərbaycan və rus dillərində kitab müəlliflərinin köməkçi adlar göstəricisi də təqdim edilir. Göstəricidə 10 minə yaxın biblioqrafik təsvir verilir. Elektron resursun "Fotoqalereya" fəslinin "Fotoalbom" bölməsində Ümummilli Lider Heydər Əliyevin ömrünün bütün dövrlərinin mühüm məqamlarını özündə əks etdirən fotolar xronoloji ardıcıllıqla təqdim edilir. "Fotosənəd" bölməsində isə dahi şəxsiyyətə məxsus şəxsi sənədlərin bir qisminin surətləri yerləşdirilib.

Tədbirdə Yeni Azərbaycan Partiyasının (YAP) sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın inkişafı naminə Ümummilli Lider Heydər Əliyevin gördüyü misilsiz işlərdən danışıb: "Azərbaycanın inkişaf edərək dirçəlməsində və onun müstəqil və suveren ölkə kimi nüfuz qazanmasında Ulu Öndərin misilsiz xidmətləri var. Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması, çoxəsrlik tarixi ənənələrin və ümumiyyətlə, Azərbaycan xalqının azadlıq və müstəqillik yolunda öz milli-mənəvi mirasının yaşadılmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri danılmazdır. Burada təqdim olunan Ümummilli Liderə aid hazırlanmış tammətnli elektron resursların önəmi ondadır ki, bundan müxtəlif qurumların, dövlət orqanları və təşkilatların bəhrələnmək imkanları olacaq. Ulu Öndər Heydər Əliyev müasir, müstəqil Azərbaycanın tarixində misilsiz, müstəsna rol oynamış şəxsiyyətdir. Ulu Öndər hər cəhətdən zamanını qabaqlayan liderlərdən idi. Heydər Əliyevin dahiliyi onda idi ki, o, bir çoxlarının vaxtında dərk edə bilmədiyi, anlaya bilmədiyi mətləbləri, hədəfləri öz uzaqgörənliyi sayəsində zamanında həll edə bilib. Bunun da sayəsində biz bu gün müasir, inkişaf etmiş, güclü bir dövlətdə yaşayırıq".

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivinin direktoru Elmira Ələkbərova deyib: "Ümummilli Liderin irsi o qədər geniş və böyükdür ki, onun öyrənilməsi və araşdırılması üçün böyük institutlar lazımdır. Ulu Öndər haqqında hansısa araşdırma aparmaq, məqalə yazmaq və layihə üzərində işləmək böyük bir məsuliyyət tələb edir. Bu, özlüyündə bir günün işi deyil, bunun hazırlanmasına illər lazımdır. Bu gün fəxr edirik ki, Ümummilli Lider Heydər Əliyev kimi rəhbərimiz olub və o, özünün üstün şəxsiyyəti, hər hərəkəti ilə daim bizə örnəkdir. Bu gün də Ulu Öndərin layiqli davamçısı İlham Əliyev onun vəsiyyətlərini, ideyalarını layiqincə həyata keçirir. Biz xoşbəxt xalqıq ki, belə bir dövlətdə yaşayırıq və belə bir zəngin tariximiz var".

Sonra Ümummilli Lider Heydər Əliyevin həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş etdirilib, həmçinin Ulu Öndərin anadan olmasının 100 illiyinə həsr olunmuş geniş foto və kitab sərgilərinə baxış keçirilib.



# Heydər Əliyev İli 2023

# Zamanın fövqündə

**"Doğrudur, 22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım".**

**Heydər ƏLİYEV**

Anadan olmasının 100-cü ildönümündə böyük dövlət və siyasi xadim, Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan Respublikası dövlətinin qurucusu kimi müstəsna tarixi roluna nəzər yetirmək, fəaliyyətini araşdırmaq, toplanmış tarixi təcrübəni öyrənmək, elmi-nəzəri ümumiləşdirmələr aparmaq praktik siyasət və perspektivlər baxımından əhəmiyyətlidir. Yaşadığı dövrdən zaman etibarı ilə uzaqlaşdıqca böyüklüyü daha çox görünən, Azərbaycanın güclü və müstəqil bir dövlət kimi yaşaması, inkişaf etdirilməsi, xalqımızın qüdrətli olması üçün çalışan bütün şəxslərə mənəvi-siyasi irsi baxımından daha da yaxınlaşan Heydər Əliyevin müstəqil dövlətçiliyə dair fəaliyyətinin və strateji düşüncələrinin bütün tərəflərini bir məqalədə təhlil etmək mümkün deyildir. Bundan ötrü dərin elmi-tədqiqat işlərinin aparılmasına və əsərlərin yazılmasına ehtiyac vardır. Məqalənin yazılmasında başlıca məqsəd Azərbaycanın dövlət müstəqilliyinin əsaslarının yaradılmasında və qorunub saxlanılmasında, dövlət quruculuğunda, strateji hədəflərin müəyyənləşdirilməsində Heydər Əliyevin fəaliyyətini ümumiləşdirilmiş elmi-nəzəri təhlil etməkdir.

Tarixi tədqiqatların dünyada qəbul olunmuş metodoloji prinsiplərinə görə dövlət və siyasi xadimlərə bir sıra meyarlar əsasında qiymət verilir. İlk növbədə, tarixi şəxsiyyət konkret məkan və zaman daxilində yaşadığından fəaliyyətinə də məhz həmin çərçivədə yanaşmaq, təhlil etmək və qiymətləndirmək tədqiqatların başlıca metodoloji tələblərindən biridir. Məkansız və zamansız tarix olmadığı kimi, həmin çərçivədən kənarda fəaliyyət göstərən dövlət və siyasi xadim də yoxdur. Onlar mücərrəd deyil, konkret ictimai-siyasi şəraitə uyğun olaraq millətinin və dövlətinin xeyrinə müvafiq qərarları qəbul edirlər. İkincisi, dövlət və siyasi xadimlərin fəaliyyətinə özündən sonra gələnlərlə deyil, özündən əvvəlkilərlə müqayisədə qiymət verilir. Çünki onlar bir neçə on illər sonra nəyin və necə baş verəcəyini əvvəlcədən görə bilməzlər. Yalnız zamandan uca olanlar, millətinin strateji inkişaf yolunu müəyyənləşdirən, tərəqqisindən ötrü başlıca şərt olan dövlətinin güclənməsinə ömrünü həsr edən dövlət və siyasi xadimlər dahilər, dühalar olurlar. Sonrakı tarixi dövrlərində hakimiyyətə gələnlər xalqını və dövlətini daha da güclü etmək üçün məhz onların siyasi, dövlətçilik irsinə və təcrübəsinə müraciət edir, ibrət dərsi alırlar. Zəif dövlət rəhbərlərini tarixin səhifəsindən silib çıxarmaq mümkün olmasa da, dövlət və siyasi xadimlər onların irsinə, adətən, müraciət etmirlər. Ona görə ki, heç bir dövlət rəhbəri ölkəsinin zəif olmasını istəməz. Çünki milli dövlətçilik tarixindən güclü örnəkləri öyrənmək lazım gəlir. Məhz həmin meyarlar baxımından Heydər Əliyevin dövlətçilik irsinə diqqət yetirmək, bəzi suallara dərin elmi əsaslandırılmış cavablar vermək, keçilən yolu doğru qiymətləndirmək və düzgün nəticələr çıxarmaq əhəmiyyətlidir. Heydər Əliyevin dövlət və siyasi xadim olaraq fəaliyyəti Azərbaycan dövlət adamlarına, siyasətçilərinə hansı ibrət dərslərini verir? Regionun geosiyasətinin dəyişməsinə təsir edən dövlət rəhbəri kimi Heydər Əliyevin fəaliyyəti 100 ilin zirvəsindən necə görünür? Bu məqalə qətiyyən təbliğat xarakteri daşımır, görkəmli dövlət və siyasi xadimin, tarixi şəxsiyyətin fəaliyyətinə tarixçi baxışıdır.

❖❖❖

1918-ci ilin may ayında Azərbaycan xalqı bir ilkə imza ataraq müsəlman Şərqinə respublika məfkurəsini gətirdi, Azərbaycan Xalq Cümhuriyyətini, respublika idarə üsulunu qurdu, müsəlman xalqlarına müstəmləkəçilikdən qurtulmağın yolunu göstərdi. Lakin cümhuriyyətin ömrü uzun olmadı, 1920-ci ilin aprelində bolşevik Rusiyasının işğalına məruz qaldıqdan sonra milli dövlət süquta uğradı və Azərbaycan SSR yaradıldı. XX əsrin 20, 30 və 40-cı illəri sovet dövlət quruculuğu adı altında müstəqil dövlətçiliyin ən kiçik təzahürlərinin ləğv edilməsi, təbii sərvətlərinin amansızlıqla talan edilərək daşınıb aparılması, Azərbaycanın ittifaq mərkəzinə daha çox bağlanması, milli ədəbiyyatın, milli ruhlu ziyalıların amansız təqib edilmələri və repressiyalar ilə yadda qaldı. Azərbaycan rəhbərliyində təmsil olunan şəxslər arasında davam edən intriqalar, mərkəzə şikayət dolu məktubların göndərilməsi respublikaya olan mənfi münasibəti daha da artırırdı. Sovet lideri Stalinin ölümündən sonra ölkədə nisbi yumşalma baş versə də, soyuqqanlı davranışların yerini hissiyatlar tutduğundan mərkəzi hakimiyyət Azərbaycanı cəzalandırdı, milli ruhlu insanları sıxışdırdı və bir sıra rəhbər şəxsləri vəzifələrindən uzaqlaşdırdı.

1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanda şərait tədricən dəyişdi. Fabrik və zavodların tikilməsi nəticəsində rayonlardan gənclərin paytaxta gəlməsilə, çarizm və sovet dövrlərində digər xalqların gətirilməsi ilə simasını itirmiş Bakı şəhərində milli ruh bərpa olunmağa başladı. Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilməsi ilə millətin özünə inamı artdı. Xarici ölkə tarixçilərinin yazdığı kimi, Azərbaycanın şimalı çar Rusiyası tərəfindən işğal edildikdən sonra özlərini sındırılmış hesab edən azərbaycanlılar XX əsrdə yalnız iki dəfə Bakıda başlarını dik tutaraq gəzmişdilər: birinci dəfə Nuru Paşa komandanlığında Azərbaycan və Osmanlı hərbçilərindən təşkil edilmiş Qafqaz İslam Ordusu tərəfindən 1918-ci ilin sentyabr ayında şəhər azad edildikdən sonra; ikinci dəfə isə Heydər Əliyevin hakimiyyəti altında özlərinə inamın artdığı 1970-ci illərdə.

Azərbaycanın dövlət müstəqilliyi üçün zəruri olan obyektiv amillər, maddi təməllər sovet sistemi daxilində formalaşdı. Respublika ərazisinin qorunmasına, hakimiyyətin güclü olmasına, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirildi, demoqrafik inkişaf baş verdi.

Sovet sistemi şəraitində həm də ittifaq mərkəzinin işarəsi ilə Azərbaycanı daxildən zəiflətmək, didib-parçalamaq məqsədi güdən intriqalar, "Bakı işi" adı altında Moskvada partiya iclaslarında müzakirə olunan məsələlər xalq haqqında mənfi rəy formalaşdırırdı. Bu hallara son qoyan Heydər Əliyev hakimiyyətin qanadları arasında yekdillik yaratdı, xalq və hakimiyyət arasında birlik qurdu, milli kadrların yetişdirilməsinə və yerləşdirilməsinə üstünlük verdi. Bütün ölkədə slavyan xalqlarının nümayəndələri respublikalarda vəzifələrə gətirildiyi halda Heydər Əliyev milli kadrları hazırlamağa və ətrafına toplamağa başladı. Xarici tədqiqatçıların fikrincə, Heydər Əliyevin qazandığı uğurların kökündə yerli milli kadrlara arxalanması dayanırdı.



İstiqlal üçün tələb olunan mənəvi amillərin formalaşdırılmasından ötrü tədbirlər görüldü. Bilindiyi kimi, XIX əsrin sonları - XX əsrin əvvəllərində maarifçilərin, şair, yazıçı və alimlərin əsərlərində intişar tapmış Azərbaycanın istiqlal fikri cümhuriyyətin qurulmasında başlıca rol oynamışdı. İstiqlal məfkurəsini əsərlərində qoruyan alim, şair, yazıçı və jurnalistlər sovet hakimiyyəti qurulduqdan sonra amansız repressiyalara məruz qalmışdılar. Respublikada dissidentlərin yaranmasına imkan verməyən Heydər Əliyev məharətlə həmin şəxsləri bütöv Azərbaycan, Cənubi Azərbaycan məsələsindən yazmağa təşviq edir, Moskvanın çənginə vermir, bəzən yüngülcə tənqid etsə də, az sonra onlara yüksək fəxri adlar verib vəzifələrə təyin edərək qoruyurdu. Xarici ölkə tarixçilərinin yazdığı kimi, 70-ci illərdə azərbaycanlı şair və yazıçıların əsərlərindəki bölünmüş Azərbaycanın hər iki tayının birləşdirilməsi fikri Mərkəz Komitənin birinci katibinin kabinetinin açıq pəncərələrindən axaraq onların düşüncələrinə və əsərlərinə hakim olurdu.

Heydər Əliyev millətin varlığının əsas amili olan Azərbaycan dili sahəsində tədqiqatların aparılmasına dair göstərişlər verir, görkəmli dilçi alimlərə dövlət mükafatlarını təqdim edirdi. Bu, tariximizdə bir ilk idi.

Azərbaycan ədəbiyyatının görkəmli xadimlərinin xatirəsini əziz tutan, əbədiləşdirən Heydər Əliyevin türkçü, pantürkçü, turançı kimi həbs olunmuş və Uzaq Sibir sürgünündə vəfat etmiş Hüseyn Cavidin məzarını bir vaxtlar işlədiyi Bakıya deyil, doğulduğu Naxçıvana köçürməsi Azərbaycanın bir parçasını sovet dövründə ümumi vətən hesab edilən SSRİ məfhumundan üstün tutduğunu göstərirdi.

Kərbəlada böyük Məhəmməd Füzulinin məzarının dağılması təhlükəsi yarandıqda iclasların birində üzünü şair Süleyman Rüstəmə tutaraq söyləyir ki, get İraqın Bakıdakı konsulunun xirtdəyindən tut və de Füzuli mənim mənliyimdir, varlığımdır, qorxma, mən nə qədər varam, sizə heç kim bir söz deyə bilməz. Buna bənzər sözləri yazıçı Mirzə İbrahimova da deyir. Belə mövqe təkcə ədəbi tarixi irsin mühafizəsinə qayğı deyil, eyni zamanda şair, yazıçı, jurnalist və alimlərə qorxmadan yazıb-yaratmaları üçün bir işarə idi.

1982-ci ilin sonlarında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi ilə Heydər Əliyevin həyat və fəaliyyətinin Moskva mərhələsi başlayır. Azərbaycanlı, müsəlman olan Heydər Əliyevin Moskvada rəhbər vəzifələrə gətirilməsi, dünyanı lərzəyə salan sovet imperiyasını idarə edən şəxslərdən biri olması ilk növbədə dövlət idarəçilik bacarığı, yüksək intellektual səviyyəsi, Kreml rəhbərliyinin Əfqanıstana hərbi müdaxilədən sonra ölkənin müsəlman dünyasında itirilmiş nüfuzunu bərpa etmək niyyətləri ilə bağlı idi. Mərkəzdə belə hesab edirdilər ki, Sov.İKP MK Siyasi Bürosunda olan Qazaxıstandan Dinmühəmməd Kunayev və Özbəkistandan Şərəf Rəşidov bəlli səbəblərdən bu vəzifələri yerinə yetirə bilmirlər. Bu işlərin öhdəsindən müsəlman Şərqini dərindən bilən, xalqları və ölkələrinin rəhbərləri tərəfindən qəbul olunan yalnız Heydər Əliyev gələ bilərdi. Xarici ölkə tarixçilərinin yazdığı kimi, mərkəz üçün Heydər Əliyev sovet dövlət, partiya xadimi, müsəlman Şərqi xalqları və liderləri üçün Heydər, Əli, Əlizadə idi. Digər tərəfdən, xarici müəlliflər qeyd edirlər ki, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanın müstəqilliyə tam hazırlandığı, yalnız onun formal olaraq elan edilməsinin qaldığı qənaətinə gələn mərkəz, bunun acı nəticələri ola biləcəyindən çəkinərək onu vəzifədən çıxarmaqla deyil, Moskvada daha sərt nəzarət altında saxlamaqda görürdü. Həmin səbəblərə görə, Heydər Əliyev Moskvada yüksək vəzifələrə gətirildi. Sonralar çıxışlarının birində Heydər Əliyev bununla əlaqədar deyirdi: "Doğrudur, 22 il bundan öncə biz bilmirdik ki, Azərbaycan müstəqil dövlət olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım". Heydər Əliyevdən sonra hakimiyyətə gələn Azərbaycan rəhbərləri respublikanın gücləndirilməsi xəttini davam etdirə bilmədilər, hər şey geriyə döndü.

Heydər Əliyevin fikrincə, müsəlman Şərqində sovet dövlətinin nüfuzunu artırmaq, xalqlar üçün cəlbedici etməkdən ötrü SSRİ-nin müsəlman respublikalarının sosial-iqtisadi, mədəni inkişafına xüsusi diqqət yetirilməli idi. Bununla da o, SSRİ-nin türk, müsəlman xalqlarının liderləri səviyyəsinə yüksəlirdi.

1980-ci illərin ortalarında SSRİ-də hakimiyyətə gələn Mixail Qorbaçov türk, müsəlman respublikalarının Leonid Brejnev dövründə xeyli irəli getdikləri, dövlət müstəqilliklərini elan etməyə hazır olduqları qənaətinə gəldiyindən onların ölkə rəhbərliyindəki xadimlərinə etinasızlıq göstərərək vəzifələrindən uzaqlaşdırdı, xalqlarını isə cəzalandırdı. Sov.İKP MK-nin 1987-ci ilin oktyabr plenumunda Heydər Əliyev vəzifələrindən çıxarıldıqdan az sonra Ermənistan Azərbaycana qarşı əsassız iddialarını irəli sürərək daxili işlərinə kobud şəkildə qarışmağa başladı. Ermənistanda əzəli torpaqlarında yaşayan azərbaycanlılar vəhşicəsinə qovularaq qaçqına çevrildilər, tarix və mədəniyyət abidələri dağıdıldı. Bunların qarşısını almaq iqtidarında olmayan hakimiyyət Azərbaycanı böhrana saldı. Rəhbərlər bir-birinin ardınca dəyişsə də, vəziyyət düzəlmədi. Respublikada qarışıqlıq yarandı, dövlət və hökumət strukturları iflic vəziyyətinə düşdülər.

Ermənistanı dayandırmaq əvəzinə Azərbaycanı cəzalandıran sovet rəhbərliyi tərkibinə ehtiyatda olan ermənilərin də cəlb edildiyi qoşun hissələri ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda dinc əhaliyə qarşı kütləvi qırğın törətdi. Moskvada təhlükəsizliklərinin təmin edilməməsinə baxmayaraq, bu qanlı hadisədən sonra Heydər Əliyev ailə üzvlərilə birlikdə Azərbaycanın Daimi Nümayəndəliyinə gəlib bəyanat verərək 20 Yanvar qətliamını törədənləri ittiham etdi, ən ağır zamanda xalqının yanında oldu. Bu, onun gələcək siyasi və milli dövlətçilik fəaliyyətində zirvəyə aparan yolun başlanğıcı, yeni şəraitdə Ümummilli Liderlik üçün ilk addım idi. Həyatında dönüş anı olan 20 Yanvar hadisəsindən sonra mərkəz ilə yolunun bir olmadığı qənaətinə gələn Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etmək xəttini götürdü.

Moskvada yaşamağın mümkün olmadığını görən Heydər Əliyev Azərbaycana gəlsə də, uzun illər boyu respublikaya rəhbərlik etməsinə baxmayaraq, yaşamağa mənzili olmadığından və yerli rəhbərlər də onun Bakıda qardaşının evində qalmasına razılıq vermədiklərindən doğulduğu Naxçıvana getməyə məcbur oldu. Az sonra Heydər Əliyevin bəyanat verərək Kommunist Partiyasının sıralarından istefa verməsi bu ideologiyanın iflasında təsirli rol oynayan amillərdən biri oldu. Minlərlə insan ondan nümunə götürərək partiya biletlərindən imtina etdi. SSRİ-nin ideoloji əsası olan Kommunist Partiyası dağıldı.

1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və bir müddət sonra isə sədri seçilməsi ilə Heydər Əliyevin həyat və fəaliyyətinin yeni bir mərhələsi başlandı. Sovet sisteminin və SSRİ-nin mövcud olmasına baxmayaraq, ağsaqqal deputat kimi sədrliyi altında keçən Naxçıvan Ali Sovetinin ilk sessiya iclasında sovet artibutlarından imtina olundu, MSSR-in adından Sovet Sosialist ifadələri çıxarıldı, Ali Sovet Ali Məclis adlandırıldı. Sovet dövlətinin inkar etdiyi, cümhuriyyətin üçrəngli bayrağı ilk dəfə olaraq Naxçıvanda rəsmi olaraq dövlət bayrağı kimi qəbul edildi və Azərbaycan rəhbərliyinə yeni atributları qəbul etmək tövsiyə edildi. Naxçıvan müasir müstəqil Azərbaycan milli dövlətçiliyinin bərpasının onurğa sütunu oldu. Heç şübhəsiz, bu qərar müasir tariximizin ən vacib hadisələrindən və Heydər Əliyevin millət qarşısında böyük tarixi xidmətlərindən biri olmaqla zamanın fövqündə dayandığını göstərir.

Naxçıvanda Heydər Əliyev dünya azərbaycanlılarının birliyindən ötrü qəbul edilən qərarların təşəbbüskarı oldu. Azadlıq meydanında keçirilən mitinqlərin xarakterini dəyişdirərək ona islam fundamentalizm damğası vurmaq məqsədilə sovet rəhbərliyinin tapşırıqlarına əsasən, DTK İran İslam Respublikasının bayraqlarını göndərirdi. Bir müddət sonra SSRİ-İran sərhədinin Naxçıvan hissəsində tikanlı məftillərin sökülməsi də həmin niyyətlərə yönəlmişdi və millətimizin üstünə atılan ləkə idi. Heydər Əliyevin 31 Dekabrın Dünya Azərbaycanlıların Həmrəyliyi Günü elan edilməsinə nail olmaqla həmin ləkəni sildi və bütün azərbaycanlıları tək bayraq, tək dövlət, tək vətəndə birləşdirdi.

SSRİ dağıldıqdan sonra Azərbaycan xalqı və dövlətinin qarşısında dayanan vəzifələri - dövlət müstəqilliyini tanıtmaq və qorumaq; ölkənin inkişafının açarını tapmaq; Ermənistanın təcavüzünə son qoymaq; diktaturadan demokratiyaya, planlı təsərrüfatdan azad bazar iqtisadiyyatına keçmək və digər məsələləri bir-birini əvəz edən Azərbaycan rəhbərləri yerinə yetirə bilmədiklərindən hakimiyyət ilə xalq arasında uçurum, hakimiyyətin qanadları arasında ziddiyyətlər dərinləşdi. Ölkənin daxili və xarici siyasəti ağır vəziyyətə düşərək dalana dirəndi, ümumi böhran yarandı. Ermənistanın hərbi təcavüzü davam etdiyi bir vaxtda Gəncədə hərbi hissədə baş verən hadisə yatırılmadığından hakimiyyət ölkədəki proseslər üzərində nəzarəti tamamilə itirdi. Azərbaycanın şimalı və cənubunda xarici düşmən qüvvələr tərəfindən dəstəklənən separatçılıq artdı, ölkə parçalanmaq, xalq vətəndaş müharibəsi, dövlət müstəqilliyi itirilmək təhlükəsi qarşısında qaldı. Belə ağır şəraitdə vəzifədə olanlar bir-birinin ardınca istefa verərək məsuliyyətdən yaxa qurtarmaq yolunu tutdular, bəziləri vəzifələrini "dondurdular", bəziləri isə qaçıb gizləndilər. Bu, Azərbaycan dövlətçiliyi tarixində pis bir an olan, gələcəkdə xatırlanası və müraciət ediləsi deyil, utancverici bir səhifə idi. Sabaha ümidinin olmadığı üçün xalq nicat yolu axtarırdı: Nə etməli? Ölkəni ağır şəraitdən kim çıxara bilər?

Xalqda formalaşmış qəti inama görə yalnız Heydər Əliyev Azərbaycan dövlətini dağılmaqdan, ümumi böhrandan, mənəvi-psixoloji sarsıntıdan çıxara, Ermənistanın hərbi təcavüzünü dayandıra, ölkəni fəlakətə salmış bərbad xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi. Ona görə də xalqımız Naxçıvana - Heydər Əliyevə müraciət etdi. Çarəsiz qalan ölkə rəhbərliyi xalqın tələbləri əsasında və Konstitusiyaya uyğun olaraq Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. Qiyamın baş verdiyi Gəncəyə getdikdən sonra parlament sədri seçilən, bir qədər keçmiş ölkə prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyevin qarşısında daxili siyasət sahəsində xeyli ağır vəzifələrin həll edilməsi dayanırdı: ölkəni dağılmaqdan, xaricdən dəstəklənən separatçılıqdan xilas etmək; milli birliyi bərpa etmək; hakimiyyətin qanadları arasında yekdillik yaratmaq; xalq ilə hakimiyyət arasında uçurumu, inamsızlığı aradan qaldırmaq; iflic olmuş dövlət orqanlarını işlək hala gətirmək; dövlətin əlində olması gərəkən silahları ələ keçirərək ölkədə kriminogen şərait yaradan ayrı-ayrı cinayətkar dəstələri tərk-silah, insanların sakit və təhlükəsiz yaşayışını təmin etmək; ağır sosial-iqtisadi vəziyyətdə yaşayan xalqı inkişafa aparmaq; güclü dövlət qurmaq üçün etibarlı açarı tapmaq; köhnə sosializm sisteminin qalıqlarından imtina edərək uğurlu islahatlar aparmaq və sairə.

Xarici siyasət sahəsində qarşıda dayanan başlıca vəzifələr dövləti dağılmaqdan qurtarmaq; Ermənistanın davam edən hərbi təcavüzünü dayandırmaq; ölkəni fəlakət həddinə gətirən, Azərbaycan xalqı və dövlətinə düşmənlər qazandıran təkqütblü xarici siyasət xəttindən imtina etmək; ölkə daxilində dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait yaratmaq və sairə idi. Yerləşdiyi coğrafi-siyasi mövqeyi, təbii sərvətləri ilə yüzilliklər boyu imperiya siyasəti yürütmüş böyük dövlətlərin sınaq meydanına, "qurdlar süfrəsi"nə çevrilmiş Azərbaycanda bütün bunları bir dövlət xadiminin həll etməsi xeyli mürəkkəb və çətin bir iş olsa da, Heydər Əliyev Bakıya gələn kimi yeni liderlik keyfiyyətini ortaya qoydu, ölkənin problemlərinin həllində yalnız xalqa arxalandı. Separatçılıq xalqın iradəsi ilə, topsuz-tüfəngsiz dəfn edildi.

Ermənistanın hərbi təcavüzünün davam etməsi, Azərbaycan ərazilərinin bir-birinin ardınca işğal olunması ölkənin inkişafına mane olan başlıca amil idi. Heydər Əliyev ya sonu görünməyən və nəticəsi bilinməyən müharibəni davam etdirməli, ya da atəşkəsə nail olub fasilə qazanmalı, dövləti qurmalı, onu möhkəmləndirməli, torpaqları işğaldan azad etməkdən ötrü zəmin hazırlamalı idi. Horadiz əməliyyatı ilə düşmənə ağır zərbə vurduqdan sonra atəşkəs yolunu seçən Heydər Əliyev dövlət idarəetməsini iflic halına, xalqı mənəvi-psixoloji böhrana salan, maliyyə və iqtisadi ehtiyatlarını udan hərbi əməliyyatları dayandırdı. Bu, Azərbaycana bir sıra məsələləri həll etməyə imkan verdi, üstünlüklər qazandırdı, ən başlıcası, xarici sərmayənin gəlməsinə şərait yaratdı.

Ermənistan isə atəşkəsə getməklə işğalı "oldu-bitdi" kimi qələmə vermək, danışıqlar prosesini uzatmaq məqsədi güdürdü. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qazanılan qələbə Heydər Əliyevin zamandan uca olduğunu, strategiyasının Ermənistan, dünya erməniliyi və onların havadarları üzərində qalibiyyətini göstərdi.

1994-cü il 20 sentyabrda Heydər Əliyevin qəti iradəsi nəticəsində "Əsrin müqaviləsi"nin imzalanaraq həyata keçirilməyə başlaması ilə bir-birilə didişən, geosiyasi və geoiqtisadi maraqları uğrunda amansız mübarizə aparan dövlətlər ilk dəfə olaraq Azərbaycanda konsorsium yaratdılar. Ərazicə çox da böyük olmamasına, əhalisinin sayının azlığına baxmayaraq, Azərbaycan özündən qat-qat böyük dövlətləri bir araya gətirdi, birləşdirici rol oynadı. Bu, Heydər Əliyevin təkcə Azərbaycan milləti və dövləti deyil, dünya siyasəti qarşısında nadir xidmətlərindən biri idi.

Heydər Əliyevin qətiyyəti özünü "Əsrin müqaviləsi" imzalandıqdan sonra baş verən dövlət çevrilişi və qiyam cəhdlərinin qarşısının alınmasında aydın şəkildə göstərdi. 1994-cü ilin oktyabrında dövlət çevrilişi, 1995-ci ilin martında isə dövlət əleyhinə qiyam cəhdləri məhz onun yenilməz iradəsi, qətiyyəti və siyasi bacarığı ilə iflasa uğradıldı. Millət qanuni hakimiyyəti müdafiə etdi. Bu, qanunsuz hərəkətlərin qarşısının alınmasının ibrətamiz tarixi dərsləri oldu. Heydər Əliyev qəti şəkildə göstərdi ki, Azərbaycan çevrilişlər üçün sınaq meydanı deyil, güclü dövlətdir, silahlı yolla hakimiyyətə gəlmək yolverilməzdir. Bu, digər bir mühüm məsələnin həllinə kömək etdi. O zamana qədər sabitlik və sabaha ümidlər olmadığından Azərbaycana borc verməyən xarici dövlətlər və donor təşkilatlarının mövqeyində dəyişiklik baş verdi, ölkəmizə investisiya axını başladı. Yeni neft strategiyası ölkənin inkişafı, güclü dövlət qurulması, millətin daha yaxşı yaşayışını təmin etmək üçün açar oldu. Azad bazar iqtisadiyyatına keçmək, demokratik inkişaf üçün islahatlar aparıldı, çoxpartiyalı sistemin əsasları möhkəmləndirildi. Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu sahəsində tədbirlər həyata keçirildi. Ən başlıcası, Azərbaycanda təməlləri möhkəm olan, güclü dövlətçilik ənənəsinin və dərin dövlətin əsası qoyuldu.

Dövləti dalana dirəyən, milli-dövlət maraqlarına cavab verməyən uğursuz xarici siyasət xəttindən imtina edən Heydər Əliyev çevikliyə və manevrlərə imkan verən tarazlaşdırılmış, çoxqütblü xarici siyasət xəttini dövlətin beynəlxalq fəaliyyətinə gətirdi.

Prezident vəzifəsində ilk rəsmi xarici səfərini dünya demokratiyasına töhfələr vermiş, Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə de-fakto tanındığı və erməni lobbisinin güclü olduğu Fransaya edərək göstərdi ki, Azərbaycan demokratiya yolu tutub, Avropa ailəsinin üzvüdür, dövlət müstəqilliyi daimi, əbədi və sarsılmazdır, bu yoldan dönməyəcəkdir, Azərbaycan dövləti heç bir ölkənin və ölkələr qrupunun deyil, yalnız öz maraqlarının yanındadır, erməni lobbisinin, havadarlarının fitnələrinə qarşı tutarlı cavab veriləcəkdir.

Azərbaycanın qonşu dövlətlərlə münasibətlərini nizama salmaq üçün addımlar atan Heydər Əliyev İran və Rusiya ilə mehriban qonşuluğu tədricən bərqərar etdi. Türkiyə və Gürcüstan ilə strateji münasibətlər xətti seçdi. Azərbaycanın mehriban qonşuları, ticarət ortaqları, strateji tərəfdaşları və strateji müttəfiqləri müəyyənləşdirildi.

Neft strategiyasını reallaşdıran Heydər Əliyev ölkənin təbii sərvətlərini milli sərvətə çevirdi. Təkcə iqtisadi deyil, böyük strateji əhəmiyyət daşıyan çoxşaxəli neft və qaz kəmərləri inşa edilməyə başlandı. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri Azərbaycanın müstəqilliyi kəməri oldu, hər hansı bir dövlətdən asılılığa son qoydu. Azərbaycanın neft strategiyası Orta Asiyanın yeni müstəqil dövlətlərinin də dünyaya çıxışına kömək etdi. Əsas ixrac neft boru kəmərinin Türkiyə ərazisindən keçirilməsində israr edən, 1997-ci ilin iyul-avqust aylarında ABŞ-yə səfəri zamanı Prezident Bill Klintona "mən tacir deyiləm, siyasətçiyəm, boru kəməri Türkiyə ərazisindən keçməlidir" deyən Heydər Əliyev istəyinə nail olaraq neftin tranzitini qardaş Türkiyəyə verməklə onun da dünya siyasətində rolunu artırdı, mövqelərini möhkəmləndirdi. Bu gün Türkiyənin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib yer tutması, G-20-nin cərgəsində olması eyni zamanda həmin siyasətin nəticəsidir. Davam edən Rusiya-Ukrayna müharibəsinin yaratdığı şərait baxımından da yanaşılarsa, təkcə şimal boru kəməri fəaliyyət göstərərdisə, Avropa ölkələrinin və Azərbaycanın indi hansı ağır vəziyyətə düşəcəyini təsəvvür etmək çətin deyildir. Bu fakt da Heydər Əliyevin zamanın fövqündə dayanan strateq olduğunu təsdiq edir. Tarixi İpək yolu bərpa edildi. Azərbaycan tranzit ölkəyə çevrildi. Heydər Əliyev Cənubi Qafqazın və Mərkəzi Asiyanın geosiyasətinin dəyişməsində, türk dünyası qarşısında müstəsna rol oynayan dövlət və siyasi xadim oldu.

Heydər Əliyevin fəaliyyətindən alınan ibrət dərsləri çoxdur. Keçirilən yolun və fəaliyyətin tarixi təcrübəsi göstərir ki, Azərbaycan millətinin inkişafının təməlində sabitlik, güclü dövlət və qüdrətli dövlət rəhbəri amilləri dayanır. Hədəflərinə çatmaq istəyən millət daim dövlətinin yanında olmalı, onu qorumalı və milli-dövlət maraqlarını hər şeydən uca tutmalıdır.

***Musa QASIMLI,***
***Milli Məclisin deputatı,***
***AMEA-nın müxbir üzvü, professor***



# Heydər Əliyev İli 2023



# Heydər Əliyev dühası əbədi müstəqilliyin təməl daşıdır

**2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilməsi Azərbaycan xalqının sarsılmaz birliyinin təcəssümü, Vətənini və xalqını canından artıq sevən Ulu Öndərin şəxsiyyətinə milli-mənəvi ehtiramın ifadəsidir.**

Bütün nəsillərə örnək olan ömür sürmüş Ulu Öndər Heydər Əliyevin ictimai-siyasi və dövlət xadimi kimi Azərbaycan xalqı qarşısında ən böyük xidməti ondan ibarət olmuşdur ki, o, keçmiş sovetlər birliyinin mövcudluğu şəraitində belə Azərbaycan Respublikasının gələcək müstəqilliyinin iqtisadi əsaslarını yaratmış və xalqımızı öz müstəqilliyi uğrunda mübarizəyə hazırlamışdır. O, sonradan müstəqil dövlətçiliyimiz üçün təhlükə yarandığı illərdə isə özünün, ailəsinin həyatını təhlükə qarşısında qoyaraq, cinayətkar qüvvələrin hərəkətlərinin qarşısını almaqla ölkəmizdə uzunömürlü, dayanıqlı sabitlik və əmin-amanlıq şəraitini formalaşdırmış, müstəqil Azərbaycanın dünyada sayılıb-seçilən, qüdrətli bir dövlətə çevrilməsini şərtləndirən misli görünməmiş yenidənqurma və quruculuq işlərini həyata keçirmişdir. Dünya səviyyəli siyasətçi və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixində nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hər zaman bir çox sahələrdə çalışan elm adamlarının, eləcə də, politoloqların, filosofların, tarixçilərin və müxtəlif profilli tədqiqatçıların daim diqqət mərkəzində olmuş, bundan sonra da olacaqdır. Ulu Öndər milli dövlətçilik mübarizəsindəki misilsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmış böyük şəxsiyyətdir. Böyük liderimiz Heydər Əliyev çıxışlarının birində deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub". Müstəqil dövlətçilik salnaməmizdə xüsusilə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Ulu Öndər Heydər Əliyev bu gün dünyada Azərbaycan dövlətinin rəmzi kimi qəbul edilir. Hər kəs yaxşı bilir ki, böyük Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası müstəqil Azərbaycanın uğurlu inkişafının təməlində dayanan əsas amildir.

Xoşbəxt o xalqdır ki, vətənə sonsuz sevgisi, xalqa dərin ehtiramı, dövlətə tükənməz sədaqəti ilə nümunə olan, əqli, iti zəkası, dühası və fitri istedadı ilə dünyada şöhrət qazanmış, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi naminə mübarizəyə həsr etmiş tarixi şəxsiyyətləri var. Ümummilli Lider Heydər Əliyev məhz belə şəxsiyyət kimi Azərbaycana həm sevimli övlad, həm də dahi rəhbər olmuşdur. Ulu Öndər Heydər Əliyev fədakar və vətənpərvər fəaliyyəti ilə adını xalqımızın ictimai fikir və dövlətçilik tarixinə qızıl hərflərlə yazmış dahi şəxsiyyətdir.

SSRİ-nin süqutundan dərhal sonra mənfur erməni işğalçıları tərəfindən Azərbaycan ərazisinin xeyli hissəsinin işğal edildiyi dövrdə ölkəmizdə daxili qeyri-sabit ictimai-siyasi vəziyyət, hakimiyyət uğrunda çəkişmələr neqativ meyilləri get-gedə daha da gücləndirirdi. Müstəqil dövlət kimi ilk addımlarını atmaqda olan Azərbaycan tamamilə yox olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. O zaman Ümummilli Lider Heydər Əliyev Moskvadan Bakıya qayıtmış, lakin respublika rəhbərliyinin qısqanclığı ucbatından doğulub, boya-başa çatdığı Naxçıvana üz tutmuş, blokada şəraitində yaşayan muxtar respublikanı məharətlə idarə edib, erməni işğalından qorumağa nail olmuşdu. Ulu Öndərin son dərəcə ağır, böhranlı günlərdə xalqın təkidli tələbilə yenidən Azərbaycan Respublikası rəhbərliyinə qayıtması ölkəmizdə milli dövlətçiliyin möhkəmləndirilməsinə, ictimai-siyasi, iqtisadi vəziyyətin sabitləşməsinə, suverenliyimizin bərpasına, yeni, müstəqil dövlətin bütün sahələrinin, eləcə də iqtisadi əsaslarının yaradılmasına xidmət edən təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdı. Xilaskar liderin təcrübəsi və rəhbərliyi ilə müstəqil Azərbaycanın dövlət quruculuğunun möhkəm əsasları yaradıldı, müstəqilliyimizin əbədi olması üçün fundamental zəmin hazırlanmışdı.

Dahi liderin 1993-cü ilin iyununda, son dərəcə ağır və taleyüklü bir zamanda Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından, tarixi xilaskarlıq missiyasına başlamasından sonra ölkəmizdə vətəndaş qarşıdurmasına, separatçı meyillərə, xaosa, anarxiyaya, hərc-mərcliyə son qoyuldu. Böhranlı aylarda, illərdə Ulu Öndər Heydər Əliyev Azərbaycanı öz müstəqilliyini yenidən itirmək təhlükəsindən birdəfəlik xilas etdi. Böyük lider Heydər Əliyevin həyatı bahasına davamlı qələbələr gətirəcək yeni tarix - Azərbaycanın müstəqil dövlətçilik tarixi başlandı. O, demişdi: "Mən həyatımın bundan sonra qalan hissəsini də öz xalqıma, vətənimə, müstəqil Azərbaycana xidmətə həsr edəcəyəm". Əvvəlki illərdən daha çox əzmlə çalışan böyük lider həyatının ən böyük uğurlarına imza atmağı da bacardı. Böyük məharətlə ölkəmizi vətəndaş müharibəsindən xilas edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi, dönməz və sarsılmaz etdi. Qarabağın işğaldan azad olunmasını görə bilməsə də, o böyük inamla bu azadlığa aparan yolun əsasını, təməlini qoydu. Ölkədə bütün sahələrdə, sözün əsl mənasında, yenidən quruculuq işləri başlandı. Təcrübəli dövlət xadimi kimi Heydər Əliyev qəti şəkildə əmin idi ki, ağır vəziyyətdə olan respublikanın iqtisadiyyatını dirçəltmək, ölkənin dünya inteqrasiyasında iştirakını canlandırmaq üçün ən gəlirli sahə məhz neft sektoru ola bilər. Beləliklə, 1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi" imzalandı. Respublikamıza dünyanın inkişaf etmiş ölkələrindən güclü investisiya axını başlandı. Azərbaycan iqtisadiyyatı, ilk növbədə, onun neft sektoru beynəlxalq biznes həyatına qovuşdu. Neft strategiyası həm də müstəqil respublikamızda demokratiyanın inkişafı, ictimai-siyasi sabitliyin təmin edilməsi, milli dövlət quruculuğunun möhkəmləndirilməsi, onun dünya iqtisadiyyatına bağlanması üçün möhkəm baza yaratdı. Artıq 1996-cı ildə iqtisadiyyatda tənəzzül meyillərinin qarşısı alındı. Bütün bunlar yaranmış xaosa, ümidsizliyə sarsıdıcı zərbə, dinamik iqtisadi həyata, onun dirçəlməsinə aparan qələbə idi. 1998-ci ilin sentyabrında Bakıda Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə qədim İpək yolunun bərpasına dair beynəlxalq sammit keçirildi. Böyük rəhbər Heydər Əliyev tam əmin idi ki, ölkəmizin İpək yolu nəqliyyat dəhlizində aktiv iştirakı müstəqilliyimizin möhkəmlənməsi və nəqliyyat kompleksinin yenidən qurulması Azərbaycanın mühüm beynəlxalq dəhlizə çevrilməsi üçün müstəsna əhəmiyyət kəsb edəcək.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri son dərəcə böyük, çoxşaxəli və misilsizdir. Heydər Əliyev təkcə bir tarixi şəxsiyyət, yaxud böyük dövlət xadimi deyil, eyni zamanda müstəqil Azərbaycan dövlətinin banisi, memarı və qurucusudur. Məhz Heydər Əliyevin siyasi dühası, sarsılmaz iradəsi, tükənməz enerjisi, təcrübəsi, xarizması və sair bu kimi əsl dövlət xadiminə xas keyfiyyətləri, yorulmaz fəaliyyəti, xalqına və vətəninə olan sonsuz sevgisi sayəsində müstəqil Azərbaycan dövləti yenidən qurulmuş, inkişaf etmiş və əbədi yaşaması üçün bütün sahələr üzrə möhkəm təməllər qoyulmuşdur. Dövlətimiz və xalqımız qarşısındakı müstəsna xidmətləri dünyaşöhrətli siyasətçi böyük Heydər Əliyevə əbədi xalq məhəbbəti və dünya azərbaycanlılarının Ümummilli Lideri adını qazandırmışdır. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın memarı və böyük dövlət xadimi kimi ən mühüm missiyanı gerçəkləşdirərək, yeni tariximizi öz əlləri ilə yazmışdır. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və şanlı səhifələrindəndir. Heydər Əliyev özünün həyatı və şərəfli fəaliyyəti dövründə xalqına arxalandığı kimi, xalq da öz taleyini ona etibar etmiş, böyük öndərinə arxalanmışdır. Bu inamın, etibarın nəticəsidir ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra da ən ağır günlərində xalqımızın gözü yalnız onu axtarmış, ona pənah aparmışdır. Böhranlı, ağır zamanda, vətənimizə təcavüz edildiyi vaxtda xalqının səsinə dərhal səs vermiş, ölkəni, onun müstəqilliyini qorumuş, Azərbaycanı stabil və inkişaf edən dövlətə çevirmişdir. Hər zaman doğma xalqına arxalanan Heydər Əliyev deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Göründüyü kimi, müasir Azərbaycan dövlətinin banisi, zəmanəmizin böyük siyasət və dövlət xadimi, dünyaca nüfuzlu söz sahibi, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın tarixində və taleyində ölçüyəgəlməz xidmətləri olmuşdur. Onun ən böyük xidmətlərindən biri də özündən sonra xalqımıza ləyaqətlə rəhbərlik edəcək, Azərbaycanı ona etibar edəcək bir şəxsiyyət, Prezident cənab İlham Əliyev kimi müdrik və vətənpərvər lider yetişdirməsi olmuşdur.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qısa zaman kəsiyində qazanılan tarixi nailiyyətlər bu gün müstəqil dövlətimizi Prezident İlham Əliyevin rəhbərliyində zəfərlə, inamla gələcəyə - daha böyük qələbələrə doğru aparır, yüksəldir. Azərbaycanın güclənməsini, beynəlxalq arenada qazandığı yüksək nüfuzunu qiymətləndirərkən böyük Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətləri hər birimizin gözü önündə canlanır. Bütün bunlar həm də onu göstərir ki, ölkəmizin strateji inkişaf kursunu yeni dövrün tələblərinə uyğun şəkildə, yüksək dinamizmlə həyata keçirən Prezident cənab İlham Əliyev uğurlu fəaliyyətini və xalqımız qarşısında verdiyi vədləri daim əməli işi ilə doğruldur, Ulu Öndər Heydər Əliyevin ən layiqli varisi, siyasi davamçısı olduğunu sübuta yetirir. Seçkilərdə həmişə xalqın yüksək inamını və etimadını qazanaraq güclü siyasi iradə, əzm və cəsarət nümayiş etdirən Prezident İlham Əliyev müstəqil Azərbaycanı Ulu Öndər Heydər Əliyev siyasi kursuna layiq, ona sadiq olaraq daha yeni, dövrün və qloballaşmanın tələblərinə uyğun, müasir inkişaf yoluna çıxarmışdır. Dayanıqlı və dinamik iqtisadi göstəriciləri ilə yanaşı, bu gün respublikamız həm də siyasi baxımdan daha əlverişli strateji ölkə, o cümlədən Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin əsas iştirakçısı kimi tanınır. Bakı-Tbilisi-Ceyhan neft kəmərindən başlamış Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsinə qədər, Azərbaycanın beynəlxalq nüfuzunun artmasından tutmuş doğma Qarabağımızda möhtəşəm zəfərimizin təmin edilməsinə qədər bütün uğurlarımızın təminatçısı məhz Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevdir. Bu gün Azərbaycan çox sürətlə inkişaf edir və təsadüfi deyil ki, ölkəmiz XXI əsrin ən uğurlu siyasətə və güclü iqtisadiyyata malik müstəqil dövləti statusunu qazanmışdır. Həyata keçirilən bütün bu misilsiz, tarixi işlərlə yanaşı, Prezident cənab İlham Əliyevin qarşısında uzun illərdir ki, müqəddəs bir vəzifə - ata vəsiyyətinin həyata keçirilməsi - Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi məsələsi dururdu. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda özünün rəhbərliyi ilə həyata keçirilən bütün işlərin, siyasətin, atılan hər addımın son qayəsi məhz doğma Qarabağın işğaldan azad edilməsi idi. Müstəqil Azərbaycan Ulu Öndərin yaratdığı möhkəm təməllərin üzərində Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən başlayaraq düşmən tapdağında inləyən doğma torpaqlarımızın azad edilməsi, Qarabağımızın can Azərbaycana qovuşması istiqamətində addım-addım, inamla və qətiyyətlə irəliləyirdi. Bütün çıxışlarında "Azərbaycanın ərazi bütövlüyü heç zaman danışıqlar mövzusu olmayıb və olmayacaq" deyən Prezident İlham Əliyev işğalçı Ermənistanın hərbi-siyasi rəhbərliyinin ritorikanı dəyişməyə çalışdığı anda "Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək "dəmir yumruğ"un endiriləcəyi anonsunu vermişdi. Müzəffər Ali Baş Komandan bütün dünyada maraqla izlənilən bu bəyanatı ilə Azərbaycanın ərazi bütövlüyü məsələsində bir daha güzəştə gedilməyəcəyini və uzun sürən sülh danışıqlarının nəticəsiz qalmasından sonra hərbi yolun yeganə seçim olduğunu, əslində, açıq şəkildə bəyan etdi.

Ölkəmizin uğurlarından danışarkən İkinci Qarabağ müharibəsindən, bu müharibədə qazandığımız möhtəşəm qələbədən, Ümummilli Lider Heydər Əliyevin zamanında əsasını qoyduğu ordu quruculuğu siyasətinin Vətən müharibəsindəki əhəmiyyətindən də bəhs etmək zərurəti yaranır. Hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan Silahlı Qüvvələrinin qüdrətlənməsini hər zaman diqqət mərkəzində saxlayan Ulu Öndərin rəhbərliyi ilə bu sahədə də müstəsna əhəmiyyətli işlər görülmüşdür. Təməli dahi lider Heydər Əliyev tərəfindən qoyulmuş milli ordu quruculuğu prosesi dövlət başçısı cənab İlham Əliyev tərəfindən ötən 20 ildə də uğurla davam etdirilmiş, müqayisəsiz nailiyyətlər əldə edilmişdir. Bu sahədə həyata keçirilən köklü islahatların və kompleks tədbirlərin nəticəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası daha da möhkəmləndirilmiş, ordumuzun arsenalı ən müasir silah-sursat və hərbi texnika ilə təmin olunmuş, hərbi qulluqçuların nəzəri və peşə bilikləri, mənəvi-psixoloji hazırlığı daha da artırılmışdır. Bununla da Azərbaycan Silahlı Qüvvələri döyüş tapşırıqlarının tam və vaxtında yerinə yetirilməsi işinə yiyələnmiş, ordumuz ildən-ilə güclənmişdir. Bütün bunların nəticəsində 27 sentyabr 2020-ci il tarixdən başlayaraq düşmənin törətdiyi növbəti təxribatların qarşısının alınması ilə əlaqədar Silahlı Qüvvələrimizin həyata keçirdiyi qarşısıalınmaz əks-hücum əməliyyatları zamanı müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu öz gücünü, qüdrətini və yüksək döyüş hazırlığını, ölümün gözünə dik baxan vətən oğullarımız-hərbçilərimiz isə peşəkarlığını və qəhrəmanlığını əyani şəkildə sübut etməklə, xalqımıza layiq olduğu haqqını - qələbəni qazandırdı. Bununla həm ərazi bütövlüyümüz təmin edildi, suverenliyimiz bərpa olundu, həm də "Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik" deyən Ümummilli Lider Heydər Əliyevin arzuları reallaşdı. Qarabağın gözü, dilbər guşəsi olan Şuşanın 28 il 6 aydan sonra işğaldan azad olunduğu gün - noyabrın 8-də Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında ziyarətdə olarkən cənab Prezidentin Ulu Öndər Heydər Əliyevin həyata keçən daha bir arzusunu xüsusi həyəcanla, sevinclə Azərbaycan xalqına çatdırması, doğrudan da, tarixi qürur günümüz idi. Şəhidlər xiyabanında tarixi nitqi zamanı ölkə Prezidenti cənab İlham Əliyev dedi: "Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Müstəqil Azərbaycanın inkişafı və tərəqqisi naminə Ümummilli Lider Heydər Əliyevin başlatdığı uğurlu siyasətin davam etdirilməsində möhtərəm Prezident İlham Əliyevlə yanaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının sədrinin birinci müavini, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətlərini xüsusi qeyd etmək lazımdır. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin irsinin layiqli qorunması və təbliğidir. Məhz xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu bu gün Ulu Öndərin vətənimizin və xalqımızın qarşısındakı tarixi xidmətlərinin təbliğinə, dövlətimizin inkişafı naminə onun gördüyü işlərin, işıqlı ideyalarının Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə davam etdirilməsinə böyük töhfələr verir. Böyük Heydər Əliyevin adını daşıyan bu fondun qarşıya qoyduğu məqsədlərə, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş özünəməxsus layihələri, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplərə yönəlik fəaliyyəti səmimiyyətlə və rəğbətlə qarşılanmaqdadır. Əldə etdiyimiz zəfərədək illərdir ağır, müharibə şəraitində yaşamağa məcbur edilmiş bir milyona yaxın qaçqın və məcburi köçkünü olan, on minlərlə şəhid, qazi və müharibə veteranı olan Azərbaycanda Prezident cənab İlham Əliyevin ən yaxın silahdaşı kimi onun daxili və xarici siyasətinin yaxından dəstəklənməsində, ölkəmizdə hərtərəfli islahatların uğurla həyata keçirilməsində hörmətli Mehriban xanım Əliyevanın böyük əməyi, əziyyəti var. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi fəaliyyətə başladığı ilk gündən özünün yüksək peşəkarlığı, vətənə, xalqa bağlılığı, zəngin siyasi təcrübəsi, böyük humanizmi, mərhəməti və hadisələrə, proseslərə dəqiq, miqyaslı baxışı ilə xanım Mehriban Əliyeva müstəqillik tariximizdə Azərbaycanın sevilən əsl lider qadın obrazını yaratmış, bununla o, tariximizdə yeni bir səhifə açmış, ictimai və siyasi həyatda qadınların mövqeyini və rolunu daha da yüksəltmişdir.

Ölkəmizin dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikası bugünkü həyatı və inkişafına görə məhz Ulu Öndər Heydər Əliyevə borcludur. Bildiyimiz kimi, 1990-1993-cü illərdə Naxçıvan olduqca gərgin bir dövr yaşayırdı. Bu diyar Ulu Öndərin də dediyi kimi, "taleyin ümidinə buraxılmış tənha ada"nı xatırladırdı. Ümummilli Lider Heydər Əliyevin böyük və mənalı ömrünün bu illəri Naxçıvanda müstəqil dövlətçiliyimizin təməl daşlarının qoyulmasına həsr edilmişdir. 1990-cı ilin noyabr ayında görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında qəbul olunmuş tarixi qərarlarla, əslində, müstəqil Azərbaycan dövlətinin bəyan edilməsinin əsası qoyulmuşdur. Hələ sovetlər birliyinin mövcud olduğu bir dövrdə müstəqil Azərbaycanın üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması böyük cəsarət tələb edirdi. Bütün bunlar 1991-ci ildə Azərbaycanın müstəqillik elan etməsinə əlverişli zəmin yaratmışdır. Bu tarixi hadisə nəinki Azərbaycanın, eləcə də sovetlər birliyinin digər müttəfiq respublikalarının da müstəqillik qazanmasına yol açmış, böyük vəsilə olmuşdur. Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə böyük lider Heydər Əliyev gördüyü işlərlə, atdığı tarixi əhəmiyyətli addımlarla bu diyarın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmişdi. Naxçıvanda sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və tərəqqinin əldə olunması üçün əhəmiyyətli tədbirlər görüldü, eyni zamanda aqrar islahatlar reallaşdırıldı, infrastrukturun inkişafı yönündə xüsusi işlər həyata keçirildi. Digər tərəfdən blokadada olan muxtar respublikanın inkişafı və sabitliyi üçün regional və beynəlxalq iqtisadi əlaqələrin formalaşdırılması, eləcə də inkişafı yönündə mühüm addımlar atıldı. Xüsusilə də qardaş Türkiyə Cümhuriyyəti ilə qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan rəsmi təmaslar quruldu. Siyasi fəaliyyətinin Naxçıvan dövründə Ümummilli Lider Heydər Əliyev gördüyü işlərlə, atdığı tarixi əhəmiyyətli addımlarla Azərbaycanın xilaskar oğluna çevrildi və onun uca şəxsiyyəti təkcə dünənimizin və bu günümüzün deyil, həm də gələcəyimizin zəmanətinə çevrildi.

Heydər Əliyev öz fitri istedadını, dərin zəkasını, bilik və bacarığını daim bütün azərbaycanlıların qəlbində yaşayan milli dövlətçilik ideyalarının gerçəkləşməsinə yönəltmiş, öz dövlətini və xalqını zamanın çətin sınaqlarından uğurla çıxarmış və dinamik inkişafını təmin etmiş böyük azərbaycanlı olub. Vətənə məhəbbət, Azərbaycan xalqına və dövlətinə bağlılıq onu bütün həyatı boyu fərqləndirib. Fəaliyyət göstərdiyi bütün dövrlərdə böyük Heydər Əliyev daim öz doğma Azərbaycanına ləyaqətlə xidmət edib, ölkəmizi güclü elmi-texniki potensiala malik, dinamik inkişaf edən sənaye dövlətinə çevirib, onun sosial-iqtisadi və mədəni tərəqqisini təmin edib, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması, milli kadrların formalaşdırılması, sağlam və intellektual gənc nəslin yetişdirilməsi istiqamətində misilsiz nailiyyətlər qazanıb. Heydər Əliyev öz qlobal düşüncə tərzi və bəşəri fəaliyyəti, müdrik və uzaqgörən siyasəti, unikal liderlik keyfiyyətləri, güclü milli iradəsi, xüsusi idarəçilik istedadı və rəhbərlik bacarığı ilə dünya tarixinə qızıl hərflərlə yazılmış görkəmli siyasi və dövlət xadimi, tarixi şəxsiyyətdir. Qeyd etdiyimiz kimi, bu gün xalqımız dünyanın ən xoşbəxt xalqlarından biridir. Azərbaycanın müstəqilliyi isə Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "əbədidir, dönməzdir və sarsılmazdır!" Əminliklə demək olar ki, Prezident cənab İlham Əliyevin rəhbərliyində əldə etdiyimiz qələbələr və Heydər Əliyev dövründə Azərbaycanın qazandığı tarixi nailiyyətlər qədirbilən xalqımızı bu gün olduğu kimi, gələcəkdə də daha xoşbəxt günlərə qovuşduracaq! Nə qədər ki, müstəqil Azərbaycan dövləti və xalqı var, Ulu Öndər Heydər Əliyev də var olacaq və yaşayacaq.

Bu il həm də Ümummilli Lider Heydər Əliyevin ömür-gün yoldaşı, böyük oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümüdür. Bu münasibətlə xalqımızın yaddaşında mehriban və qayğıkeş ana, şəfqətli həkim, səmimi və sədaqətli Azərbaycan qadını kimi daim yaşayacaq Zərifə xanım Əliyevanın ruhu qarşısında baş əyir, onu dərin hörmət və ehtiramla yad edirik.

***Bəxtiyar ƏSGƏROV,***
***Naxçıvan Muxtar Respublikasının Daimi nümayəndəliyinin rəhbəri***



# Heydər Əliyev İli 2023

Ulu Öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə təhsilə xüsusi diqqət ayırmışdır. Onun 13 iyun 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin yaradılmasının 70 illiyinə həsr edilmiş toplantıdakı çıxışı isə universitetimizin gələcək inkişaf strategiyası idi.



# Heydər Əliyev və müasir universitet modeli

Ulu Öndər deyirdi: "İctimai elmlər çox dəyişir və dəyişməlidir, mütləq dəyişməlidir. Bunlar hamısı indi bizim müstəqilliyimizin inkişafına xidmət etməlidir. Bizim milli müstəqilliyimizi əks etdirməlidir. Elmdə, təhsildə, kadrların hazırlanmasında bu dəyişikliklər gərək yeni Azərbaycanın yaranmasına xidmət etsin. O cümlədən də iqtisad elmi.

Dünya təcrübəsini siz - bizim mutəxəssislər, alimlər, bu sahənin müvafiq işçiləri toplamalısız. Nəzəriyyəni - yeni nəzəriyyə icad etməyə ehtiyac yoxdur - ümumiləşdirmək, bizim iqtisadiyyatımıza uyğunlaşdırmaq sizin vəzifənizdir.

İndi yeni-yeni əsərlər yazın və ən əsası, bizim gəncləri, gənc nəsli müasir bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq, müasir dünya maliyyə sisteminin tələblərinə uyğun olaraq təhsilləndirin.

Rektor dedi ki, burada 14 min tələbə təhsil alır. Böyük rəqəmdir. Əgər keçmişdə tarix fakültəsi, filologiya fakültəsi, o biriləri daha hörmətli idilərsə, indi ən hörmətli ixtisas iqtisadçıdır. Çünki bünövrə iqtisadiyyatdır.

İqtisadiyyatı irəliyə aparmaq üçün, dünyanın mürəkkəb maliyyə sisteminə, iqtisadi sisteminə qoşulmaq üçün bizə müasir, hazırlıqlı, xarici dilləri bilən, dünya təcrübəsini mənimsəmiş gənclər lazımdır. Bu isə sizin qarşınızda duran əsas vəzifədir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifəni şərəflə yerinə yetirəcəksiniz".

## Rəqəmsal universitet modeli

Bu tövsiyələr nəzərə alınaraq UNEC-in fəaliyyətinin əsas istiqamətlərindən birini tədrisin və onun idarə edilməsi prosesinin daha səmərəli təşkilini təmin etmək üçün "Elektron Universitet" modelinin tətbiqi təşkil edir. Bu məqsədlə 2015-ci ildən başlayaraq mərhələli şəkildə müasir texnologiyaların və elektron idarəetmə həllərinin tətbiqinin əhatə dairəsinin genişləndirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Eyni zamanda UNEC-100 inkişaf strategiyasında rəqəmsallaşma sahəsi prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir.

UNEC-də "Elektron Universitet" modelinin yaradılması istiqamətində tədrisin bütün prosesləri və parametrləri üzrə məlumat bazasını əhatə edən "EDUMAN" platformasının tətbiqi, habelə "DocNet" elektron sənəd dövriyyəsi proqram təminatı uğurla icra olunmuş, test imtahanlarının təşkili modulu, qəbul prosesinin şəffaflığını və sənədlərin elektron qaydada qəbulunun avtomatlaşdırılmasını təmin edən "Əlavə təhsil elektron idarəetmə modulu", "İkinci ali təhsil elektron idarəetmə modulu", "Əcnəbilərin qəbulunun elektron idarəetmə modulu", "Bakalavriat səviyyəsi üzrə online sənədə qəbulu modulu", universitetin professor-müəllim heyətinin fəaliyyətinin nəticələrinə əsaslanan "Diferensial əməkhaqqı sistemi"nin tətbiqi ilə əlaqədar müəllimlərin reytinqinin müəyyən edilməsi üçün proqram təminatı tam istismara verilmiş, tələbə heyətinin hərəkətləri, elektron apellyasiya, ÜOMG-nin hesablanması və elektron təqaüd, yay məktəbi, eləcə də imtahanlarla bağlı əlavə hesabatların yaradılması, sistemdən transkriptlərin əldə edilməsi, elektron imtahan sistemindən sualların tələbələrin şəxsi kabinetlərinə göndərilməsi, dərs vəsaitlərinin müəllimin şəxsi kabinetindən tələbələr tərəfindən oxuna bilməsi imkanı, sərbəst işlərin kabinetlər vasitəsilə təqdim edilməsi və elektron jurnalda qiymətləndirilməsi, yazılı imtahan olunan mərkəzlərdə kollokvium və imtahan ballarının sistemə əlavə edilməsi, elektron jurnalın tələbələrin şəxsi kabinetində və dekanlıq tərəfindən baxılması imkanı kimi sistemə yeni funksional modullar əlavə edilmişdir.

Bundan başqa, tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu, distant təhsilin həyata keçirilə bilməsi üçün zəruri infrastruktura malik UNEC Extern Tədris Mərkəzi yaradılmışdır. UNEC Extern Mərkəzində hər birisində eyni zamanda 1000 dinləyiciyə təhsil vermək imkanı olan ən müasir standartlara uyğun audio, video və digər innovativ kommunikasiya avadanlıqları ilə təchiz olunmuş 6 studiya yaradılmışdır. Mərkəz gün ərzində 20 minə yaxın dinləyiciyə təhsil vermək imkanına malikdir. "COVID-19" pandemiyası ilə əlaqədar UNEC-də həmin mərkəzin texniki imkanları vasitəsilə tədris prosesi problemsiz davam etdirilmişdir. UNEC-də başlanılan distant dərslər tədris ilinin əvvəlində təsdiqlənmiş tədris planına uyğun olaraq aparılmış, imtahan sessiyası da distant formada həyata keçirilmişdir.

Qeyd olunanlarla yanaşı, təhsilalanlarla işin daha da təkmilləşdirilməsi, onların müraciətlərinə operativ baxılması məqsədilə 2019-cu ildə bu sahədə "bir pəncərə" prinsipinə əsaslanan xidmət qurulmuş, bununla əlaqədar qeyd olunan sistemin funksionallığının elektron həlləri yaradılmışdır. Bu həllərə tələbə kabinetindən göndərilən elektron müraciətlərin vaxtında cavablandırılması, tələbələrə lazım olan arayışların operativ hazırlanıb təqdim edilməsi və s. daxildir.

Bununla yanaşı, 2020-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetinə, UNEC-in Zaqatala filialına, UNEC-in nəzdində Azərbaycan Maliyyə-İqtisad, Sosial-İqtisadi və Qida Sənayesi kolleclərinə Dövlət İmtahan Mərkəzi yolu ilə qəbul olanların onlayn qeydiyyatı və UNEC-in Dərbənd filialına qəbul olanların onlayn qeydiyyatı sistemi yaradılmış, qeydiyyatdan keçən tələbələr üzrə məlumatların EDUMAN-a inteqrasiyası təmin edilmişdir. Bundan əlavə, 2020-ci ildə UNEC-in şəbəkəsinin, eləcə də serverlərinin təhlükəsizliyini qorumaq üçün təhlükəsizlik avadanlıqları, UPS-lər, lisenziyalar və proqram təminatları alınıb quraşdırılmışdır.

2021-ci ilin sentyabr ayından etibarən tələbə və əməkdaşların universitetin tədris binalarına girişi müvafiq tələblərə uyğun hazırlanmış Biometrik davamiyyət sistemi ilə, onların smart kartlarını qeydiyyatdan keçirməklə girişlərdə yeni quraşdırılmış turniket və temperatur ölçən avadanlıqlar vasitəsilə təşkil edilmişdir. Həmin turniketlər smart kart vasitəsilə peyvənd sertifikatının olub-olmaması və termal kamera sistemi ilə işləyən təmassız termometr vasitəsilə hərarətin müəyyən edilərək buraxılışa icazə verilməsi mexanizmi əsasında işləyir.

Azərbaycan Respublikasının Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"nın icrası və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"na əsasən, 2022-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Eduman" tədrisin idarəetmə sisteminin DATA bazası və "DocNet" elektron sənəd dövriyyəsi sisteminin arxivi "Hökumət buludu"na köçürülmüşdür. Bununla əlaqədar, bazanın mütəmadi olaraq buludda "backup" olunması üçün cloud sistemlərinə nəzarət xidmətinin (Veb server, ESD və s.) həyata keçirilməsinə zərurət yaranmışdır.

Növbəti tədris illərində də tədris prosesində innovativ yanaşmalardan istifadə edilməklə tədrisin təşkili UNEC üçün daim prioritet istiqamətlərdən olmuşdur. Pandemiya dövründə 100 hibrid auditoriyadan istifadə edilməklə tədrisin fasiləsizliyi təmin edilmiş, tədrisin təşkilində müasir yanaşmalardan olan "Flipped Education" yanaşması ilə pilot layihə tətbiq edilərək tələbələrin tədris prosesində daha aktiv iştirakının təmin edilməsi istiqamətində işlər görülmüşdür.

Əməkdaş, müəllim və tələbələr arasında kommunikasiyanın inkişafının təmin olunması məqsədilə "Kommunikasiya" modulu istifadəyə verilmişdir. Bu modul çərçivəsində UNEC-in əməkdaş, müəllim və tələbələri arasında məsləhət-müzakirənin onlayn qaydada şəxsi kabinetləri vasitəsilə aparılması üçün xüsusi imkan yaradılmışdır. Əməkdaş-tələbə, tələbə-tələbə, fənn üzrə qrup-müəllim, inzibati heyət-müəllim və digər bu kimi şəxslər tərəfindən qruplar formalaşdırılaraq çat vasitəsilə müzakirə və onlayn görüş üçün imkan yaradılmışdır.

ZOOM platformasının EDUMAN sistemi ilə inteqrasiyası təmin edilmiş, müəllim və tələbə kabinetlərinin, imtahan və eləcə də dərs cədvəli, elektron jurnal və digər modulların platforma ilə inteqrasiyası təmin edilmişdir.

Yazılı imtahanların bütün proseslərinin elektron qaydada həyata keçirilməsinə şərait yaradan "Yazılı imtahan modulu" test mərhələsindədir və növbəti tədris ilindən istifadəyə veriləcəkdir.

Fərdi tədris planlarının tələbələr tərəfindən qeydiyyatının avtomatlaşdırılması məqsədilə fərdi tədris planı (FTP), tədris yükü və yay semestri üzrə işlərin başlanması üçün texniki tapşırıq yazılmışdır.

Bu tədris ilinin sonuna inzibati heyətin diferensial əməkhaqqı sisteminin elektron olaraq həyata keçirilməsi üçün proqram təminatı hazırlanır. Qeyri-akademik transkript modulunun istifadəyə verilməsi isə növbəti ilin məzunları üçün nəzərdə tutulur.

## Universitetin beynəlxalq əməkdaşlığı

2022-ci ildə UNEC ilk dəfə Avropa Komissiyasının Erasmus+ KA2 (Ali təhsildə bacarıqların artırılması) - REFRESH və Jean Monnet modul qrant çağırışları - DIGISHIP üzrə iki layihədə qalib gəlmişdir.

Erasmus+ KA2 çərçivəsində qalib olmuş REFRESH Azərbaycan universitetlərində "Yaşıl və Dayanıqlı Qlobal İqtisadiyyatın Təkmilləşdirilməsi: Bərpa Olunan Enerji və İqlim Dəyişikliklərinin Azaldılması" layihəsinin məqsədi ali təhsil müəssisələrində yaşıl və dayanıqlı tədris metodologiyalarını, kurs proqramlarını təkmilləşdirmək; layihənin tərəfdaş ali təhsil müəssisələrində pilot kurslara başlamaq üçün "Təlimçilərin Təlim"i proqramına müəllim heyətini cəlb etməklə universitetlərin potensialını artırmaqdır. Bu layihənin 4 xarici, 6 yerli ali təhsil müəssisəsi, 5 yerli qurumdan ibarət konsorsiumu mövcuddur. Xarici tərəfdaşlar arasında Boloniya Universiteti, Barselona Universiteti, Danimarka Texnologiya Universiteti, İsveç Royal Texniki İnstitutu fəaliyyət göstərir. Yerli tərəfdaşlar arasnda Mingəçevir Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti və Azərbaycan Texnologiya Universiteti yer alır.

UNEC-in qalib olduğu Jean Monnet Module "Daha yaxşı Dayanıqlı Avropa üçün Rəqəmsal Sahibkarlıq Strategiyaları" - DIGISHIP layihəsi Avropa İttifaqının qabaqcıl təcrübələrini mənimsəməklə UNEC-də Rəqəmsal sahibkarlıq kursunun praktikliyini artırmaq məqsədi daşıyır. Bu layihənin məqsədini təmin etmək üçün "Dayanıqlı sahibkarlıq üçün Aİ-nin biznes siyasətləri" və "Rəqəmsal sahibkarlıq və innovasiya" mövzusunda kurslar hazırlanmışdır. Kursun ümumi məqsədi tələbələrə rəqəmsallaşma və sahibkarlıq üzrə Avropa İttifaqının strategiyaları, siyasi alətləri və perspektivləri haqqında ümumiləşdirilmiş fikir təqdim etməkdir. Həmçinin müəssisə, strategiya və maliyyə baxımından Avropa İttifaqının gələcəyə baxışını anlamaq üçün onların bacarıqlarını artırmaqdır.

## Beynəlxalq ikili diplom proqramları

Beynəlxalq ikili diplom proqramları ali təhsil pilləsində tələbələrə təhsil dövrü ərzində iki fərqli universitetin diplomunu əldə etməyə imkan verən xüsusi bir təşəbbüsdür. İkili diplom proqramları hər iki universitet tərəfindən birgə müəyyən olunmuş ixtisaslar daxilində əyani təhsil alan tələbələrə təklif olunmaqdadır. UNEC də bu sahədə tələbələrinə öz diplomu ilə yanaşı, dünyanın müxtəlif nüfuzlu universitetlərinin diplomlarını da əldə etmək fürsəti verir. UNEC-də həm bakalavriatura, həm də magistratura təhsil səviyyəsi üzrə beynəlxalq ikili diplom proqramları mövcuddur. UNEC 7 universitetlə 9 ikili diplom müqaviləsi imzalamış və tələbələrinin bu imkanlardan geniş istifadə etməsinə şərait yaratmışdır. Bakalavriatura təhsil səviyyəsi üzrə UNEC Fransanın Montpellier Universiteti və ICD Biznes Məktəbi, Rusiya Federasiyasının Moskva Dövlət Humanitar-Texniki Universiteti ilə, magistratura təhsil səviyyəsi üzrə isə Fransanın Montpellier Universiteti, ABŞ-nin Linkoln Universiteti və Litva Respublikasının Mykolas Romeris Universiteti ilə beynəlxalq ikili diplom proqramının həyata keçirilməsində əməkdaşlıq edir.

Türkiyə Respublikasının Ege Universiteti ilə bakalavriatura təhsil səviyyəsi üzrə "Qida mühəndisliyi" ixtisası üzrə proqrama qəbul növbəti tədris ilindən etibarən həyata keçiriləcək.

Bundan əlavə, UNEC Yunanıstanın Qərbi Makedoniya Universiteti ilə magistratura təhsil səviyyəsi üzrə birgə diplom proqramını da uğurla həyata keçirir. Qərbi Makedoniya Universitetinin müəllimləri ilə yanaşı, UNEC müəllimləri də ildə iki dəfə Yunanıstana ezam olunaraq, proqramda iştirak edən əcnəbi tələbələrin tədris prosesində iştirak edirlər.

## Beynəlxalq mübadilə proqramları

UNEC Avropa İttifaqının maliyyələşdirdiyi Erasmus+, Türkiyənin Ali Təhsil Şurasının (YÖK) maliyyələşdirdiyi Mevlana, Türk Dövlətləri Təşkilatı Türk Universitetlər İttifaqının (TÜRKUNİB) təşkil etdiyi Orhun və DAAD-Almaniyada təqaüd proqramının qrant layihələri çərçivəsində, eləcə də xarici universitetlərlə ikitərəfli razılıq əsasında həyata keçirilən digər mübadilə proqramlarında uğurla iştirak edir.

Hər il Erasmus+, DAAD qrant layihələri, İsveçrənin Qərbi İsveçrə Tətbiqi Elmlər və İncəsənət Universitetinin tərkib hissəsi olan HES - SO Ali İdarəetmə və İqtisadiyyat Məktəbinin və digər mübadilə proqramları çərçivəsində Avropanın müxtəlif ölkələrinin ali təhsil müəssisələri ilə, Mevlana mübadilə proqramı çərçivəsində Türkiyənin 50-dən artıq ali təhsil müəssisəsi ilə əməkdaşlıq edilir, tələbə, müəllim və inzibati heyətin mübadiləsi həyata keçirilir. TÜRKÜNİB tərəfindən təşkil olunan Orhun mübadilə proqramı çərçivəsində isə 2022/2023-cü tədris ilindən etibarən aktiv şəkildə Türk Dövlətlərinin 37 universiteti ilə əməkdaşlıq edilir, tələbə və müəllim mübadiləsi həyata keçirilir.

Bildiririk ki, Orhun mübadilə proqramı çərçivəsində xarici müəllimlər də UNEC-ə səfər edirlər. İlk dəfə bu il 5 əcnəbi müəllim proqram çərçivəsində UNEC-də olmuş, təlim-tədris prosesinə qatılmışdır. Növbəti ildə Orhun mübadilə proqramı çərçivəsində UNEC-in 5 müəlliminin birliyə üzv olan universitetlərə səfəri və həmin universitetlərdən 5 müəllimin UNEC-ə səfəri nəzərdə tutulmuşdur.

UNEC Avropa Universitetlər Assosiasiyasına (EUA), Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyinin (TÜRKÜNİB), Avrasiya Universitetlər Birliyinin (EURAS), İslam Dünyasının Universitetləri Federasiyasının (FUIW), Avrasiya Universitetlər Assosiasiyasının (EAU), Qara Dəniz Ölkələri Universitetləri Şəbəkəsinin (BSUN), Avrasiya Universitetləri Reytinq Təşkilatının (IAAR EUA) və s. üzvüdür. Bu qurumların təşkil etdiyi tədbirlərdə fəal iştirak edir.

## Əcnəbi tələbələrin cəlb edilməsi

Hazırda UNEC-də 310 nəfər əcnəbi tələbə təhsil alır. Bu tələbələr dünyanın 33 müxtəlif ölkəsindən (Rusiya Federasiyası, Türkiyə Respublikası, Gürcüstan Respublikası, Əfqanıstan Respublikası, Efiopiya FDR, Qazaxıstan Respublikası, Özbəkistan Respublikası, Bəhreyn, Liviya Respublikası, Ukrayna Respublikası, Çin Xalq Respublikası, Türkmənistan Respublikası, Nigeriya Federativ Respublikası, Niger, İran İslam Respublikası, Pakistan İslam Respublikası, Kamboca, Qırğızıstan, Tanzaniya, Antiqua və Barbuda, ABŞ, İsrail, Maldiv, Şri-Lanka və Sudan) gəlmişlər.

Həmçinin UNEC-də Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 dekabr tarixli 3457 nömrəli və 2018-ci il 10 yanvar tarixli 3567 nömrəli sərəmcamları ilə İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün təhsil təqaüdü (qrant) təsis edilmişdir və hazırda sözügedən təqaüd hesabına əcnəbi vətəndaşlar təhsil alırlar.

## Beynəlxalq reytinqlərdə iştirak

UNEC QS dünya və regional reytinqi, Times Higher Education Impact Rankings, Webometrics, U-Multirank, U-Multirank Asiya, Greenmetrics, RUR University Rankings, IAAR və SCImago kimi reytinqlərdə yer almaqdadır.

UNEC QS reytinq təşkilatının sıralamasında 2015-2021-ci illər ərzində mövqeyini yaxşılaşdıran yeganə Azərbaycan universiteti kimi "QS Dünya Universitetləri Reytinqi"ndə 2020-ci ildə 1200-cü yerdə, 2021-ci və 2022-ci illərdə isə 1001-1200-cü yerlərdə qərarlaşmışdır.

UNEC ilk dəfə olaraq, QS World, University Rankings by Subject 2023 Dünya reytinqinin nəticələrinə əsasən, İqtisadiyyat və Ekonometrika sahəsi üzrə dünyada ən yaxşı 501-530 universitetlər qrupuna daxil olmuşdur.

UNEC QS regional reytinqində 2021-ci və 2022-ci illərdə 221-230-cu yerlərdə qərarlaşmışdır.

Dünya universitetlərinin fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının 17 Dayanaqlı İnkişaf Məqsədləri (DİM) üzrə ölçən 106 ölkədən olan universitetlərin iştirak etdiyi dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan THE Impact Rankings-in nəticələrinə əsasən, UNEC 2021-ci və 2022-ci illərdə isə 801-1000-ci yerləri tutmuşdur.

4362 ali təhsil müəssisəsinin məlumatları əsasında 3 kateqoriya üzrə (tədqiqat performansı (SCOPUS data bazası), innovasiyaya çıxış və cəmiyyətə təsir) təhlillər aparan SCimago (Scimago Institutions Rankings) reytinq təşkilatının 2022-ci il üzrə açıqladığı nəticələrə əsasən, UNEC dünya universitetləri sırasında 708-ci, Azərbaycanda isə 1-ci yerdə qərarlaşmışdır. Həmçinin sahələr üzrə reytinqə görə, UNEC ölkə universitetləri arasında liderdir. 2023-cü il reytinq nəticələrinə əsasən isə UNEC dünyanın 8433 universiteti arasında "İqtisadiyyat, ekonometrika və maliyyə" sahəsi üzrə 691-ci yeri tutmuşdur. Şərqi Avropada isə 803 universitet arasında UNEC "İqtisadiyyat, ekonometrika və maliyyə" sahəsi üzrə 33-cü, "Biznes, menecment və mühasibat" sahəsi üzrə 69-cu yerdədir. UNEC cari il üzrə olan nəticələrə əsasən, Azərbaycan universitetləri arasında öz liderliyini qorumaqdadır.

"Greenmetrics" reytinq nəticələrinə əsasən, UNEC dünya universitetləri arasında 2021-ci il üzrə 876-cı pillədədir. 2022-ci ildə açıqlanmış nəticələrə əsasən, UNEC ötən illə müqayisədə 10 pillə irəliləyərək 866-cı yerə yüksəlmişdir.

UNEC 2022-ci ildə ilk dəfə U-Multirank Asiya Fənn reytinqində İqtisadiyyat sahəsi üzrə daxil olmuş və 151- 200-cü yer aralığında qərarlaşmışdır. Beləliklə, UNEC həmçinin Asiyanın 18 ən yaxşı universiteti sırasında yer almışdır.

Webometrics reytinq təşkilatının açıqladığı "Şəffaflıq Reytinqi -Google akademik istinadlarına görə ən yaxşı universitetlər" (Transparent Ranking: Top Universitiesi by Citations in Top Google Scholar profiles) reytinqinə əsasən, UNEC 2019-cu il üzrə 6011-ci, 2020-ci il üzrə 4814-cü, 2021-ci il üzrə 4231-ci yerləri tutmuşdur. UNEC Webometrics reytinqində 2022-ci il üzrə ötən illə müqayisədə 519 pillə irəliləyərək 3712-ci yerdə qərarlaşmışdır. 2023-cü ilin nəticələrinə əsasən isə 68 pillə irəliləmiş və 3644-cü yerə yüksəlmişdir.

## Universitet elmi

1975-2022-ci illərdə UNEC-in Web of Science profilində 771 elmi əsər indekslənmiş və onlara verilən ümumi istinadların sayı 2848, özünə istinadların sayı 542 təşkil etmişdir.

Həmin elmi əsərlərin 84 faizi, ümumi istinad sayının 75 faizi son 7 ilin payına düşür.

Web of Science-də çap olunmuş məqalələrin sayı 2016-cı illə müqayisədə 2022-ci ildə 14,2 dəfə, istinadların sayı isə 10,4 dəfə artmışdır.

Başqa sözlə, 2016-2022-ci illərdə Azərbaycanın bütün ali məktəbləri üzrə Web of Science-da dərc olunmuş məqalələrin 12,2 faizi UNEC-in payına düşmüşdür.

2022-ci ilədək Scopus bazasında UNEC-ə mənsub olan 712 elmi əsər indekslənmişdir ki, onların 95 faizi 2016-2022-ci illərin payına düşür. Bu elmi əsərlərə ümumi istinad göstəricisi 3211 təşkil etmişdir. Bu dövrdə elmi əsərlərin sayı 24 dəfə, o cümlədən Q1 - Q2 kvartilli jurnallarında 24,3 dəfə, istinadların sayı isı 22 dəfə artmışdır.

Yekunda qeyd etmək istərdim ki, UNEC əməkdaşlarının sosial rifah halını daha da yaxşılaşdırmaq məqsədilə əməkhaqları bir neçə dəfə artırılmışdır. Azərbaycan Dövlət İqtisad Universitetində professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan diferensial əməkhaqqı sistemi tətbiq olunur. Reytinqdə ilk yüzlüyə daxil olmuş əməkdaşlara "Tədqiqatçı" statusunun verilməsi haqqında qaydalar təsdiq edilmişdir. Qaydaya əsasən, "Tədqiqatçı" statusu almış professor-müəllim heyətinin vəzifə maaşına 50 faiz əlavə artım müəyyənləşdirilmişdir.

Görülmüş işlər nəticəsində son 9 ildə UNEC üzrə orta aylıq əməkhaqqı 2.1 dəfə artmışdır. Nəticə etibarilə hazırda UNEC üzrə orta aylıq əməkhaqqı 1296 AZN, pedaqoji heyət üzrə orta aylıq əməkhaqqı isə 1486 AZN-ə yüksəlmişdir.

UNEC-də həyata keçirilən bütün islahatlar Ulu Öndər Heydər Əliyevin tövsiyələrinə əsaslanaraq aparılmışdır. Ümummilli Liderin Azərbaycanda elm və təhsillə bağlı siyasəti, bu dahi şəxsiyyətin uzaqgörənliklə söylədiyi konseptual fikirlər, tarixi tövsiyələr bu gün ölkəmizdə təhsil islahatlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsində öz töhfəsini verir. Bu tövsiyələr Ulu Öndərin ənənələrini yaşadan Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu strateji məqsədlərin təməlində də dayanır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz çıxışlarında bu barədə qeyd edib: "Müasir dünyada hər bir ölkənin inkişafı, onun dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir".

Bütün sahələrdə olduğu kimi, Azərbaycan təhsilinin inkişafı istiqamətində Ümummilli Lider Heydər Əliyevin ölkənin uzunmüddətli inkişafına hesablanan uğurlu siyasəti dövlət başçısı cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Atılan genişmiqyaslı addımlar ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsildə böyük nailiyyətlərin əldə olunmasına, Azərbaycan dövlətinin yüksək sürətlə inkişafına əsaslı zəmin yaradır. Təhsil sahəsində aparılan islahatlar, qəbul olunan dövlət proqramları, gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı bir daha təhsilimizin dövlət başçısının diqqət mərkəzində olduğunun göstəricisidir.

**Ədalət MURADOV,**
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor***



# Heydər Əliyev İli 2023

# Qədim Gəncənin yeni dövrü Heydər Əliyevin adı ilə bağlıdır

**Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar olur. Onlar öz qətiyyəti ilə mənsub olduğu xalqı arxasınca aparır, taleyüklü məqamlarda ona yol göstərirlər. Azərbaycan xalqı üçün Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Bu baxımdan o, Azərbaycanın tarixinə parlaq və silinməz səhifələr yazmaqla qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.**






Təbiidir ki, tarix öz-özünə yaranmır. Onu öz əməlləri ilə insanlar yazırlar. Ancaq hər əməl də, görülən iş də tarixdə qalmır. Gərək elə bir işə imza atasan ki, bunun qeyri-adiliyi, çətinliyi və bu çətinliyin necə qətiyyətlə dəf olunmasına insanlarda inam yarada biləsən. Bu baxımdan müstəsna xidmətləri ilə əbədilik qazanan Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz məktəbdir. Bunu Azərbaycanın 1969-cu ildən sonrakı dövrdə qazandığı mühüm tarixi nailiyyətləri də sübut edir. Cəsarətlə demək olar ki, Azərbaycanda milli şüurun oyanışı da məhz bu dahi şəxsiyyətin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz onun sayəsində əbədi və dönməz olmuşdur. Odur ki, xalqımız haqlı olaraq dünyaşöhrətli dövlət xadiminin anadan olmasının 100 illiyini böyük təntənə ilə qeyd edir.

Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından sayılan Azərbaycanın simasını tamamilə dəyişdi. Respublikamızda görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işlərinə başlanıldı. Ulu Öndərin gərgin fəaliyyəti nəticəsində bütün sahələrdə böyük sıçrayış oldu. Özü də bu sıçrayış respublikamızın bütün regionlarını əhatə etdi. Və Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə də həmin inkişafdan kənarda qalmadı. Qədim Nizami yurdunun siması qısa vaxt ərzində tamamilə dəyişdi.

Məlum olduğu kimi, Heydər Əliyevin Gəncəyə və gəncəlilərə xüsusi hörmət və ehtiramı vardı. Ulu Öndər Gəncəyə hər gəlişində müxtəlif obyektlərin açılışını edir və təməlini qoyur, şəhərin inkişafı üçün yeni qərarlar qəbul edirdi. Çini qablar, Avtomobil, Maşınqayırma, Büllur, Şərab, Əlvan Metalların Emalı zavodları, çoxsaylı təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri Heydər Əliyevin yadigarlarıdır. "Yeni Gəncə" yaşayış massivi, "Alüminçilər" və "Gülüstan" yaşayış sahələrinin salınması da Ulu Öndərin adı ilə bağlıdır.

Strateji baxımdan əhəmiyyətli ərazidə yerləşən şəhərin sənaye və tikinti potensialının gücləndirilməsi məqsədilə Ulu Öndər 1970-ci ildə Gəncəyə ilk işgüzar səfər etdi. Daha sonra 1977-ci ildə Xalça-mahud kombinatının ikinci növbəsinin açılışında və Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutuna "Qırmızı Əmək bayrağı" ordeninin təqdimatında iştirak etdi. 1980-ci ildə isə o, iki dəfə Gəncəyə gəldi. Əvvəlki səfərlərində olduğu kimi, bu gəlişində də Heydər Əliyev şəhərin sənaye müəssisələrinə baş çəkərək kollektivlərlə görüşdü. "Büllur" zavodunda, "Xatirə" parkında oldu. ADAU-ya "Şərəf nişanı" ordenini təqdim etdi.

Tarixi hadisələr görkəmli dövlət xadimini Gəncəyə bir də 13 ildən sonra, 1993-cü ildə o dövrün naşı rəhbərlərinin təqsiri üzündən Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalanda gətirdi. O ağır günlərdə Heydər Əliyevin müdrikliyi özünü göstərdi. Vətəndaş müharibəsinin qarşısı alındı.

Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti seçildikdən sonra da ilk səfərini Gəncəyə etdi. 1993-cü il dekabrın 13-də Gəncəyə gələn Ulu Öndər şəhər sakinləri və fəalları ilə birlikdə müstəqil Azərbaycan dövlətinin inkişafı, şəhər iqtisadyyatının dirçəldilməsi, bazar iqtisadiyyatına keçid, ölkə daxilində sabitliyin qorunması üçün lazım olan təxirəsalınmaz tədbirləri müzakirə etdi və azad bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişafı perspektivləri barədə dəyərli tövsiyələr verdi. Bundan sonra dahi rəhbərin Gəncəyə növbəti səfəri 1998-ci ildə keçirilən prezident seçkiləri ərəfəsinə təsadüf etdi. Elə həmin görüşdən sonra Gəncədə sürətli inkişafa start verildi.





Hər səfərində Gəncəyə və gəncəlilərə göstərdiyi ehtiramı, keçirdiyi görüşləri bu gün də şəhər sakinləri xoş anlarla xatırlayırlar. Gəncəlilərlə hər görüşünü unudulmaz xatirələrlə yad edən Ümummilli Lider demişdir: "Gəncə Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən diyardır, gözəl bir şəhərdir. Azərbaycan xalqının qədim tarixinə, mədəniyyətinə, ədəbiyyatına, şeirinə Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdir".

Gəncə Ulu Öndərin ən çox diqqət verdiyi şəhər olub. O, daim şəhərin inkişafına və abadlaşmasına diqqət və qayğıkeşlik göstərib. Bunun nəticəsində şəhərdə geniş abadlıq və quruculuq işləri aparılıb, yeni parklar, xiyabanlar, yaşıllıq zonaları salınıb, Gəncə parklar şəhərinə çevrilib. Fikrət Əmirov, Nəriman Nərimanov, İstiqlal, Mirzə Şəfi parkları, dünyada sayca ikinci olan Heydər Əliyev park-kompleksi bu gün Gəncənin vizit kartlarıdır. Sahəsi 450 hektar, uzunluğu 2 kilometrdən artıq olan Heydər Əliyev park-kompleksi zəngin bitki örtüyü, 1100 kvadratmetr ərazidə inşa edilən "Zəfər tağı" ilə seçilir. "Zəfər tağı"nın hündürlüyü 40 metrdir və 7 mərtəbədən, 6 açıq eyvandan ibarətdir. Ətrafı seyr etmək üçün abidə üzərində meydança da var. 3500 nəfərlik amfiteatr, 7 hektar ərazini əhatə edən, bölgədə yeganə olan "Gəncland", velosiped yolu, Ulu Öndərin möhtəşəm abidəsi təkrarsızlığın, bənzərsizliyin etalonuna çevrilib.

Gəncəlilərin fəxri olan və müqəddəs məkan saydıqları Heydər Əliyev park-kompleksində bu şəhərin ən böyük və möhtəşəm Heydər Əliyev Mərkəzi inşa edilib. Ulu Öndərin keçdiyi zəngin həyat yolu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirən mərkəzdə Heydər Əliyevin uşaqlıq və gənclik illəri ilə yanaşı, onun zəngin fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Burada Ümummilli Liderin Gəncə şəhərinə müxtəlif illərdə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş etdirilir.

Bir zamanlar şəhərin ən yöndəmsiz, baxımsız yeri olan Gəncəçayın sağ sahilini indi tanımaq olmur. İlk dəfə olaraq çay boyunca yaradılan bulvar kompleksində böyük abadlıq və quruculuq işləri görülüb. Kompleksin uzunluğu 1,2 kilometrdir. Ümumi sahəsi 34 hektar olan kompleksdə istirahət üçün hərtərəfli şərait yaradılıb, geniş işıqlandırma işləri görülüb, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl quraşdırılıb. Çayın məcrasının hər iki tərəfində betondan ümumi uzunluğu 2,4 kilometr olan istinad divarı tikilib. Bulvarda Bayraq Meydanı, "Əli və Nino" kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, üç kafe, restoran və kinoteatr, açıq havada attraksionlar və digər sosial obyektlər inşa edilib. Burada 1,7 kilometr uzunluğunda velosiped yolu və iki velosiped dayanacağı inşa olunub, böyük monitor quraşdırılıb. İndi Gəncə bulvarı, sözün həqiqi mənasında, Bakı Dənizkənarı parkından geri qalmır.

Şəhərin mərkəzində klassik memarlıq üslubunda tikilmiş və görkəmi ilə diqqəti cəlb edən binada isə Məhsəti Gəncəvi mərkəzi yerləşir. Binanın qarşısındakı bağ və Məhsəti Gəncəvinin möhtəşəm heykəli ümumi ansamblı tamamlayır. Burada şairənin yaradıcılığına həsr olunan rəsm qalereyasında, tədqiqatçılar üçün oxu zalında, yardımçı otaqlarda hər zaman qələbəlik olur.

Heydər Əliyev Fondunun dəstəyi ilə ərsəyə gələn Nizami Gəncəvi muzeyi isə böyük şairin məqbərəsinin yaxınlığında inşa edilib. Bu yaxınlıq ziyarətçilərə şairin həyat və yaradıcılığı haqqında hərtərəfli məlumatlar əldə etməyə imkan verir. Muzeydə Heydər Əliyev Fondu tərəfindən nəşr olunan "Xəmsə" və monoqrafiyalar, Avstriya, Rusiya, Almaniya, Böyük Britaniya Milli Kitabxanalarında, Misirin İskəndəriyyə kitabxanası, Fransanın Strasburq kitabxanası və ABŞ-nin Metropol muzeyində qorunan "Xəmsə" əlyazmalarının və miniatürlərinin orijinalları və nüsxələrindən ibarət guşə yaradılmışdır. Burada "Qurani-Kərim"in ən qədim nümunəsi də saxlanılır.

Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə-Kompleksi çox möhtəşəm şəkildə tarixi ənənələrə uyğun inşa edilib. Yeni yaradılan bu abidə şəhərin 5 qapısından biri olan "Məqbərə" qapısının bərpa olunan variantıdır. Burada Azərbaycan tarixinin bütün dövrlərini əks etdirən zəngin bir muzey fəaliyyət göstərir.

Ümumiyyətlə, təkcə bir ildə Gəncədə 5 muzeyin qırmızı lenti kəsilmişdir. Bu, Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyevanın böyük dəstəyi və himayəsi ilə mümkün olmuşdur. Beləliklə, Gəncə həm də muzeylər şəhərinə çevrilmişdir.

Gəncədə uzunluğu 12 kilometr olan bir prospekt də var. Şəhərin iki giriş istiqamətini birləşdirən bu prospekti bəzəyən daş kitabələr, yaraşıqlı istinad divarları, arxitekturalı binalar, şəhərin ən qədim sahəsini özündə birləşdirən qırmızı kərpicdən hörülmüş binalar, qədimi taxta qapılar tarixi memarlıq elementlərinin nişanəsidir. Zəngin bitki aləmi, gül-çiçək bu prospektin gözəlliyinə əlavə çalar qatır. Cavad xan küçəsi də açıq səma altında muzeyi xatırladır. Müasirliklə tarixin sintezi bu küçəni gəlimli-gedimli edib. Çünki burada həm tarixin müxtəlif dövrlərinin əksi olan binalar, həm də gözəlliyi özündə cəmləşdirən fəvvarələr və digər obyektlər var.

Yuxarıdakı qeydlərimizdə Nizami Gəncəvi məqbərəsinin adı keçmişdir. Onun davamı olaraq bildirək ki, dünya mədəniyyətinə əvəzsiz incilər bəxş edən dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi də əsaslı şəkildə yenidən qurulmuşdur. Burada 7540 kvadratmetr sahəyə qranit plitə döşənmiş, dörd hovuz, iki şəlalə inşa edilmişdir. Beş buta qranitlə üzlənmiş, bir süni göl və körpü yenidən təmir olunmuşdur. Məqbərənin qarşısından keçən yolun hər iki tərəfindəki istinad divarları da yenidən qurulmuş, burada 11 hektar ərazidə yaşıllıq zolaqları salınaraq, dekorativ ağaclar əkilmişdir. Yaşıllıqdan söz düşmüşkən, Gəncənin Avropa Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar 1,8 hektarı əhatə edən ərazidə eyniadlı park salınmışdır. Parkın mərkəzində hündürlüyü 5 metr olan "Gəncliyin qanadları" abidəsi ucaldılmışdır ki, bu da parkın dizaynını xeyli zənginləşdirmişdir.

Göründüyü kimi, qədirbilən gəncəlilər Ulu Öndərin arzularını bu gün də həyata keçirirlər. Xüsusilə "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlərdə bütün bu işləri bir daha minnətdarlıq hissi ilə yada salır, Gəncənin bugünkü büsatını onun adı ilə bağlayırlar. Qeyd edək ki, "Heydər Əliyev İli" ilə əlaqədar Gəncə Şəhər İcra Hakimiyyətində tədbirlər planı tərtib edilmişdir. Həmin plana əsasən şəhərdə çoxsaylı tədbirlər həyata keçirilir. Elə bu yaxınlarda Azərbaycan Dövlət Aqrar Universitetində "Tətbiqi elmlər və aqrar sahənin inkişafına yeni baxışlar və yanaşmalar", Azərbaycan Texnologiya Universitetində "Dördüncü sənaye inqilabı və innovativ texnologiyalar", eləcə də Gəncə Dövlət Universitetində "Müasir təbiət və iqtisadi elmlərin aktual problemləri" mövzularında elmi-praktik konfranslar keçirilmişdir. Bundan başqa, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, YAP şəhər təşkilatının, Gəncə Şəhər Ağsaqqallar Şurasının və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə keçirilən regional konfranslarda Ulu Öndərin arzuladığı işlərin uğurla həyata keçirildiyi diqqətə çatdırılmışdır. Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi və Kəpəz Bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən tədbir də yaddaqalan olmuşdur. Tədbirdə Ulu Öndərin Azərbaycan, o cümlədən Gəncənin inkişafı üçün gördüyü işlər xatırlanmışdır. Tədbirdən sonra iştirakçılar Nizami Məqbərəsinn ətrafında ağacəkmə aksiyası keçirmişlər.

Azərbaycan Texnologiya Universitetində keçirilən beynəlxalq konfransda 15 ölkədən 250 nəfərədək nümayəndə iştirak etmişdir. Konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Elm və Təhsil nazirinin müavini Firudin Qurbanov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, akademik Əli Abbasov, Azərbaycan Respublikası Kosmik Agentliyinin departament rəhbəri Fatimə Ələkbərova və başqaları çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişafı naminə gördüyü işlərdən danışmış, Türkiyə, Macarıstan, Polşa, Almaniya, Rumıniya, Gürcüstan, Özbəkistan, Belarus və digər ölkələrdən gəlmiş alimlər Heydər Əliyev haqqında maraqlı fikirlər səsləndirmişlər.

Ulu Öndərin anadan olmasının 100 illiyini şəhər gəncləri də maraqlı tədbirlərlə qeyd edirlər. "Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi ölkəmizin gələcəyinin rəhnidir" mövzusunda keçirilən konfransda gənclər fəal iştirak etmişlər. Eyni zamanda şəhərin idmançıları da Ulu Öndərin yubileyi ilə əlaqədar keçirilən çoxsaylı tədbirlərə qoşulmuşlar. Bu münasibətlə müxtəlif idman turnirləri keçirilmiş, qaliblərə xatirə hədiyyələri təqdim edilmişdir. Heydər Əliyev Park-Kompleksində keçirilən "Əzm marafonu" daha maraqlı olmuşdur. Marafona 250 nəfərdən çox gənc qoşulmuşdur. "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda keçirilən tədbirdə də yüzlərlə gənc iştirak etmişdir.

Gəncə bu gün inkişaf etmiş Avropa şəhərləri ilə müqayisə olunur. Bu, Heydər Əliyevin başladığı, Prezident İlham Əliyevin davam etdirdiyi quruculuq missiyası hesabına mümkün olmuşdur. Bəli, Ulu Öndər kimi, Prezident İlham Əliyev də Gəncəyə və gəncəlilərə böyük hörmət və qayğıkeşliklə yanaşır, tez-tez bu qədim şəhərə səfər etməklə onun daha sürətli inkişafı üçün tədbirlər görür. Odur ki, gəncəlilər şəhərin müasir tarixinin şərəfli səhifəsini yazan Ulu Öndərlə yanaşı, bu siyasəti uğurla davam etdirən, Gəncədən diqqət və dəstəyini əsirgəməyən İlham Əliyevə də minnətdardırlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# Heydər Əliyev İli 2023

## "Fövqəladə hallar uşaqların gözü ilə" uşaq yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılıb

Mayın 8-də Fövqəladə Hallar Nazirliyinin (FHN) təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş "Fövqəladə hallar uşaqların gözü ilə" Respublika uşaq yaradıcılıq müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov və nazirliyin əməkdaşları, BMT Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəsi Aleks Haykens, müsabiqənin qalibləri seçilmiş uşaqlar, o cümlədən Vətən müharibəsi şəhidlərinin övladları və ailə üzvləri, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, Ümummilli Liderin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Heydər Əliyev Mərkəzi və Muzey ilə tanışlıqdan sonra "Heydər Əliyev İli"nə həsr olunmuş "Fövqəladə hallar uşaqların gözü ilə" müsabiqəsinin seçilmiş işlərindən təşkil edilmiş sərgiyə baxış olub.

Sərgi ilə tanışlıqdan sonra şəxsi heyətin təntənəli keçidi olub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan edilib.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu xatırladaraq, dahi rəhbərin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərinə böyük ehtiramın bariz ifadəsi olan bu sərəncamın böyük rəğbətlə qarşılandığını qeyd edib. Nazir vurğulayıb ki, Ulu Öndərin 100 illik yubileyi ilə bağlı istər respublikamızda, istərsə də ölkəmizdən kənarda keçirilən möhtəşəm silsilə tədbirlər bütün dünya azərbaycanlılarının öz dahisinə necə dərin və sonsuz məhəbbət bəslədiyini bir daha parlaq şəkildə təcəssüm etdirir.

K.Heydərov çıxışında Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlər haqqında danışıb, dahi rəhbərin zamana sığmayan misilsiz fəaliyyəti, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının gerçəkləşdirilməsi yolunda atdığı qətiyyətli və tarixi addımlar barədə ətraflı məlumat verib.

Dahi şəxsiyyət ömrünü bütövlükdə Azərbaycanın varlığına, onun müstəqilliyinin möhkəm dayaqlar üzərində bərqərar olaraq sürətli inkişafının təmin olunmasına sərf edib. Təsadüfi deyil ki, Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi bütün dövlət sosial-iqtisadi yüksəliş və tərəqqi dövrləri kimi tarixə qızıl hərflərlə daxil olub. Canından artıq sevdiyi Vətənini və xalqını tarixin çox çətin sınaqlarından böyük məharətlə çıxaran Ulu Öndər həm də vətəndaşların təhlükəsiz həyat və fəaliyyətinin təmin olunması məsələlərinə xüsusi həssaslıqla yanaşıb, baş verən fəlakətlər zamanı daim vətəndaşların yanında olub, onlara hərtərəfli dəstək nümayiş etdirib, bütün aidiyyəti dövlət qurumlarını fəlakətlərin nəticələrinin aradan qaldırılmasına səfərbər edib.

Çıxışında dahi rəhbərin "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır" müdrik fikirlərini xatırladan Kəmaləddin Heydərov əlavə edib ki, cəmiyyətimizin gələcəyi olan uşaqlara, o cümlədən şəhid övladlarına Ulu Öndər Heydər Əliyev daim böyük məhəbbət hissləri, diqqət və qayğı ilə yanaşıb, onların ən böyük himayədarı olub.

Nazir mütərəqqi Heydər Əliyev siyasətinin mahir davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə şanlı ordumuz tərəfindən 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfəri qürur hissi ilə xatırladaraq, bu gün ölkəmizdə əsası Ümummilli Lider tərəfindən qoyulmuş dövlət uşaq siyasətinin uğurla davam etdirildiyini, dövlət başçısı tərəfindən uşaqların, o cümlədən şəhid övladlarının təhlükəsiz və sağlam mühitdə böyümələri, elmi biliklərə yiyələnmələri, Vətənini, xalqını sevən insanlar kimi yetişmələri üçün hər cür şəraitin yaradıldığını diqqətə çatdırıb. Bu mənada qeyd edilməlidir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən uşaqlar xüsusi qayğı ilə əhatə olunur, onların təhsili, təlim-tərbiyəsi, sağlamlığı daim diqqətdə saxlanılır.

Daha sonra nazir Fövqəladə Hallar Nazirliyi tərəfindən hər il keçirilən və artıq ənənə halını almış, bu il isə "Heydər Əliyev İli"nə həsr olunan "Fövqəladə hallar uşaqların gözü ilə" Respublika uşaq yaradıcılıq müsabiqəsinin əhəmiyyətinə toxunub. Bu müsabiqənin uşaqlarda təhlükəsiz həyat fəaliyyəti mədəniyyətinin, fərdi və ictimai təhlükəsizlik məsələlərinə məsuliyyətli yanaşma hissinin kiçik yaşlarından formalaşması, eləcə də onların vətənpərvər ruhda böyümələri üçün faydalı olduğunu qeyd edib.

Nazir K.Heydərov müsabiqə qaliblərini qalib ölkənin vətəndaşları kimi əldə etdikləri yüksək nəticələrə görə təbrik edərək, onlara təhsil və yaradıcılıq uğurları arzulayıb.

Sonra məktəblilərin ifasında Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr edilən, həmçinin milli vətənpərvərlik ruhunda bədii hissə təqdim olunub.

Daha sonra qaliblərə fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

Qeyd edək ki, ölkənin bütün şəhər və rayonlarının ümumtəhsil məktəblərində təhsil alan uşaqların, o cümlədən şəhid övladlarının iştirak etdikləri yaradıcılıq müsabiqəsinə 2023-cü il fevralın 6-da start verilib. Müsabiqənin keçirilməsində məqsəd Ulu Öndər Heydər Əliyevin zəngin irsinin, onun müdrik ideyalarının uşaq və yeniyetmələr arasında təbliğ edilməsi, həmçinin onlara təhlükəsiz həyat fəaliyyəti mədəniyyətinin aşılanması, uşaqların vətənpərvərlik ruhunda böyüməsi, eləcə də istedadlı uşaqların üzə çıxarılması və onlara dəstək verilməsidir. Müsabiqə rəsm, plakat, əl işi, yanğın və qəzaxilasetmə texnikasının modeli və yumşaq oyuncaq nominasiyalarında məktəb, rayon və ümumrespublika birinciliyi mərhələləri üzrə keçirilib. Müsabiqəyə təqdim olunmuş işlər münsiflər heyəti tərəfindən qiymətləndirilib və qaliblər müəyyənləşdirilib. Yekun olaraq 36 nəfər birinci, 21 nəfər ikinci, 41 nəfər üçüncü yerə, 65 nəfər isə həvəsləndirici mükafata layiq görülüb.

## Parisdə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi təntənə ilə qeyd edilib





Azərbaycanın Fransadakı səfirliyinin təşkilatçılığı ilə Parisdə müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi təntənəli şəkildə qeyd edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Fransada akkreditə olmuş diplomatik korpusun nümayəndələri, fransız diplomatlar, tədqiqatçılar, yerli ictimaiyyətin və Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Ölkəmizin Fransadakı səfiri Leyla Abdullayeva çıxışında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin dövlətin ən çətin anlarında onu tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxardığını vurğulayıb. Bildirilib ki, Heydər Əliyevin müdrik siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tutub.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev ömrünün son 10 ilini Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə həsr edib, onu düşdüyü çətinlikdən çıxararaq dirçəldib.

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevi Şarl de Qoll ilə müqayisə edən diplomatlar xalqları üçün çətin anlarda hakimiyyətə gələn hər iki dövlət rəhbərinin ölkələrinin inkişafına verdiyi töhfələrdən danışıblar. Qeyd edilib ki, Ulu Öndərin strateji kursunun uğurla davam etdirilməsi ölkəni regional və beynəlxalq səviyyədə nüfuzlu aktora, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevirib.

Fransanın Azərbaycanda ilk səfiri olmuş Jan Perrən Ümummilli Liderlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşərək, Heydər Əliyev kimi böyük şəxsiyyəti görmək arzusu ilə Naxçıvana getməsindən, Ulu Öndərlə ilk görüşündən söz açıb. Azərbaycanın ən çətin vaxtlarında Naxçıvana gedən ilk səfir olduğunu diqqətə çatdıran diplomat vurğulayıb ki, o vaxt Azərbaycanı çətin vəziyyətdən, parçalanmaq təhlükəsindən yalnız böyük siyasi xadim Heydər Əliyev çıxara bilərdi. Diplomat qeyd edib ki, məhz Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycan inkişaf etməyə, bütün sahələrdə dirçəlməyə başladı.

Tanınmış tarixçi və geosiyasət üzrə ekspert Aleksandr Adler Versal sarayında Ulu Öndərlə ilk görüşündən söz açaraq deyib: "Tanrı bu şəxsiyyəti öz xalqına son dərəcə mürəkkəb bir tarixi məqamda xilaskar olaraq göndərmişdi. Ötən əsrin 80-ci illərinin ikinci yarısında Sovet İttifaqı rəhbərliyində Heydər Əliyevə qarşı yaradılan maneələr onu əsla ruhdan salmadı".

Natiqlər Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdarkən ölkə parçalanmaq təhlükəsində olduğunu, onun müdrikliyi, bacarığı, dərin zəkası sayəsində Azərbaycanın qısa müddətdə yenidən dirçəltdiyini vurğulayıblar. Eyni zamanda Heydər Əliyev strategiyası sayəsində Azərbaycanın bütün regionda sabitliyin qarantına çevrildiyi diqqətə çatdırılıb.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən sərgiyə baxış olub.

Tədbir etnocaz konsert proqramı ilə davam edib. Konsertdə Etibar Əsədli (piano), Şəhriyar İmanov (tar), İmamyar Həsənov (kamança), Teddi Sorres (kontrabas), Yoan Şmidt (zərb alətləri) müşayiəti ilə Azərbaycan xalq mahnıları "Sarı gəlin" və Küçələrə su səpmişəm"i, "Fəridəm", "Qara qaşın vəsməsi", eləcə də Səid Rüstəmovun "Hardasan", Ş. İmanovun "Ağlayan şəlalə", E. Əsədlinin müəllifi olduğu kompozisiyalar ifa edilib.

## Rotterdamda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi qeyd olunub

Azərbaycanın Niderland Krallığındakı səfirliyi, Benilüks Azərbaycanlıları Konqresinin (BAK) birgə təşkilatçılığı və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Rotterdam şəhərində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi qeyd edilib.



AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də Azərbaycan torpaqlarının azadlığı uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad ediblər. Sonra Azərbaycanın və Niderlandın Dövlət himnləri səsləndirilib. Sonra Ümummilli Liderin həyatından və siyasi fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Benilüks Azərbaycanlıları Konqresinin (BAK) sədri Elsevər Məmmədov çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzində Vətəni, xalqı qarşısında misilsiz xidmətlərindən söz açaraq, Azərbaycanın ən çətin dövründə xalqın tələbi ilə yenidən hakimiyyətə gəlməsindən danışıb. Bildirib ki, müasir neft strategiyasının banisi Heydər Əliyev 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə xarici sərmayəçiləri ölkəyə gətirməklə Azərbaycanın müstəqilliyinin təməlini qoyub.

Sonra çıxış edən səfir Rəhman Mustafayev deyib ki, 1990-cı illərin əvvəllərində müstəqilliyini yenicə bərpa edən Azərbaycan müstəqilliyini itirmək, ölkənin parçalanması təhlükəsi ilə üz-üzə qalmışdı. Ölkəni belə ağır vəziyyətdən yalnız Heydər Əliyev xilas edə bilərdi. Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlmiş Ulu Öndər ilk günlərdən şəxsiyyətinin böyüklüyünü, əsl dövlət xadimi kimi müdrikliyini ortaya qoydu. Təcrübəli siyasi xadim daxili vəziyyəti sabitləşdirməyə və gənc respublikanı böhrandan çıxarmağa nail oldu. Müharibə və işğala məruz qalan, siyasi, iqtisadi və sosial böhranlarla iflic vəziyyətinə düşən ölkənin dağılmasının qarşısını aldı.

Səfir həmin dövrdəki xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. Vurğulayıb ki, Heydər Əliyev fenomenal bir şəxsiyyət olub. O, çətin vəziyyətdə olan ölkəni qısa müddətdə dirçəltməyə nail olub.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupunun rəhbərinin müavini Eldar Səmədov bildirib ki, Ümummilli Lider müstəqilliyimizin ilk illərində Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində əsir və girov götürülmüş, itkin düşmüş vətəndaşlarımızın taleyindən narahatlığını bildirib, əsirlərin azad edilməsinə nail olub. Ulu Öndərin əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla bağlı məsələlərə xüsusi diqqət yetirib.

Niderlandda fəaliyyət göstərən rəssam Rasim Hüseynov, Niderland - Belçika Azərbaycanlıları Koordinasiya Şurasının üzvü, beynəlxalq qadınlar klubunun rəhbəri Kəmalə Cəlilova çıxış edərək Ulu Öndərin Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində və inkişafında misilsiz xidmətlərindən danışıblar.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, Müzəffər Ali Baş Komandanın qətiyyəti və Azərbaycan Ordusunun qüdrəti sayəsində Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizin 44 günlük Vətən müharibəsi zamanı azad edildiyi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğu diqqətə çatdırılıb.

Sonda Niderlandda yaşayan kamança ustası İlham Babayevin ifasında Azərbaycan musiqisi səsləndirilib.

Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətini əks etdirən fotosərgi ilə tanış olublar.

## GDU-da beynəlxalq konfrans keçirilib

**Gəncə Dövlət Universitetində (GDU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" mözsunda beynəlxalq konfrans keçirilib.**



Konfrans iştirakçıları öncə Gəncənin mərkəzi meydanında Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş və abidə önünə gül dəstələri düzmüşlər. Sonra onlar universitetin V tədris korpusunda Ulu Öndərə həsr edilmiş kitab və rəsm əsərlərindən ibarət sərgiyə baxmışlar.

Beynəlxalq konfrans Dövlət himninin səsləndirilməsi ilə başlamışdır. Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan igidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Ardınca Heydər Əliyevin zəngin və çoxşaxəli siyasi fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilmişdir.

Türkiyənin Gəncədəki baş konsulu Recep Öztopun, Milli Məclisin deputatı Pərvin Kərimzadənin, İzmir Dokuz Eylül Universitetinin prorektoru Fatma Duyğunun, Azərbaycan Milli Elmlər Akademiyası Gəncə bölməsinin akademik katibi Fuad Əliyevin, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru Vaqif Abbasovun, akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun icraçı direktoru Məhəmməd Babanlının, dünyanın müxtəlif nüfuzlu elm və təhsil müəssisələrinin tanınmış alimlərinin iştirak etdikləri konfransı giriş sözü ilə GDU-nun rektoru Yusif Yusibov açaraq müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafı, qüdrətlənməsi naminə göstərdiyi misilsiz xidmətlərdən danışmış və diqqətə çatdırmışdır ki, Azərbycanın bugünkü uğurları onun adı ilə bağlıdır.

Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop çıxışında Türkiyə-Azərbaycan əlaqələrinin çoxəsrlik tarixə malik olduğunu qeyd etmiş və bu əlaqələrin genişlənməsində Heydər Əliyevin misilsiz xidmətlərindən danışmışdır. Sonra Milli Elmlər Akademiyasının Gəncə bölməsinin akademik katibi Fuad Əliyev, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru akademik Vaqif Abbasov, İzmir Dokuz Eylül Universitetinin prorektoru Fatma Duyğu və Gəncə Dövlət Universitetinin Botanika kafedrasının müdiri professor, Əməkdar elm xadimi Vaqif Novruzov müxtəlif məruzələrlə çıxış etmişlər.

Beynəlxalq konfrans 15 bölmədə işini davam etdirmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Bağışlamaq qəlbin böyüklüyüdür

**Fəaliyyəti ədalətə, humanizm və mərhəmət prinsiplərinə söykənən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə daha 801 ailəyə sevinc payı bəxş etdi. Əsası Ulu Öndər tərəfindən qoyulmuş humanizmə sadiqlik ənənəsini İlham Əliyev 20 ildir ki, layiqli şəkildə davam etdirir.**



## Müstəqillik tarixinin ən böyük əfvi

### İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə 801 ailəyə sevinc bəxş etdi

Ümumiyyətlə, 2003-cü ildən bu günədək İlham Əliyevin qəbul etdiyi hər bir qərarda, imzaladığı sənədlərdə onun siyasi iradəsinin şahidi oluruq. Mayın 8-də Prezidentin imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" sərəncam müstəqil Azərbaycanın tarixində qəbul edilmiş ən böyük əfv aktı oldu. Bu günədək ən böyük əfv aktı 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar imzalanan sərəncam olmuşdur. Həmin əfv sərəncamı 634 məhkuma şamil edilmişdi. Sayca 37-ci əfv sərəncamı 801 məhkuma şamil edilib ki, bu da 2018-ci ildə əfv edilənlərlə müqayisədə 167 nəfər çoxdur.

#### Heydər Əliyev humanizmi

Bu bir həqiqətdir ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu siyasi kursun təməlini humanizm, insanpərvərlik təşkil edir. Məhz bu strategiyanın uğurlu nəticəsidir ki, Azərbaycan vətəndaşı bu gün tarixinin ən şanlı və şərəfli dövrünü yaşayır. Ulu Öndər hər zaman humanist dəyərlərə söykənərək verdiyi sərəncamlarla minlərlə vətəndaşımızı əfv edib.

Statistik göstəricilərə nəzər yetirsək görərik ki, müstəqillik dövründə dövlət minlərlə məhkuma azadlıq, ailələrə sevinc bəxş edib. Ulu Öndər Heydər Əliyev tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanıb. Bunun nəticəsində 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilib. Həmçinin 1993-2003-cü illərdə 7 dəfə amnistiya elan edilib. Amnistiya aktları törətdiyi cinayət əməlindən səmimi peşmançılıq hissi keçirən 78 mindən çox məhbusa şamil edilib, 21 min 325 nəfər cəzasının çəkilməmiş hissəsindən azad olunub.

İlham Əliyev tərəfindən də uğurla davam etdirilən bu siyasət artıq ənənə halını alıb. Dövlət başçısı bu humanist addımları ilə Azərbaycan vətəndaşına yüksək dəyər verir, hüquq və azadlıqlarını hər şeydən uca tutur.

Prezidentin dünən imzaladığı sərəncamda da qeyd edilir ki, müasir Azərbaycan dövlətinin qurucusu, dahi dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ölkəmizin tarixində əlamətdar hadisədir. İlham Əliyev Ulu Öndərin əbədiyaşar əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək, onun bəşəri amallara, qanunçuluq və ədalət ideallarına söykənən zəngin mənəvi irsinə sadiq qalaraq, demokratik hüquqi dövlət quruculuğu istiqamətində fundamental islahatların həyata keçirilməsində Heydər Əliyevin misilsiz xidmətlərini, insan hüquq və azadlıqlarının qorunmasına xüsusi önəm verdiyini xatırlayaraq, humanizm, mərhəmət və insanpərvərlik ənənələrini davam etdirərək bu sənədi imzalayıb.

Dövlət başçısı əmin olduğunu qeyd edib ki, ailələrinə sevinc bəxs edilən və cəzadan azad olunacaq şəxslər müstəqil dövlətimizin rifahına və cəmiyyətin inkişafına öz töhfələrini verəcəklər.

#### 463 şəxs azadlıqdan məhrumetmə cəzasından azad olunub

Sərəncama əsasən 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilib.

Əfv edilənlərdən 25 nəfəri qadındır. Onlardan biri əcnəbi, 24-ü isə Azərbaycan vətəndaşıdır. Sərəncamla 14 nəfər əcnəbi vətəndaş əfv edilib.

Sərəncamın Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə imzalanması onun siyasi kursuna, zəngin mənəvi irsinə, dövlətimizin və xalqımızın həyatında misilsiz xidmətlərinə verilən ən ali dəyərdir. Dövlət yüzlərlə məhbusa öz həyatını yenidən qurmağa, həyatında təmiz səhifə açmağa imkan verib. Bu da respublikamızın humanizm prinsipləri əsasında inkişaf yolu seçdiyini bir daha nümayiş etdirir, xalqın dövlətə, ədalətə inamını artırır. Bütün dövrlərdə insan haqlarının təminatına və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına xidmət edən əfv və amnistiya aktları cəmiyyətdə olduqca yüksək qiymətləndirilir. Hər bir fərdin mənafeyinin əsas götürüldüyü hüquqi dövlət quruculuğu prinsiplərinə həssas münasibətin əyani təcəssümü olaraq Azərbaycanda məhkumların əfv edilməsi - bağışlanması artıq ənənəyə çevrilib.

İndiyədək imzalanmış 69 əfv sərəncamı, 12 amnistiya aktı bir dövlətin cəmiyyətdə humanizm ideallarının və prinsiplərinin güclənməsi üçün böyük töhfəsidir.

Əlbəttə ki, mütəmadi olaraq əfv sərəncamlarının imzalanması, amnistiya aktlarının qəbul olunması dövlətin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir. Əfv olunan vətəndaşlar dövlətin onlara olan inam və etibarını daim hiss edirlər və bu onları layiqli vətəndaş olmağa həvəsləndirir. Eyni zamanda onlar minlərlə insanı əhatə edən əfv sərəncamlarına və amnistiya aktlarına, humanist addımlara görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildirirlər. Yəni Azərbaycan ictimaiyyətinin nümayəndələri humanizm nümunəsi olan bu addımları olduqca yüksək qiymətləndirirlər.

Ölkəmizdə amnistiya haqlarının məhz Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən hazırlanıb Milli Məclisə təqdim edilməsi xalqımız, cəmiyyətimiz adından alqışlanan dəyərli ənənəyə çevrilib. Mehriban xanımın amnistiya təşəbbüsləri ölkəmizdə hüquq siyasətinin liberallaşdırılmasına, məhkumların sayının azaldılmasına gətirib çıxaran vacib amilə çevrilib. Belə təşəbbüslər həmçinin ölkəmizdə ictimaiyyətin ovqatının daha da yüksəlməsinə böyük töhfəsini verib. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyevin humanizm prinsiplərinə sadiqliyini təcəssüm etdirən əfv sərəncamları və amnistiya aktları isə bir daha təsdiq edir ki, Prezident əfv etməyi, bağışlamağı bacaran müdrik şəxsiyyətdir.

İlham Əliyevin bu humanist qərarı ilə yüzlərlə ailəyə böyük sevinc payı düşdü. Yüzlərlə insan doğmalarına qovuşub yeni həyata başlayacaq. Bu, Azərbaycan dövlətinin və onun liderinin artıq illərdir davam etdirdiyi humanizm siyasətinin növbəti parlaq nümunəsidir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Humanizm nümunəsi

### Yeni əfv sərəncamı yüzlərlə ailənin üzünü güldürdü

Prezident İlham Əliyevin dünən imzaladığı sərəncama əsasən, 801 məhkum əfv olundu. Heydər Əliyevin 100 illik yubileyi münasibətilə imzalanan bu sərəncam Azərbaycanın tarixində ən böyük əfv aktıdır. Bu bir daha sübut edir ki, ölkəmizdə humanizm dəyərləri dövlət siyasətinin əsasını təşkil edir.





Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

#### Ölkəmizdə insan hüquq və azadlıqlarına hörmət yüksəkdir

Milli Məclisin deputatı Azər Badamov deyib ki, əfv sərəncamı Ümummilli Liderin "Nə qədər ki, Azərbaycan var, mən də varam" müdrik kəlamının real həyatdakı ifadəsidir: "Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin və xalqının xilaskarıdır. Ölkəmizdə demokratik hüquqi dövlət quruculuğu istiqamətində fundamental islahatların həyata keçirilməsində Heydər Əliyevin misilsiz xidmətləri olub. Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin əsasında insan hüquq və azadlıqlarının qorunması, humanizm, mərhəmət və insanpərvərlik ənənələri əsas yer tuturdu. 100 illik yubileyi çərçivəsində Prezident İlham Əliyev tərəfindən 801 nəfəri əhatə edən əfv sərəncamının imzalanması yol gözləyən yüzlərlə ailəni sevindirməklə yanaşı, Ulu Öndərin ruhunu şad edir".

Deputat qeyd edib ki, sərəncam əhatə dairəsinə görə müstəqil dövlətçilik tariximizdə ən böyük əfv sərəncamıdır: "Heydər Əliyev İli" çərçivəsində imzalanmış bu sərəncam xüsusi əhəmiyyətə malikdir. Bu, Ulu Öndər Heydər Əliyevin xatirəsinə böyük hörmət və ehtiram əlamətidir. Sərəncamla əfv olunmuş şəxslərə vaxtından əvvəl normal həyata qayıtmağa və cəmiyyətdə yenidən özünü təsdiq etməyə imkan yaradılır. Bu, cəmi 30 illik müstəqillik tarixində yüksək hüquqi dövlət quruculuğu prosesi keçmiş ölkəmizdə insan hüquq və azadlıqlarına hörmət edildiyini bir daha sübut edir".

#### Ən böyük əfv

Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, yeni əfv sərəncamı dövlətimizin növbəti humanizm nümunəsidir: "Sərəncamın şamil olunduğu vətəndaşların sayı rekorddur. Əvvəlki illərdə imzalanmış əfv sərəncamları ilə müqayisədə bu dəfə daha çox məhbus cəzasının qalan hissəsini çəkməkdən azad olunub. Heydər Əliyevin anadan olmasının 100 illik ildönümü münasibətilə imzalanmış sərəncam çox sayda ailəni sevindirir. Bu baxımdan yeni əfv sərəncamı əsl humanizm nümunəsidir".

Deputatın sözlərinə görə, sözügedən sənəd bir daha təsdiq edir ki, Azərbaycanda yürüdülən siyasətin əsas hədəfində humanizm, vətəndaşlarımızın hüquqlarının qorunması və onlara dövlət dəstəyinin artırılması dayanır. Eyni zamanda digər mühüm məqamlardan biri isə onunla bağlıdır ki, bu sərəncamda hüquq müdafiə təşkilatlarının müraciəti nəzərə alınmışdır. Bu isə Azərbaycanın demokratik dəyərləri hər zaman üstün tutduğunu nümayiş etdirir.

V.Bayramov deyib ki, bu həm də sosial baxımdan mühüm əhəmiyyətli sərəncam kimi dəyərləndirilməlidir: "Nəzərə almaq lazımdır ki, əfv olunanların yenidən işlə təmin olunması sayəsində onların ailələrinin sosial təminatı yaxşılaşacaq. Ona görə də yeni əfv sərəncamı həm humanizm prinsiplərinin, həm vətəndaşlarımızın hüquq və azadlıqlarının qorunması, demokratik dəyərlərimizin möhkəmləndirilməsi, həm də əhalinin müəyyən qruplarının sosial təminatının yaxşılaşdırılması baxımından kifayət qədər mühümdür. Bu, Azərbaycan dövlətinin hər zaman vətəndaşlarının yanında olduğunu bir daha təsdiq edir".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*



## Əfv sərəncamının Ədliyyə Nazirliyi tərəfindən icrası təmin olunub

Dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ötən dövrdə qəbul olunmuş humanist aktlarla, həmçinin respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə elan edilmiş amnistiya qərarları ilə minlərlə məhkum müxtəlif, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad edilib.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Prezidenti tərəfindən mayın 8-də əfv sərəncamı imzalanıb.








Dövlət başçısının humanist aktının elə həmin gün Ədliyyə Nazirliyi tərəfindən Milli Məclisin deputatlarının, ombudsmanın, vətəndaş cəmiyyətinin və medianın iştirakı ilə penitensiar müəssisələrdə, habelə alternativ cəzaların icrasını təmin edən probasiya qurumlarında dərhal icrası təmin edilib.

Ümumilikdə 801 məhkumu əhatə edən sərəncamla 463 nəfər azadlıqdan məhrumetmə cəzasından azad edilib, 220 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Həmçinin probasiya xidmətinin nəzarətində olan azadlıqdan məhrumetməyə alternativ cəzalara məhkum edilmiş 118 nəfər əfv olunub. Onlardan 88 nəfəri cərimə, 18 nəfər azadlığın məhdudlaşdırılması, digərləri isə islah, şərti məhkumetmə və digər cəzalardan azad ediliblər. Əfv sərəncamının icrası ilə bağlı keçirilən mərasimlərdə çıxış edənlər "Heydər Əliyev İli"ndə Ulu Öndərin yubileyi münasibətilə qəbul olunmuş əfv sərəncamının mahiyyətini və əhəmiyyətini diqqətə çatdırıb, əfv olunan şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracaqlarına, azad cəmiyyətə qovuşaraq Azərbaycanın layiqli vətəndaşları olacaqlarına əminliklərini ifadə ediblər. Müstəqillik tariximizin ən böyük əfv aktı olan bu sərəncam cəmiyyətimizdə böyük rəğbətlə qarşılanıb, azadlığa çıxan şəxslər yubiley ilində, Ümummilli Liderin 100 illiyi münasibətilə azad edilmələrindən yüksək sevinc hisslərini bölüşüblər. Əfv olunanlar, onları qarşılamağa gələn ailə üzvləri və yaxınları göstərdiyi humanistliyə görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

1945 **Faşizm üzərində qələbədən 78 il keçir** 2023

# Hünər və rəşadət tariximiz

**1941-ci il iyunun 22-də faşist Almaniyası SSRİ-yə hücum etdi. Bununla da Böyük Vətən müharibəsi başladı. SSRİ-də yaşayan bütün xalqlar, o cümlədən azərbaycanlılar o zaman ümumi Vətən sayılan SSRİ-nin müdafiəsinə qalxdılar.**

**"Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızları cəbhəyə getmişdir".**

**Heydər ƏLİYEV**

1941-1945-ci illərdə altı yüz mindən artıq soydaşımız müharibəyə yollanaraq müxtəlif cəbhələrdə vuruşdu. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçdi. Müharibənin ilk günlərində təqribən 40 min adam könüllü surətdə cəbhəyə getmək üçün hərbi komissarlıqlara müraciət etdi. 1941-ci ilin sonunda xalq qoşunu dəstələrində artıq 200 min nəfər döyüşçü vardı. Onlardan 15 min nəfərdən çoxu qadınlar idi.

Ağır müharibə illərində azərbaycanlı əsgər və zabitlər od-alov püskürən döyüş meydanlarında misilsiz şücaət göstərirdilər. Cəbhənin elə bir istiqaməti yox idi ki, həmvətənlərimiz orada döyüşməmiş olsun. Azərbaycanlılardan ibarət 414-cü, 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və başqa milli diviziyaların əsgərləri və zabit heyəti Simferopolda, Odessada və digər şəhərlərdə vuruşmuşdular. 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad edilməsində xüsusi igidlik göstərmişdi. 416-cı diviziya Qafqazdan Berlinədək qəhrəmanlıq yolu keçmişdi. Bəşəriyyətin yaddaşına ən dağıdıcı savaş kimi yazılmış bu amansız müharibə dünyanın faşizmdən qurtulması uğrunda aparılırdı.

Azərbaycanı təmsil edən döyüşçülərdən 170 min nəfəri SSRİ-nin sanballı orden və medalları ilə təltif olundu. 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Hər orden və medalın arxasında isə hünər və rəşadət dayanırdı. Yüzlərin, minlərin arasında seçilənlərin qəhrəmanlığı əks olunurdu. Odlu müharibə yollarında, qanlı döyüş meydanlarında dəfələrlə yaralananlar da az olmadı. Hospitallara düşdülər, cəbhəyə dönmək əzmi ilə sağalıb yenidən döyüşə qatıldılar. Növbəti yaraları almaqdan heç də qorxmadılar, qələbə əzmi ilə döyüşdülər. Müharibə sona çatandan sonra vətənə döndülər. Hərəsi bir sahəni qurub-yaratmaq meydanına çevirdi.







*Şəkildə (soldan sağa): 416-cı atıcı diviziyanın siyasi rəhbəri, polkovnik Rəşid Məcidov, həmin diviziyanın komandiri general-mayor D.Sızranov və müharibə veteranı Əbdül Zeynalov*

## Reyxstaq üzərinə bayraq sancan azərbaycanlı zabit

Azərbaycan və sovet hərbi xadimi, polkovnik Rəşid Əsəd oğlu Məcidov da bu müharibədə şücaətlər göstərərək hərb salnaməsində xüsusi yeri olan Azərbaycan övladlarından biridir. 1945-ci il mayın 2-də Berlinin alınması zamanı, Brandenburq qapısı üzərində sovet bayrağının qaldırılması məhz bu igid zabitin başçılığı ilə həyata keçirilib. Onun göstərdiyi misilsiz şücaət nəsillərə hünər və mərdlik məktəbidir.

R.Məcidov 1908-ci ildə Bakıda hərbçi ailəsində anadan olmuşdur. 1927-ci ildə Bakı Sənaye və İqtisadiyyat Texnikimunu bitirmişdir. 1933-cü ildə Azərbaycan komsomolu Mərkəzi Komitəsinin birinci katibi kimi fəaliyyət göstərmişdir. Moskvada Ali Partiya Məktəbində təhsilini davam etdirən Məcidov sonradan Qaradağ Rayon Partiya Komitəsinin birinci katibi və Yayımlama Komitəsinin sədri vəzifəsində çalışmışdır. Böyük Vətən müharibəsi dövründə o, 416-cı atıcı diviziyasının siyasi şöbəsinin rəhbəri idi. 93 faizi azərbaycanlılardan ibarət olan diviziyanın tərkibində Mozdokdan (Şimali Osetiya) Berlinə qədər yol keçmişdir.

1945-ci ilin mayında Berlinin alınması zamanı 416-cı diviziya yenə də öndə idi. Almanlar Berlini asanlıqla təhvil vermək istəmirdilər. Əsas maneə Brandernburq qapılarının arxasındakı döyüşən artilleriya idi. Bir neçə zərbədən sonra qapıların yanında yerləşən üçmərtəbəli məktəb çökür. Rəşid Məcidov bu anda əsgərlərinə Azərbaycan dilində "irəli" əmrini verir. O, qarşıda SSRİ-nin Berlindəki səfirliyinin də yerləşdiyi Reyxstaqın binasını tanıyır. Polkovnikin tapşırığı və düzgün planı ilə bina zərər görmədən ələ keçirilir. Bunun sayəsində səfirlikdə yerləşən minlərlə məxfi sənəd qorunub saxlanılır. Diviziya bir neçə gün ərzində Berlin Universitetini, daxili işlər, maliyyə nazirliklərini və bir neçə strateji vacib yeri tutur. 2 may 1945-ci ildə Berlinin alınması zamanı polkovnik Rəşid Məcidovun rəhbərliyi altında 416-cı diviziyanın əsgərləri Brandenburq qapısı üzərində sovet bayrağını dalğalandırırlar. Bayrağı sancan digər azərbaycanlı isə Ələkbər Məcidov olur. Həmin günlərdə Brandenburq qapıları önündə keçirilmiş mitinqdə general V.P.Züvanov çıxış edərək deyir: "Berlin uğrunda tarixi döyüşdə sonuncu güllə məhz burada - Brandenburq qapıları önündə atıldı. Bu sonuncu gülləni də məhz qəhrəman Azərbaycan xalqının övladları atdı".

İkinci Dünya müharibəsində əsgərləri ilə ən təhlükəli əməliyyatlara qatılan Rəşid Məcidov bütün döyüşlərdən uğurla çıxmışdır. Polkovnik haqqında olan yazılarda bir məqam da diqqətimizi cəlb etdi. İllər sonra Rusiyada ermənilər Məcidovla bağlı faktları saxtalaşdırmağa çalışırlar. Onlar iddia edirlər ki, guya Berlinin azad olunmasında yalnız erməni atıcı diviziyası iştirak edib. Lakin arxiv materialları, sənədlər, generalların, böyük sərkərdələrin çıxışları, xatirələri bu iddiaların yalan olduğunu üzə çıxarır.

Polkovnik söhbətlərində müharibəni xatırlamağı xoşlamadığını söləyirdi: "Müharibə səbirsizliklə və qorxu ilə gözlənilən məktublardır, şərə və ölümə xüsusi nifrətdir. Müharibə zamanı mənim nəslim sevməyi və inanmağı, nifrət və inkar etməyi, gülməyi və ağlamağı öyrəndi. Dinc günlərdə, adətən, dəyərini itirən, adi hala çevrilən çox şeylərin qədrini bilməyi dərk etdi".

Polkovnik Rəşid Məcidov müharibə zamanı hərbi xidmətə görə "Qırmızı Ulduz", iki dəfə "Qırmızı Bayraq", I və II dərəcəli Vətən Müharibəsi ordenləri ilə təltif olundu.

Vətən savaşından sonra azərbaycanlı zabit Gürcüstan SSR-in Vaziani kəndində artilleriya alayı heyətinə başçılıq etdi. Daha sonra Bakıda Milli Diviziyanın siyasi şöbəsinin rəhbəri oldu. Bakı şəhəri Oktyabr Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işlədi, bir neçə ildən sonra isə Azərbaycan KP MK-nin inzibati orqanlar şöbəsinin müdiri təyin edildi və ömrünün sonuna qədər bu vəzifədə çalışdı. O, rəhbər işlərdə çalışdığı illərdə Azərbaycan SSR Ali Sovetinin III çağırışının deputatı seçilmiş və müxtəlif ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur. 1967-ci ildə Xankəndidə ermənilər azərbaycanlılara qarşı təxribat törətmək istəyəndə Rəşid Məcidov həmin təxribatın qarşısının alınmasında iştirak etmişdir.

Müharibə dövründə radiasiyalı ərazilərdə olan Rəşid Məcidov uzun illər leykemiyadan əziyyət çəkib. Bu səbəbdən də 1970-ci il iyulun 2-də vəfat edib. O, Bakının I Fəxri xiyabanında dəfn edilib.

## 416-cı Taqanroq diviziyası

416-cı milli diviziya cəbhədə 30 ay fasiləsiz döyüşlər aparmış, Bakıdan Berlinə qədər minlərlə kilometr yol qət etmiş, 6 Avropa ölkəsindən - Rumıniyadan, Bolqarıstandan, Yuqoslaviyadan, Macarıstandan, Avstriyadan, Çexoslovakiyadan və 50-dən çox böyük və orta çaydan keçərək düşmənin 23 mindən çox canlı qüvvəsini, 28 hərbi təyyarəsini, 113 tankını və zirehli maşınını, 549 səhra topunu, 311 minomyotunu, 1152 pulemyotunu, 200 avtomaşınını, 219 parovozunu, 7400 vaqonunu, 70 anbarını məhv etmiş, küllü miqdarda qənimət ələ keçirmişdi.

Diviziyanın 1368-ci atıcı alayı "Qırmızı Bayraq" ordeni, 1054-cü topçu alayı "Suvorov" ordeni, 444-cü əlahiddə topçu divizionu "Boqdan Xmelnitski" ordeni, 348-ci əlahiddə sanitar batalyonu "Qırmızı Bayraq" ordeni ilə təltif edilmişdi. Diviziyanın 14396 nəfər əsgər və komandiri də keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuşdular. Komandir və əsgərlərin bir çoxuna xarici ölkələrin orden və medalları verilmişdi.

416-cı Taqanroq diviziyasını bu sətirlərin müəllifi üçün dəyərli edən faktlardan biri də odur ki, digər cəsur soydaşlarımızla yanaşı, atam Əbdül Zeynalov da bu diviziyanın tərkibində Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş, "Qırmızı bayraqlı" və "Suvorov" ordenli 1054-cü artilleriya polkunda vuruşmuşdu. Apardıqları döyüşləri, göstərdikləri qəhrəmanlıqları ömrünün sonuna kimi maraqlı bir hekayə kimi nəql edirdi. O, diviziyanın döyüşçülərinin təkcə şücaətindən deyil, dostluğundan, döyüş ruhundan, mətinliyindən, çətin günlərdə mənən, iradəcə yenilməzliyindən heyranlıqla danışırdı. Belə insanların öz ömürləri ilə yaratdıqları nümunələr xalqın ruhunu hər zaman oyaq saxlayır.

416-cı diviziyanın döyüş yolu üzərindəki müxtəlif şəhərlərdə onun qələbələri şərəfinə xatirə abidələri ucalıb. Taqonroq şəhərinin yaxınlığındakı Sanbek yüksəkliyində diviziyanın xatirə ansamblı yaradılıb. Taqonroqda, Kiyevdə, Nikolayevdə, Odessa şəhərlərində və Moskvada bu diviziyaya həsr olunmuş şöhrət muzeyləri təşkil edilib. Bütün bunlar Azərbaycan tarixinin daha bir şanlı səhifəsidir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Barıt qoxulu, qələbəyə səsləyən musiqi əsərləri




**1941-ci il iyunun 22-də Almaniyanın SSRİ-yə hücum etməsi xəbəri yayıldı. İldırımsürətli müharibə planına əsaslanan alman qoşunlarının qəfil zərbəsi ağır oldu. Sovet ordusu məğlubiyyətlə üzləşdi.**




Sovet İttifaqına daxil olan respublikalarda səfərbərlik elan olundu. Azərbaycan da ittifaqın tərkibində 1945-ci ilin mayınadək davam edən bu müharibədə iştirak etdi.

Müharibə mövzusu ilk günlərdən yazıçıların, şairlərin, bəstəkarların, rəssamların yaradıcılığında başlıca mövzuya çevrildi. Onlar həm döyüş meydanlarında, həm də arxa cəbhədə şücaət, əzmkarlıq göstərən insanları vətənpərvərlik duyğulu, Qələbə ümidli əsərlərlə ruhlandırmaq üçün şair Səməd Vurğunun yazdığı kimi, müsəlləh əsgər oldular.

## Dillər əzbərinə çevrilən mahnılar

1941-1945-ci illərdə baş verən dəhşətli müharibə Azərbaycan bəstəkarlarının həyat və yaradıcılığına böyük təsir göstərdi. Musiqiçilərimizdən cəhbəyə gedənlər, döyüşlərdə iştirak edənlər, geri qayıtmayanlar oldu. Lakin çoxu arxa cəbhədə fəaliyyətlərini davam etdirdi.

Müharibə illərində Azərbaycan Bəstəkarlar İttifaqına dahi bəstəkar Üzeyir bəy Hacıbəyli rəhbərlik edirdi. Üzeyir bəy başda olmaqla bəstəkarlarımız vətənpərvərlik ruhunda əsərlər



bəstələyirdilər. Həmin dövrdə Üzeyir bəyin "Şəfqət bacısı", "Qələbə himni", Səid Rüstəmovun "Cəbhəyə", "İrəli", "Qəzəl", "Qəhrəmanlar marşı", Süleyman Ələsgərovun "Gözlə məni", Ağabacı Rzayevanın "Cəngi", "Vətən nəğməsi", "Dilbərim", "Gözlərin" və digər mahnılar dillər əzbəri oldu. Müharibə illərində, Əşrəf Abbasov, Şəfiqə Axundova, Niyazi və digər bəstəkarların da yazdıqları bir sıra mahnılar tezliklə məşhurlaşdı. Bu mahnılar cəbhələrdə əsgərlər qarşısında ifa edildi.

Müharibə illərində kütləvi mahnı janrı




dövrün tələblərinə uyğun olaraq xüsusilə inkişaf edirdi. Ancaq Azərbaycan bəstəkarları müharibə illərində yalnız kiçik həcmli musiqi janrlarına müraciət etmirdilər. Eyni zamanda müxtəlif janrda irihəcmli əsərlər bəstələyirdilər. Beləliklə, 1941-1945-ci illərdə Azərbaycan musiqisi bir çox simfonik əsərlərlə də zənginləşdi. Onların əksəriyyəti müharibə ilə əlaqədar yazıldı.

O illərdə yaradıcılığa yeni başlayan Qara Qarayevin, Cövdət Hacıyevin, Soltan Hacıbəyov kimi gənc bəstəkarların ilk simfoniyaları da müharibə mövzusunda idi. Müharibə illərində Moskva konservatoriyasının tələbələri olan Qara Qarayevin və Cövdət Hacıyevin birlikdə bəslədiyi dörd pərdəli "Vətən operası" (liberetto müəllifi İsmayıl Hidayətzadə) 1945-ci ildə Azərbaycan Opera və Balet Teatrında tamaşaya qoyuldu. Müəlliflər bu əsərə görə, Dövlət mükafatına layiq görüldülər.

Fikrət Əmirov müharibədə həlak olmuş bəstəkar İsrafil İsrafilzadənin xatirəsinə simfonik poema həsr etdi. 1941-ci ildə Əfrasiyab Bədəlbəylinin Boris Zeydmanla birgə "Xalqın qəzəbi", 1942-ci ildə Niyazi "Xosrov və Şirin" operalarını bəstələdilər.

## Geniş, işıqlı konsert salonlarını ölüm qoxulu soyuq səngərlər əvəz etdi

1941-1945-ci illər müharibəsində Azərbaycan Opera Teatrının repertuarı "Vətən", "Xosrov və Şirin" operaları, "Qız qalası" ilk milli baleti və başqa əsərlərlə zənginləşdi.

Həmin dövrdə Soltan Hacıbəyovun "Qızılgül", Fikrət Əmirovun "Ürək çalanlar" və "Gözün aydın", Səid Rüstəmovun "Durna" kimi əsərləri Musiqili Komediya Teatrının repertuarına daxil edildi və qısa müddətdə tamaşaçı kütləsinin rəğbətini qazandı.



Həmin illərdə böyük mütəfəkkir şair Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıqla əlaqədar musiqi əsərləri yazıldı. Müharibə dövründə Üzeyir bəy Hacıbəyli dahi şairin sözlərinə "Sənsiz" və "Sevgili canan" romanslarını bəstələdi. Üzeyir bəy Hacıbəyli bununla yeni qəzəl-romans janrının əsasını qoydu.

1944-cü il dekabrın axırında Tbilisi şəhərində keçirilən Zaqafqaziya respublikalarının sovet musiqisi dekadasında Azərbaycan musiqi sənətinin yaradıcılıq nailiyyətləri nümayiş



olundu. Tədqiqatçılar dekadada Azərbaycan musiqisindən ibarət konsertlərin ölkənin ən görkəmli musiqi xadimləri və sovet ittifaqına daxil olan digər respublikaların geniş ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini qeyd edirlər.

Araşdırıcılar bildirirlər ki, Sovet Azərbaycanının bəstəkarları təkcə 1941-1945-ci illər müharibəsi dövründə 400-dən çox böyük və kiçik formalı əsər yaratdılar ki, onların 25-dən çoxu simfonik əsər idi. Həmin əsərlərdən 8-i dekadada ifa olunmaq üçün seçildi.

Demək olar ki, müharibənin başlaması musiqiçilərimizin, müğənnilərimizin həyatını dəyişdi. Onların çıxış etdikləri geniş, işıqlı konsert salonlarını ölüm qoxulu soyuq səngərlər əvəz etdi. Azərbaycanın musiqi və teatr kollektivləri təşviqat məntəqələrində, hospitallarda çıxış edirdilər. Bəstəkarlar Cahangir Cahangirov, Səid Rüstəmov, Niyazi, müğənnilər Şövkət Ələkbərova, Bülbül, Sara Qədimova və başqaları ardıcıl olaraq cəbhəyə yollanır, Belarus, Bryansk və digər istiqamətlərdə Azərbaycan diviziyalarının döyüşçüləri qarşısında çıxışlar edirdilər. Azərbaycan teatrlarının aktyorları Kerçdə, Voroşilovqradda onlarla konsert-tamaşalar göstərirdilər.

1941-1945-ci illər müharibəsi başa çatanadək musiqi əsərləri insanları qələbəyə səsləyən, ruhdan düşməyə qoymayan qüdrətli vasitəyə çevrildi. Müharibədən sonra Azərbaycan musiqi sənətinin uğurları davam etdi, yeni əsərlər yarandı.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

1945 **Faşizm üzərində qələbədən 78 il keçir** 2023

# 9 May Qələbəsindən 8 Noyabr Zəfərinə

Bu gün faşizm üzərində tarixi qələbədən 78 il ötür. 1941-1945-ci illər ərzində həm ön, həm də arxa cəbhədə misilsiz qəhrəmanlıq və fədakarlıq göstərərək faşizm üzərində qələbənin əldə olunmasına böyük töhfələr verən Azərbaycan xalqı hər il 9 May - Qələbə Gününü bayram kimi qeyd edir.

Vətən müharibəsində qazandığımız parlaq qələbədən sonrakı üç ildə isə bu tarixi həm də 8 Noyabr Zəfəri sayəsində erməni faşizminin başını əzməyimizin qüruru ilə böyük coşqu və təntənəylə keçiririk.



## Qafqazdan Berlinədək uzanan qələbə yolu

Azərbaycan xalqı faşizm təhlükəsinin dünyanın başını aldığı ilk zamanlardan etibarən ona qarşı mübarizəyə qalxıb, sözün həqiqi mənasında, yaşlısından gəncinə, qadınından uşağına qədər hər kəs bu uğurda müsəlləh əsgərə çevrilib.

Həmin vaxt Azərbaycan xalqı 600 min oğul və qızını ön cəbhəyə yola salıb, Azərbaycan diviziyaları Qafqazdan Berlinədək başdan-başa qəhrəmanlıqlarla dolu döyüş yolu keçiblər. Eyni zamanda yüzlərlə həmyerlimiz partizan dəstələrinin tərkibində faşizmə qarşı uğurlu mübarizə aparıb. Həzi Aslanov, Mehdi Hüseynzadə, Aliyə Rüstəmbəyova, İsrafil Məmmədov, Qafur Məmmədov kimi minlərlə igid Azərbaycan övladının şücaəti hələ də dillərdə dastandır.

Bu tarixi qələbənin qazanılması uğrunda düşmənlə çarpışan 300 mindən çox igid oğul və qızımız döyüşlərdə qəhrəmanlıqla həlak olub.

Müharibə zamanı göstərdikləri igidliyə görə, Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

## Bakının qara qızılı müharibənin taleyini dəyişdi

O ağır illərdə Azərbaycan xalqı həm də arxa cəbhədə gecə-gündüz demədən çalışaraq düşmənlə mübarizəyə sanballı töhfələr verib. Müharibənin gedişatını isə heç şübhəsiz Bakının qara qızılı dəyişib, bu qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Həmin vaxt Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub. Bu baxımdan tam əminliklə demək olar ki, əgər Azərbaycan nefti olmasaydı, müharibənin necə nəticələnəcəyini demək çətin olardı.

Faşizm üzərində qələbənin qazanılmasında Azərbaycanın böyük rolu olduğunu xüsusi vurğulayan Ulu Öndər Heydər Əliyev deyirdi: "Bu qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur".

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş qəhrəman oğul və qızlarımızın tarixi şücaətləri, eyni zamanda arxa cəbhədə gecə-gündüz fədakarlıqla çalışan xalqımızın nümayəndələrinin xidmətləri ölkəmizdə daim fəxr və ehtiramla yad edilir, dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

## Yüksək ehtiram, böyük qayğı

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra 9 May - Qələbə Günü rəsmi dövlət bayramı səviyyəsində qeyd edilməyə, müharibə veteranlarına hərtərəfli diqqət və qayğı göstərilməyə başlanıb. Ulu Öndərin hər il müharibə veteranları ilə görüşməsi, onların qayğı və problemləri ilə yaxından maraqlanması, bu məsələlərin həlli üçün göstərişlər verməsi bu gün də yaddaşlardadır.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədəki sosial böhrandan yaxa qurtarılması sayəsində müharibə veteranlarının da həyatlarında yaxşı mənada dönüş yaranıb, onlar mənzil və avtomobillərlə təmin olunublar.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev hər il Qələbə Günündə İkinci Dünya müharibəsində qəhrəmanlıqla vuruşmuş Azərbaycanın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad edir, müharibə veteranları ilə görüşür, onları bayram münasibətilə təbrik edir. Həmçinin dövlət başçısı müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır.

Bu il faşizm üzərində qələbənin 78-ci ildönümündə də Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə min beş yüz manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına yeddi yüz əlli manat məbləğində birdəfəlik maddi yardım verilib.

## Erməni faşizminin belini qırdıq

İkinci Dünya müharibəsində Azərbaycan oğul və qızlarının faşizmlə mübarizə uğrunda nümayiş etdirdikləri qəhrəmanlıqlar gənc nəslə vətənpərvərlik örnəyi olub.

Elə Vətən müharibəsində də babalarımızın hünərləri ilə hər zaman fəxr edən igid oğullarımız faşist xislətli erməniləri qarşılarında diz çökdürüblər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 illik erməni işğalına cəmi 44 günə son qoyan rəşadətli Azərbaycan Ordusu həm də erməni faşizmini məhv etdi.

"Biz erməni faşizminin başını əzdik", - deyə 2020-ci il dekabrın 24-də Zəngilan rayonundan qalib sərkərdə İlham Əliyev bir daha dünyaya bəyan etdi ki, biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub bizim qabağımızda diz çöküb və düzgün nəticə çıxarmalıdır.

Bəli, artıq Azərbaycan xalqı üçüncü ildir ki, 1941-1945-ci illər müharibəsində faşizm üzərində 9 May Qələbə Gününü 8 Noyabr Şuşa Zəfərinin fəxarəti, qürur hissi ilə böyük coşqu ilə qeyd edir.

Bir daha düşmənlərinə mesaj verir ki, bu qəhrəman xalq hər zaman faşizmin başını "dəmir yumruğ"u ilə əzməyə hazırdır!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Böyük Vətən müharibəsində Azərbaycan neftçiləri əsl fədakarlıq göstərmişlər

Böyük Vətən müharibəsi illərində faşizm üzərində tarixi qələbənin əldə edilməsində Azərbaycan xalqı istər ön, istərsə də arxa cəbhələrdə qəhrəmancasına iştirak etmiş, misilsiz fədakarlıqlar göstərmişdir. Keçmiş Sovet İttifaqı və bütün Avropanın alman faşizmi üzərində qələbə qazanmasında Azərbaycan neftçilərinin xüsusi rolu və xidməti olmuşdur. Müharibə illərində neftçilərimizin nümayiş etdirdikləri fədakarlıq əsl qəhrəmanlıq nümunəsi idi və bu sonrakı nəsillər tərəfindən həmişə, o cümlədən bu gün də böyük ehtiramla yad edilir.



Bakı 1941-1945-ci illərin Böyük Vətən müharibəsində keçmiş SSRİ-nin yanacağa olan ehtiyacının 80 faizindən çoxunu ödəyən nadir şəhər olmuşdur. Lakin müharibə tarixi qələbə ilə başa çatdıqdan sonra bu şəhərin rolu və xidməti layiqincə qiymətləndirilmədi. Ona layiq olduğu qəhrəman şəhər adı verilmədi.

Həmin müharibə illərində neft hasilatı və emalı üzrə əmək cəbhəsində çarpışan Azərbaycan neftçiləri müharibənin bütün çətinliklərinə mərdliklə sinə gərərək misli görünməmiş rəşadət nümayiş etdirmiş və ölkənin yanacağa olan bütün ehtiyaclarını ödəmişdilər. Müharibə illərində Azərbaycanın veteran neftçiləri sağlıqlarında həmin çətin, soyuq və qıtlıq illərini xatırlayaraq qeyd edirdilər ki, o dövrdə Bakının neft mədənlərində üçnövbəli iş tətbiq edilmişdi. İki növbədə işləmək bütün neftçilər üçün mütləq idi. Bir çoxları isə cəbhəyə yola düşmüş yoldaşlarını da əvəzləyərək üç növbədə çalışırdılar.

Bu illərdə əvvəlcə ön cəbhədə döyüşmüş, sonra isə taleyin hökmü ilə arxa cəbhədə neft hasilatı sahəsində çalışmış veteran cəbhəçi-neftçilər xatirələrində xüsusi vurğulayırdılar ki, bəzən insana arxa cəbhədə, neft mədənlərində işləmək ön cəbhədə döyüş əməliyyatlarında iştirak etməkdən daha çətin gəlirdi. Həmin ağır illərdə ön cəbhədə vətənin keşiyində dayanmış əsgərlərə qabaqcadan təyin edilmiş gündəlik ərzaq payı (payok) mütləq ayrılırdı. Arxa cəbhədə alman faşızminə qarşı döyüşən bütün cəbhələri yanacaqla təmin etmək üçün gecə-gündüz çarpışan Azərbaycan neftçiləri əgər tapardılarsa, bir tikə qara çörəklə kifayətlənərdilər, bir çox halda isə o da olmurdu. Amma bütün güclərini səfərbər edib çalışırdılar.

O ağır illərdə Bakı ölkəyə tələb olunan neftin 70-75 faizini, benzinin isə 85-90 faizini verirdi. SSRİ-nin müharibədə iştirak edən bütün motorlu hərbi texnikası əsasən Bakının istehsal etdiyi yanacaqla işləyirdi. Tarixdə misli görünməmiş sayda motorların və texnikanın cəlb edildiyi müharibədə keçmiş Sovet İttifaqının əsas duru yanacaq-neft bazası olan Bakının rolu əvəzedilməz idi. Bakı nefti hərbi strateji əhəmiyyə malik məhsul kimi həyati əhəmiyyət kəsb edirdi.

Müharibə illərində Azərbaycanın təkcə neft sənayesi deyil, iqtisadiyyatının bütün sahələri bu ağır dövrün tələblərinə uyğun qurulmuşdu. Bakı döyüşən ordunun əsas cəbbəxanalarından birinə çevrilmişdir. Şəhərdə neft istehsalı və emalı ilə yanaşı, "Katyuşa" raketi, "Şpakin pulemyotu" istehsal edilir, "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Müharibə illərində Bakıda 130-dan çox silah və onun hissələri hazırlanırdı.

Müharibə dövrünün tanınmış hərbi sərkərdələri Azərbaycan neftinin rolunu və əhəmiyyətini çox yüksək qiymətləndirirdilər. Məsələn, Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə əlaqədar 1-ci Belarus cəbhəsi qoşunlarının komandanı, Sovet İttifaqı marşalı G.Jukov 1945-ci ilin aprelində Azərbaycan zəhmətkeşlərinə göndərdiyi təbrik teleqramında neftçilərin ağır zəhmətini yüksək qiymətləndirərək qeyd edirdi: "Azərbaycan zəhmətkeşləri özlərinin qəhrəmancasına fədakar əməyi ilə Vətənimizin müdafiəsi və hərbi müvəffəqiyyətlərin əldə edilməsi işinə son dərəcə mühüm xəzinə daxil etdilər. Bakı neftçiləri düşmən üzərində qələbənin tezliklə əldə edilməsi üçün cəbhəyə və ölkəyə tələb olunan qədər yanacaq verirdilər". Azərbaycan neftçilərinin 1941-1945-ci illər müharibəsindəki rəşadətli əməyi 2-ci Ukrayna cəbhəsi qoşunlarının komandanı, Sovet İttifaqı marşalı R.Malinovski tərəfindən də yüksək qiymətləndirilmişdir. R.Malinovskinin 2-ci Ukrayna cəbhəsi qoşunlarının döyüşçüləri, zabitləri və generalları adından Azərbaycan xalqına göndərdiyi təbrikdə deyilirdi: "...2-ci Ukrayna cəbhəsi qoşunlarının döyüşçüləri Bakı neftçilərinin və bütün Azərbaycan zəhmətkeşlərinin misilsiz xidmətlərini yaxşı bilir və yüksək qiymətləndirirlər. Zaqafqaziyada inqilabi hərəkatın mərkəzlərindən biri olan Bakının, bu neft şəhərinin şöhrəti Böyük Vətən müharibəsi günlərində Azərbaycan xalqının qəhrəmancasına fədakar əməyi sayəsində daha da artmışdır. Sizin əmək fədakarlığınız bizim müqəddəs torpaqlarımızdan qaniçən faşistləri qovmuş Qızıl Ordu döyüşçulərinin ölməz qəhrəmanlıqları ilə daha da artırılmışdır".

Sovet İttifaqı marşalı F.İ.Tolbuxinin 1945-ci il aprelin 28-də "Bakinski raboçi" qəzetində dərc edilmiş "Azərbaycan xalqına eşq olsun!" başlıqlı məqaləsində isə qeyd edilirdi: "Hazırkı müharibə - hərb tarixində indiyə qədər misli görünməyən, həddindən artıq tətbiq edilmiş motor və texnikanın müharibəsidir. Motorlarn fasiləsiz olaraq işləməsini təmin etməkdən ötrü neft və neft məhsulları müstəsna əhəmiyyət kəsb edir... Qızıl Ordu əldə etdiyi bir çox qələbələrinə görə Azərbaycan xalqına, hərbi hissələri vaxtlı-vaxtında əla yanacaqla təmin edən qəhrəman Bakı neftçilərinə borcludurlar. Stalinqrad ətrafında, Donda və Donbasda, Dneprdə və Dnestrin o tayında, Belqradda, Budapeşt və Vena ətrafında bizim cəbhənin döyüşçüləri - təyyarəçilər, tank və özüyeriyən top avtomobillərinin sürücüləri Azərbaycan neftçilərini minnətdarlıqla yad edir, neft şəhəri olan Bakının qəhrəman zəhmətkeşlərini alqışlayırlar... Bütün qüvvə və bacarığını, təcrübəsini yüksək keyfiyyətli yanacağın istehsal edilməsinə sərf edən Bakı qəhrəmanlarına eşq olsun!"

Böyük Vətən müharibəsi illərində neft mədənlərində fədakarcasına çalışmış on minlərlə azərbaycanlı neftçilərdən biri də Bahadur Umud oğlu Səfərov olmuşdur. O, 1942-ci ilin oktyabrında hərbi komissarlığın çağırışı ilə cəbhəyə yollanmış, Şimali Qafqaz uğrunda gedən döyüşlərdə ağır yaralanaraq hərbi hospitala yerləşdirilmişdir. Müalicədən sonra Bahadur Səfərov arxa cəbhəyə, Bakıya neft mədənlərinə göndərilmişdir. O, 1944-cü il avqustun 2-də "Stalinneft" trestində 2-ci dərəcəli fəhlə kimi işə qəbul edilmiş, 1944-cü ilin oktyabrında "Stalinneft" trest rəhbərinin 120 nömrəli əmri ilə elektrik motorlarının təmiri üzrə 3-cü dərəcəli elektrik montyoru vəzifəsinə təyin edilmişdir. 1944-1954-cü illərdə həmin trestdə çalışmışdır. Fədakar neftçi 1966-cı ildə elektrotəmir emalatxanasında elektromontyor-sarıyıcı və izolyasiyaçı vəzifəsində əmək fəaliyyətini davam etdirmişdir.

Bahadur Səfərovun Böyük Vətən müharibəsi illərindəki fədakar əməyi yüksək qiymətləndirilmişdir. O, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il tarixli fərmanı ilə "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyə görə" medalı ilə təltif edilmişdir. Həmin mükafat 1945-ci il dekabrın 20-də 1 Bakı şəhəri Stalin rayonu icraiyyə komitəsinin sədri tərəfindən şəxsən təqdim olunmuşdur. Bahadur Səfərov neft mədənlərində işlədiyi vaxtlarda təcrübəli və bacarıqlı, zəhmətsevər usta kimi neftçilər arasında böyük hörmət və nüfuz qazanmışdır. O, ayrı-ayrı illərdə iki dəfə - 1965-ci ildə Bakı Şəhər Sovetinə, 1969-cu ildə Bakı şəhəri 26 Bakı komissarı adına rayon sovetinə deputat seçilmişdir. Veteran neftçi müharibədən sonrakı dövrlərdə də sosializm quruculuğu sahəsində xüsusi xidmətlərinə - sosialist öhdəliyi planını artıqlaması ilə yerinə yetirdiyinə görə, 1971-ci və 1974-cü illərdə ölkənin yüksək mükafatlarından sayılan "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Fədakar neftçi ölkə qarşısındakı əməyinə görə, SSRİ-nin digər mükafat və medalları ilə də təltif edilmişdir. Onun fasiləsiz olaraq 58 il davam etmiş rəşadətli əmək yolu 2002-ci ilin mayında başa çatmışdır. Yaşla əlaqədar öz xahişi ilə təqaüdə çıxmışdır.

2005-ci ilin mayında "Bibiheybət" Neft-Qazçıxarma İdarəsində Böyük Vətən müharibəsi veteranlarının şərəfinə təntənəli təbrik şənliyi keçirilmişdir. Həmin tədbirə 20 keçmiş cəbhəçi-neftçi dəvət olunmuşdur. Dəvət olunanlar sırasında Bahadur Umud oğlu Səfərov da yer almışdır. Tədbirdə xüsusi vurğulanmışdır ki, 1941-1945-ci illərdə çıxarılmış 75 milyon ton Bakı neftinin 15 tonu "Bibiheybət" neft mədənlərindən çıxarılmışdır. O vaxtlar rəşadətli neftçilər sutkada 15-16 ton neft təhvil verirdilər. Çox çətin, soyuq və aclıq illərində almanlar fədakar neftçiləri sındıra bilmədilər. Onlar həyatın bütün çətinliklərinə mərdliklə sinə gərərək dözümlük nümayiş etdirdilər.

Bahadur Səfərov öz döğma vətəninə və xalqına, seçdiyi işə sədaqətlə xidmət etmiş və üzün müddət gənc neftçi kadrlara parlaq nümunə olmuşdur.

2007-ci il noyabrın 5-də Azərbaycanın layıqli vətəndaşı, neftçi Bahadur Umud oğlu Səfərov 85 yaşında vəfat etmişdir. Həyatı boyu fədakarcasına çalışmış veteran neftçilərin əməyi indiki gənc nəsil tərəfindən heç vaxt unudulmur, böyük hörmət və ehtiramla yad edilir.

***Rafiq SƏFƏROV,***
***Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin baş məsləhətçisi***

# Oxşar talelər

## Babalar XX əsrdə alman, nəvələr XXI əsrdə erməni faşizminə qalib gəlmişlər

Müharibə qan-qadadır, ölüm-itimdir. Müharibə yaddaşların daş ömrü, isti arzuların soyuq məzarıdır. Bəşər yaranandan müharibə bu "atribut"ları özündə daşıyan fəlakət olaraq insanlığın törətdiyi qorxu və dəhşətdir.



İbtidai icma dövründə silahı daş-kəsək olan müharibə əsrlərlə yol gələrək "inkişaf" edib. Bu gün o, atom, hidrogen bombaları ilə silahlanıb, ən müasir hərbi texnika ilə yüklənib, üstəlik dayanmaq da bilmir. Və nə sirdirsə, qarşısını almaq da mümkün deyil. Savaşlar getgedə daha qəddar olur.

Amma bu qəddarlığın fonunda müharibə zamanı bir məqam da olur. Bu, döyüşçü məktublarıdır. Cəbhədən göndərilən bu xoşxəbərli məktublar ünvanına çatanda onu alan adamın həsrətinə son qoyur, içinə axan göz yaşlarını saxlayır. Doğrudur, müasir müharibələrdə qələm-kağızla yazılmış məktublara ehtiyac olmur. Bunun üçün müharibənin qaydaları çərçivəsində başqa yollar var. Necə deyərlər, dəyişən məktublaşmanın formasıdır, məzmunu yox.

1941-1945-ci illərdə faşist Almaniyası ilə müharibə aparan sovet döyüşçülərinin yazdığı məktublar indi muzeylərdə sərgilənir. Qəribədir ki, o dövrdə cəbhə məktubları üçkünc olurdu. Heç bir yapışqandan istifadə edilmirdi. Səbəb həmin vaxtlar kağızdan dolayı qıtlıq çəkilməsi deyildi. Məktubların zərfsiz göndərilməsində məqsəd o idi ki, xüsusi poçt işçiləri onu açıb oxuya bilsinlər. Müharibədir, əsgər lazım olmayanları da yaza bilər. Bəli, o vaxt poçt şöbələrində hərbi senzura fəaliyyət göstərirdi. Məktublar ünvanlarına göndərilməmişdən əvvəl hərbi senzura oxuyub, üstünə "Hərbi senzura tərəfindən baxılıb" sözləri yazılmış möhür vururdu. Bunlardan əlavə, üçkünc məktublarda göndərənin ünvanı da olmurdu. Hamısının üstündə ünvan yerinə "səhra poçtu" yazılırdı.

1941-1945-ci illərdə yazılan bu cür üçkünc məktubların sayı 7 milyarddan çox ollmuşdu. Həmin illər istər cəbhədəki səhra poçtlarında, istərsə də yerli poçtlarda çalışanlar böyük qəhrəmanlıq göstərirdilər. Nə olur-olsun - boran, tufan qopsun, qar yağsın, sel düşsün - məktublar ünvanlarına vaxtında çatdırılmalı idi. Gözü yolda qalanların, qulağı səsdə olanların həsrətinə son qoyacaq bu məktublar qızıldan qiymətli idi. Hər məktub bir ümid idi. O dövrün poçtalyonları ailələrə sevinc paylayan, ümid bəxş edən ən arzuolunan insanlar idi. Süleyman Rüstəm "Ana və poçtalyon" şeirində bu həsrəti, bu narahatlığı poetik dillə çox dəqiq təsvir edib.

Lakin poçtalyonlar hər zaman sevinc bəxş etmirdilər. Onlar bəzən çantalarında günlərlə məktub gəzdirərdilər, "qara kağızlar"ı ünvana çatdırmağa ürək etmirdilər. Dünən xoş xəbərlər carçısı olan poçtalyon bu gün qara xəbər daşıyıcısına çevrilmək istəmirdi. "Tütək səsi" filmindəki Səidə həmin əzablarla yaşayan poçtalyon obrazıdır.

Maraqlıdır ki, həmin üçkünc "qara kağızlar" birbaşa hərbi komissarlıqlara ünvanlanırdı. Komissarlıqlar isə onun əslini saxlayıb ailələrə surətini göndərirdi. Həmin "qara kağızlar" da həlak olan əsgərin əzizlərinin, doğmalarının ömürlük "yol yoldaşına" çevrilirdi.

İkinci Dünya müharibəsi ilə Azərbaycanın Vətən müharibəsini 80 ildən çox bir zaman ayırır. Amma onları ayıran təkcə zaman deyil. Beş il davam edən 1941-1945-ci illər müharibəsi ilə müqayisədə 44 gün davam edən Vətən müharibəsi bizim üçün daha müqəddəsdir. Çünki biz müstəqil Azərbaycan olaraq son ikiəsrlik tariximizdə itirilən ərazilərimizi qaytarmışıq. Və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həmin əraziləri İkinci Dünya müharibəsində faşizmə qarşı qəhrəmanlıqla döyüşmüş Azərbaycan əsgər və zabitlərinin nəvə-nəticələri azad etmişlər. O nəvə-nəticələr kimi onların da taleyinə faşizmə, lakin bu dəfə erməni faşizminə qarşı mübarizə aparmaq düşmüş və onlar da babaları kimi həmin mübarizədən qalib çıxmışlar.

O ki qaldı başlanan müharibənin ilk günlərindən Qarabağda döyüşən əsgərlərimiz üçün "Əsgərə məktub!" layihəsinə, bu layihə çərçivəsində yazılan məktublar əsgərlərimizə əlavə güc-qüvvət verir, Vətən sevgisini alovlandırırdı.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Daily Tribune" qəzeti: "Laçın" nəzarət-buraxılış məntəqəsi sülh və sabitlik üçün yaradılıb"

*Əvvəli 1-ci səh.*

Bu fürsətdən istifadə etmək üçün Qərb Azərbaycanın baxışlarının əsaslandığı təkzibedilməz faktları daha yaxşı dərk etməlidir. Təəssüf ki, Ermənistan, erməni diasporu və onların xaricdəki havadarları son vaxtlar bu faktları gözdən salmaq üçün təbliğat kampaniyasına başlayıblar. Kampaniyanın bilavasitə məqsədi Amerika və Avropanın Bakıya təzyiq göstərməsinə nail olmaqdır. Daha uzunmüddətli məqsəd isə 2020-ci ilin noyabrında Ermənistanın müharibədə məğlubiyyətini etiraf etməsi ilə başlayan sülh prosesini alt-üst etməkdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfiri Şahin Abdullayevin bu ölkənin "Daily Tribune" qəzetində dərc olunmuş məqaləsində yer alıb.

"Nəzarət-buraxılış məntəqəsi gələcək sülh və sabitlik üçün yaradılıb" sərlövhəli məqalədə ermənilərin "Laçın" sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə bağlı dezinformasiya kampaniyası həyata keçirdikləri vurğulanıb. Qeyd edilib ki, halbuki 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı imzalamaqla Ermənistan yenə reallığı qəbul edib və sülhün bərqərar olması ilə razılaşıb. Lakin buna baxmayaraq, həmin vaxtdan etibarən Ermənistan Laçın-Xankəndi yolundan Azərbaycanın mineral ehtiyatlarını talan edərək daşımaq, Qarabağda hərbi qüvvələrini möhkəmləndirmək, mina və silah-sursat daşımaq, Azərbaycan ərazilərində istehkamlar qurmaq üçün istifadə edib. Mina təhlükəsi hazırda da davam edir və 44 günlük Vətən müharibəsindən sonra 299 nəfər Azərbaycan vətəndaşı mina partlayışlarının qurbanı olub. Bu, sülhə hazırlaşan bir ölkənin hərəkətləri ola bilməz və bu taktika Azərbaycana çox tanışdır.



A checkpoint established for future peace and stability

SHAHIN ABDULLAYEV

The South Caucasus is the crossroads between resource-rich Central Asia and resource-hungry European economy. Peace between Armenia and Azerbaijan will foster the prosperity not just of the Armenians and Azerbaijanis but of all Eurasia. The resounding victory of Azerbaijan in the Second Karabakh War of 2020 created an historic opportunity to turn the page, to leave hostilities behind and normalize relations based on international law.

To seize this opportunity, the West must acquire a better awareness of the irrefutable facts on which the Azerbaijani views are based. Unfortunately, Armenia, its diaspora and foreign supporters have recently launched a propaganda campaign designed to obscure these facts from view. The immediate goal of the campaign is to bring American and European pressure to bear on Baku. The longer-term goal is to scuttle the peace process that began in November 2020, when Armenia acknowledged its defeat in the war.

The disinformation campaign focuses on events along the Lachin Road, linking Armenia with the Karabakh region of Azerbaijan, and it advances two main claims. First, that "blockade" of the road, which began on Dec. 12 by Azerbaijani environmental activists created a humanitarian disaster, endangering the lives of about 25 thousand ethnic Armenians in Karabakh.

Since April 23rd the units of the State Border Service of Azerbaijan established a border crossing point in its sovereign territories, on the border with Armenia, at the beginning of the Lachin-Khankendi to ensure transparency of road traffic, the rule of law, and, thus, the safety of traffic

Yazıda məhz bu qanunsuz fəaliyyətlərin qarşısının alınması, hərəkətin təhlükəsizliyinin, qanunun aliliyinin təmin olunması üçün Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələrinin aprelin 23-də Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi quraşdırdığı qeyd edilib. Yazıda Ermənistanın Azərbaycanın bu addımı ilə əlaqədar əsassız iddiaları tutarlı arqumentlərlə alt-üst edilib. Yazıda Azərbaycanın humanitar məqsədlər üçün maneəsiz hərəkətə şərait yaratdığı vurğulanıb, bu baxımdan Ermənistanın iddialarının əsassız olduğu diqqətə çatdırılıb. Bundan başqa, Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirdiyi, 800 mindən çox insanın doğma yurdlarından didərgin düşdüyü, minlərlə insanın qətlə yetirildiyi qeyd olunub. Bildirilib ki, təkcə indiki Ermənistan ərazisindən - tarixi dədə-baba torpaqlarından 250 mindən çox azərbaycanlı qovularaq etnik təmizləməyə məruz qalıb.

Müəllif Ermənistanın işğal etdiyi torpaqları qeyd-şərtsiz və dərhal tərk etməsinə dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərini yerinə yetirmədiyini vurğulayaraq, cəzasız qalmalarından istifadə edən ermənilərin etnik təmizləmə və vandalizm əməllərini davam etdirdiklərini bildirib. Qeyd olunub ki, ermənilərin vandalizm əməlləri nəticəsində şəhər və kəndlərimiz yer üzündən silinib, tarixi-mədəni irsimiz dağıdılıb.

Məqalənin sonunda vurğulanıb ki, sağlam siyasətə əsaslanan reallıqlar yeni faciələrin qarşısını ala bilər. İrəvan xəyallara və fantaziyalara son qoymalıdır. Ermənistan və onun himayədarları Qarabağdakı erməni əhalidən məkrli məqsədləri naminə istifadə etməyi dayandırmalıdır. Sülh prosesinə mane olmağa çalışanlar reallıqları dərindən dərk edib, keçmişin dərslərindən nəticə çıxarması və sülh naminə cəsarətli addımlar atması üçün Ermənistana kömək edə bilərlər.

# "Xarıbülbül" Festivalının qonaqları Şuşaya toplaşırlar

"Xarıbülbül" Festivalının qonaqları Şuşaya toplaşırlar. AZƏRTAC xəbər verir ki, mayın 9-11-də keçiriləcək "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumu (Qaqauz Yeri), Özbəkistan, eləcə də Özbəkistanın Qaraqalpaqıstan Muxtar Respublikası, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti, Türkiyə, Türkmənistan təmsil olunurlar.







# AQTA satışa çıxarılan qablaşdırılmış sularla bağlı ciddi xəbərdarlıq edib

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ölkədə qida təhlükəsizliyinin təmin olunması və istehlakçı hüquqlarının müdafiəsi istiqamətində tədbirləri davam etdirir.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həyata keçirilən yoxlama nəzarət tədbirləri zamanı son vaxtlar bir sıra hallarda mərkəzləşdirilmiş su xəttindən verilən suyun müxtəlif filtrlərdən keçirilməklə qablaşdırılması və "Qida təhlükəsizliyi haqqında" qanunun tələblərini kobud şəkildə pozaraq üzərində müxtəlif təbiət mənzərələri, bulaq, çeşmə, dağ təsvirləri göstərməklə "təbii", "mineral", "müalicəvi" sözləri yazılmaqla satışa çıxarılması faktları aşkarlanıb.







Bu xüsusda ötən həftə Bakının Yasamal rayonunda Z.Xəlilov küçəsi, ev 3 ünvanında fəaliyyət göstərən "Araz su" içməli su emalı müəssisəsində plandankənar yoxlama həyata keçirilib və qanunsuz fəaliyyətin qarşısı alınıb. Aparılan nəzarət tədbirləri çərçivəsində "ÇEMP Su" və "Çuxuryurd İstisu" əmtəə nişanlı qablaşdırılmış sularda müvafiq qanunun tələbləri pozularaq "təbii", "mineral", "müalicəvi" və s. sözləri yazılmaqla satışa çıxarıldığı müəyyən olunub. Hazırda bununla əlaqədar qanunvericilik çərçivəsində zəruri tədbirlər həyata keçirilir.

AQTA bu cür məhsulların satışı ilə məşğul olan ticarət şəbəkələrinə xəbərdarlıq edərək bildirir ki, həmin məhsulların satışı dərhal dayandırılmalı və geri çağırılması ilə bağlı müvafiq tədbirlər həyata keçirilməlidir. Əks halda həmin suların satışını həyata keçirən ticarət müəssisələri barədə qanunvericilik çərçivəsində inzibati tədbirlər görüləcək.

İstehlakçılardan həmin suları istehlak etməmək, bu kimi hallarla rastlaşdıqda dərhal agentliyin 1003-Çağrı mərkəzinə məlumat verməleri xahiş olunur.

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin

## Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi ümumtəhsil müəssisələrinə "Digər malların alınması" xərc maddəsi üzrə malların satın alınması

## *məqsədilə tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qeydiyyatdan keçdiyi ölkə (Təqdim olunması məcburidir. Dövlət reyestrindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib, PDF formatında əlavə edilməlidit);*
- *nizamnamə (Təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd PDF formatında əlavə edilməlidir);*
- *rekvizitlər (Təqdim olunması məcburidir. Müvafiq sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təqdim olunması məcburidir. Son aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq edilmiş sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 01.05.2023-cü il tarixindən sonra alınmış arayış PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.05.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.05.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədəolma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 30 təqvim günü, ən geci 90 təqvim gününədək icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **13.06.2023-cü il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **22.06.2023-cü il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **23.06.2023-cü il saat 16:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

# 9 May "Avropa Günü"dür

## Köhnə qitə bu bayramı heç də yaxşı əhvali-ruhiyyədə qarşılamır

**Bu gün - 9 May tarixi Avropa İttifaqında "Avropa Günü"dür. Lakin bu bayramı Aİ heç də yaxşı əhvali-ruhiyyədə qarşılamır. Avropa İttifaqının gündəliyində duran əsas məsələlər enerji təchizatı problemlərinin həlli, yüksək inflyasiya, korrupsiya və qeyri-qanuni miqrasiyaya qarşı mübarizədir.**

1986-cı ildən etibarən hər il 9 May Avropa Günü kimi qeyd olunur. Məhz 1950-ci ilin bu günündə Aİ-nin yaradıcılarından biri olan Fransanın xarici işlər naziri Robert Şuman tərəfindən təklif edilən Şuman Bəyannaməsi qəbul olunub.

Avropa İttifaqı İkinci Dünya müharibəsindən sonra Avropa qitəsinə sülh gətirmək məqsədi ilə yaradılmışdır. Ötən ilin fevralından, Rusiya Federasiyası ilə Ukrayna arasında müharibə başlayandan sonra Aİ tarixinin ən çətin çağırışları ilə üzbəüzdür. Beləliklə, müharibə təxminən 80 ildən sonra Avropa qitəsinə qayıdıb və Aİ uzun illərdən sonra ilk dəfə olaraq iqtisadiyyatdan tutmuş energetikaya qədər bir çox sahələrdə problemlərlə qarşılaşıb.

Aİ ölkələrinin enerji resursları idxalının böyük hissəsi Rusiyanın payına düşürdü. Tarixin ən sərt anti-Rusiya sanksiyalarının tətbiqindən və Rusiya Federasiyasından idxaldan imtina edilməsindən sonra Aİ-də enerji qiymətləri əhəmiyyətli dərəcədə artıb.

Xüsusilə təbii qazın və elektrik enerjisinin qiymətləri xeyli qalxıb və Avropa dövlətlərinin hakimiyyət orqanları bütün səylərini enerji böhranının həllinə yönəldiblər. Vətəndaşlar istehlakı azaltmağa, o cümlədən evlərində temperaturu aşağı salmağa və işıqları söndürməyə çağırılıb.




Avropanın ən çox enerji tələb edən sənayelərində bəzi müəssisələr kommutatorlarını söndürüb, digərləri isə elektrik enerjisi və qaz qiymətlərinin yüksək olması səbəbindən fəaliyyətini dayandırıb.

Aİ ölkələri uzun illərdir ki, ətraf mühitin mühafizəsi siyasəti aparır və enerji təchizatının təhlükəsizliyi məsələsinə o qədər də diqqət yetirmirdilər. Lakin indiki vəziyyətdə onlar mövqelərini dəyişmək məcburiyyətində qalılbar. Belə ki, Aİ ölkələrində yüksək çirklənmə səviyyəsinə görə uzun illər istismar olunmayan kömür mədənləri və elektrik stansiyaları yenidən işə salınıb. Bir sıra ölkələr də öz növbəsində atom-elektrik stansiyalarının ömrünü uzatmaq qərarına gəlib və nüvə enerjisinə investisiya planları hazırlayıblar.

Avropa İttifaqı nisbətən mülayim qışdan ciddi fəsadlar olmadan çıxa bilib, lakin ekspertlərin fikrincə, Aİ ölkələrində enerji qıtlığı hələ uzun illər davam edəcək.

Aİ həmçinin un və kərə yağı kimi əsas ərzaq mallarının bahalaşmasına müqavimət göstərə bilməyib, çünki bu məhsulların əksəriyyəti Rusiya və Ukraynadan idxal edilirdi. Enerji və ərzaq qiymətlərinin artması Avropada böyük inflyasiyaya səbəb olub. 2022-ci ildə Aİ Rusiyaya qarşı 10 sanksiya paketi qəbul edib. Hazırda 11-ci paketin üzərində iş gedir.

Müharibənin başlaması ilə Avropa İttifaqı tarixində ilk dəfə olaraq silah və digər hərbi texnikanın alınmasını və təchizatını maliyyələşdirməyə qərar verib. Bu məsələdə büdcədənkənar maliyyə alətindən - "Avropa Sülh Fondu"ndan istifadə edilib, çünki sazişlər Aİ büdcəsindən hərbi əməliyyatları maliyyələşdirmək üçün istifadə etməyə icazə vermir.

Bundan əlavə, miqrasiya hələ də Avropa İttifaqının əsas problemlərindən biridir və onun həllində ölkə liderləri konsensusa gələ bilmirlər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azpetrol" kollektivi Ulu Öndər Heydər Əliyevi dərin hörmət və ehtiramla anır



"Azpetrol" şirkətinin baş direktoru Ceyhun Məmmədov və şirkətin kollektivi Ulu Öndər, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Fəxri xiyabandakı məzarını ziyarət edərək, önünə əklil qoymuş və dahi şəxsiyyətin ruhunu birdəqiqəlik sükutla yad etmişlər.

# "Günay Bank" və "Günay Sığorta" şirkətlərinin kollektivi Ümummilli Liderin məzarını ziyarət etdi



Bu gün "Günay Bank" ASC və "Günay Sığorta" şirkətlərinin işçi heyəti Ulu Öndər Heydər Əliyevin 100-cü ildönümü münasibətilə Fəxri xiyabanı ziyarət etmiş, Ümummilli Liderin əziz xatirəsinə dərin ehtiram göstərərək, məzarı önünə əklil və gül dəstələri qoymuşdur.



# "AzerGold" QSC tərəfindən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə alpiniada təşkil edilib

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Alpinizm Federasiyasının dəstəyi ilə "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən Şahdağ Milli Parkının ərazisində Böyük Qafqazın Başdağ silsiləsinin Qızıl Qaya massivində Ulu Öndərin adını daşıyan, dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə alpiniada təşkil edilib. "AzerGold" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, alpiniadada səhmdar cəmiyyət və onun törəmə şirkəti olan "Daşkəsən Dəmir Filiz" Məhdud Məsuliyyətli Cəmiyyətinin (DDF MMC) bir qrup əməkdaşı iştirak edib.




Azərbaycanın ən yüksək yaşayış məntəqələrindən biri olan Xınalıq kəndindən başlayan alpiniadanın iştirakçıları Qızıl Qaya massivinin ətəklərində düşərgə salaraq, müəyyən olunmuş marşrut üzrə "Heydər zirvəsi"nə doğru yürüş ediblər. Mürəkkəb relyef və sərt iqlim şəraitinə baxmayaraq, böyük ruh yüksəkliyi və əzmkarlıqla zirvəyə çatan yürüş iştirakçıları tərəfindən dahi şəxsiyyətin xatirəsi dərin ehtiramla yad edilib. Zirvədə Azərbaycan Respublikasının Dövlət Bayrağı ilə yanaşı, "AzerGold" QSC və "DDF" MMC-nin korporativ bayraqları dalğalandırılıb.

# Avarçəkmə üzrə "Prezident Kuboku-2023" beynəlxalq reqatası başa çatdı






Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının 4-7 may tarixlərində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar təşkil etdiyi "Prezident Kuboku-2023" beynəlxalq reqatasına yekun vurulub.

20-dək ölkədən 100-dən artıq idmançının mübarizə apardığı, tarixi torpağımız Suqovuşanda start götürüb Mingəçevirdə davam edən reqatanın mükafatlandırma və bağlanış mərasimi Bakıda keçirilib.

Bakı bulvarında baş tutan bağlanış mərasimində əvvəlcə qalib idmançılar mükafatlandırılıb. Qaliblərə mükafatları gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin baş katibi Azər Əliyev, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının rəhbəri Vüqar Əhmədov, Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konyetsko, Avropa Kanoe Assosiasiyasının prezidenti Jan Zunqrana və digər rəsmi şəxslər təqdim ediblər. Kayak və kanoe yarışlarında Türkiyə, akademik avarçəkmədə isə Gürcüstan komandaları "Prezident Kuboku"na sahib olublar. Azərbaycan avarçəkənləri turnirdə 2 qızıl, 3 gümüş, 9 bürünc olmaqla, ümumilikdə 14 medal qazanıblar.

Bağlanış mərasimi bədii hissə ilə davam edib. Bədii hissədə rəqs qruplarının ifasında maraqlı kompozisiyalar, avarçəkənlərin xüsusi qayıqlarda nümunəvi keçidləri, su şouları, xalq artisti Miri Yusifin solo ifası və möhtəşəm atəşfəşanlıq baş tutub.

*"Azərbaycan"*



# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "Bakı Dəmir Beton-8" ASC-nin səhmdarlarının nəzərinə

"Bakı Dəmir Beton-8" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti Ümumi Yığıncağı 23 iyun 2023-cü il saat 11:00-da Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül qəsəbəsi, Ə.Rəcəbli, 11/33 ünvanında keçiriləcəkdir. Səhmdarların iştirakı məqsədəuyğundur.

Ümumi Yığıncaqda müzakirə olunacaq məsələlər aşağıdakılardır:

*1. Açıq Səhmdar Cəmiyyətin 2022-ci il üçün illik maliyyə hesabatı.*
*2. Dividendlərin verilməsi.*

***Rəhbərlik***

## B İ L D İ R İ Ş

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən "Ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan tibbi ləvazimatları"nın satın alınması üçün 15 mart 2023-cü il tarixdə elan edilmiş açıq tender üzrə malgöndərənin sorğusu əsasında "Dövlət satınalmaları haqqında" AR Qanununun 30.2-ci maddəsinə əsasən tender prosedurunun müddəti uzadılmışdır. Sözügedən tender proseduru üzrə tender təklifi, tender təklifinin bank təminatı möhürlənmiş ikiqat zərfdə **16.05.2023-cü il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy, 170 ünvanına təqdim edilməlidir. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının tender təklifləri isə **17.05.2023-cü il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsində açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi tərəfindən Geyim əmlaklarının, fərqlənmə nişanlarının və yataq ləvazimatlarının satın alınması məqsədilə keçirilmiş açıq tender proseduru üzrə "Esen Tekstil" MMC qalib elan olunmuşdur.

Qalib olmuş şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümova əzizi

**SƏADƏT İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümova əzizi

**SƏADƏT İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümova əzizi

**SƏADƏT İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mahmud Məmmədov Alim Quliyevə anası

**QƏMƏR QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"GünayBank" ASC-nin rəhbərliyi və kollektivi Alim Quliyevə anası

**QƏMƏR QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümova əzizi

**SƏADƏT İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümova əzizi

**SƏADƏT İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5672**
**Sifariş 1135**

**Qiyməti 40 qəpik**